Silindr oymaqlarının möhkəmləndirilməsinin mükəmməl texnologiyasının hazırda aparıcı müəssisələrdə olmaması gəmi dizellərinin resursunun azalması, etibarlığının aşağı düşməsi, ehtiyat hissələrinə tələbatın atrmasının əsas səbəbləridir və nəticədə dizellərin təmirinin əməktutumu xeyli artmışdır. Bu cür aktual məsələlərin həlli riyazi statistika qanunlarının tətbiqilə tədqiqatların artırılmasını, sonradan kompüterdə emal edilməklə müasir avadanlıqlarda aparılmış eksperimentlərin nəticələrinin emalı ilə mümkündür. Müəyyən olunmuşdur ki, hazırda silindr oymaqlarının resursu normativ qiymətlərdən əhəmiyyətli dərəcədə aşağıdır və bununla əlaqədar gəmi təmiri müəssisələrində ehtiyat hissələrinə tələbat daim artır. Silindr oymaqlarının aşağı resursunun əsas səbəbi, xüsusən ağır yanacaqlarda işləməsi zamanı işçi səthlərin böyük yeyilmələridir. Buna səbəb isə elektrokimyəvi korroziya, ərp əmələgəlmə və intensiv çöküntülərin yaranmasıdır. Diametr üzrə oymaqların daxili işçi səthlərinin yeyilməsi orta hesabla 0,9...1,2 mm təşkil edir.

Müəyyən olunmuşdur ki, gəmi dizelləri silindr oymaqlarının möhkəmləndirilməsinin müasir üsullarından texnoloji və istismar xarakteristikalarına görə daha məqsədəuyğunu lazer emalı hesab oluna bilər. Bir sıra xarici ölkələrdə silindr oymaqlarının lazerlə möhkəmləndirilməsi avtomobil və teplovoz mühərrikləri oymaqlarının hazırlanmasında istifadə olunmuşdur. Gəmi mühərrikləri detalları, xüsusilə silindr-piston qrupu detallarının lazer emalı ilə möhkəmləndirilməsinə dair sistemli tədqiqatlar indiyədək aparılmamışdır. Orta sürətli gəmi dizel mühərrikləri silindr oymaqlarının möhkəmləndirilməsi üçün analoqlarına işçi xarakteristikalarına görə uduzmayan CO_2 lazerini istifadə etmək məsləhət görülmüşdür.

Tədqiqatların metod və vasitələri. Tədqiqat obyekti kimi gəmi dizeli silindr oymaqlarının materialının struktur və keyfiyyət xarakteristikaları öyrənilmişdir. Metallqrafik tədqiqatlar Neofolt-32, MIM-8M və РЭМ-200 mikroskoplarında aparılmışdır. Mikrostrukturun faza analizi ДРОН-1 rentgen difraktometri və nüvə-qamma-rezonans analizatorunda (NQR) aparılmışdır. Spektrlər çoxkanallı LP-4840 analizatorunda qeydə alınmışdır.

Yeyilməyə dözümlülüyün qiymətləndirilməsi üçün nümunələr ПМТ-3 markalı bərklik ölçənində 1N yüklənmədə 10 mm/dəq. sürətlə hərəkətə gətirilmişdir. Şliflərə silindrin tərəflərinə müxtəlif bucaqlar altında cızıqlar çəkilmişdir. Tribotexniki sınaqlar 2070 CMT-1 sürtünmə maşınında disk-kolodka sxemi üzrə aparılmışdır. Qalınlığı 10 və diametri 50 mm olan disklər SÇ25 markalı boz çuqundan qum-gil və mərkəzdənqaçma qəlibində hazırlanmışdır. Kontrcisim qismində 6Ч3Н 36/45 ortadövrlü mühərrikin porşen həlqələrindən hazırlanmış nümunələr istifadə olunmuşdur.

Kolodkanın disklə təmas sahəsi 100 mm^2 olmuşdur. Disklərin səthi Ra=0,63...0,8 mkm, kolod-kanınkı isə Ra=1,25...1,6 mkm kələ-kötürlüyə malik olmuşdur. Sürtünən səthlərin kələ-kötürlüyünə 201 markalı profilometrlə nəzarət edilmişdir. Sürtünmə əmsalı induksiya vericisi vasitəsilə qeydə alınmış və КСП-4 elektron potensiometri ilə yazılmışdır. Sürtünən cütlərin yeyilməyə dözümlülüyə sınaqları kontakt zonasına sulu-yağlı emulsiyanın verilməsi ilə aparılmışdır. Yeyilmənin intensivliyi kriteriyası qismində nümunələrin kütləsinin azalması qəbul edilmişdir. Nümunələrin kütlə itkisi 10^4q dəqiqliklə BAP-200 markalı analitik tərəzidə təyin olunmuşdur.

Eksperimentlər və nəticələrin müzakirəsi. Nümunələrin lazer emalı gücü 1700Vt olan "Kometa-2" markalı qurğuda aparılmışdır. Lazer şüasının yerdəyişməsinin xətti sürəti və şualanma gücü V=4,5...10mm/s, P - 500...1700Vt həddində dəyişmişdir. Lazer emalına uğradılmış nümunələrin işçi səthlərində eni 2...12mm və addımı 2...5mm intervalında, emal olunan səthin oxuna 0, 30, 45 və 90^0 bucaq altında yerləşmiş möhkəmlənmiş zolaqlar müşahidə olunmuşdur. Sınaqdan əvvəl nümunələr 150^0C-də 2 saat müddətində $M10B_2$ yağı ilə hopdurulmuş, sonra isə Б-70 benzinində

yuyulmuş və 120^0C-də 10 dəq. ərzində quru dulmaqla otaq teperaturunadək soyudulmuşdur Sınaq nümunələri 10 dəq. ərzində ilkin olaraq 800N yük altında 0,2m/s sürətlə işlədilmişdir..

İkinci mərhələdə sınaqlar $M10B_2$ yağlayıcısını sürtünmə zonasına nasosun köməyilə damcı üsulu ilə verilməklə aparılmışdır. Hər bir sürtünmə cütünün sınaqları 0,2m/s sürüşmə sürəti və diskret dəyişən 800-1200N xüsusi yükdə aparılmışdır. Sürtünmə cütü kimi silindr oymağı (adi SÇ25 və lazer emalına uğradılmış SÇ25) və porşen həlqəsi götürülmüşdür. Sınaqlarda nümunələrə göstərilən təzyiq müntəzəm olaraq aptırılmışdır: ilkin olaraq 10 dəq ərzində 800N yükləmədə 0,2m/s sürətlə uyuşma aparılmışdır. Sonra kontakt zonasına yağın verilməsi dayandırılmış və proses quru sürtünmə mərhələsinə adlamışdır. $6500 \cdot 10^2$ dövrdən sonra yüklnəmə 1000N-dək artırılmışdır.

Sınaqların son mərhələsində nümunələrin yüklənməsi 1200 N-a qədər artırılmışdır. Bu yük altında nümunələr sürtünən səthlərin ilişmə anınadək sınaq edil mişlər. Sürtünmə momentinin kəskin artması ilə cızıqlanma qeydə alınmış və bundan sonra sınaqlar dayandırılmışdır. Beləliklə, ilkin laborator tədqiqatlarla müəyyən olunmuşdur ki, lazer emalın dan sonra silindr oymaqlarının səth qatlarının bərkliyi HV1000...1200 kq/mm^2 intervalında olur. Buna səbəb silindrin güzgü səthində austenit-martensit-karbidli strukturun üstün mövqelərə malik olmasıdır.

Göstərilmişdir ki, yeyilmə şəraitində işləyən detalların resursunu artırmaq üçün səth qatlarının strukturunu detalların hazırlanması və istismar şəraitinin birgə təhlili əsasında seçmək lazımdır. Boz çuqunun tərkibində daimi aşqar kimi iştirak edən elementlərin çuqunun fiziki-mexaniki xassələrinə təsirinə sinergetik yanaşma tətbiq edilmişdir. Müəyyən olunmuşdur ki, əvvəla, silindr oymaqları istehsal etmək üçün boz çuqun tökükləri alarkən çuqunda kükürd və fosfor kimi zərərli elementlərin miqdarını maksimum azaltmaq lazımdır. İkincisi, lazer emalına uğradılan boz çuqun silindr oymaqlarını xüsusi kimyəvi tərkibdə hazırlamaq lazımdır: 2,9...3,3% C; 1,3...1,6% Si; 1,0...1,3% Mn; 0,3...0,5% Cr; P < 0,2% ; S < 0,1% . Sonrakı tədqiqatlarda lazer emalı rejimləri və boz çuqunun xassələri arasında qarşılıqla əlaqələr öyrənilmişdir. СЧ25 markalı qum-gil qəliblərdə və mərkəzdən-qaçma üsulu ilə hazırlanmış silindr oymaqlarının lazerlə möhkəmləndirilməsinin müxtəlif rejimləri aprobasiya edilmişdir. Lazer emalının oymağın materialına təsirinin qiymətləndiriləmə meyarları kimi: səth qatları üzrə mikrobərkliyin dəyişməsi *(HV),* tablanma dərinliyi *(h)* və yeyilmə intensivliyi *(W)* götürülmüşdür.

Müəyyən olunmuşdur ki, mikrobərkliyin (HV) dəyişməsi əsasən lazer şüa sının gücündən *(P)* asılıdır. Lazerin gücünü 700-dən 1700Vt-dək artırdıqda səthin mikrobərkliyi HV 750-dək (qum-gil qəlibə tökmə) artır. Mikrobərkliyin maksimal qiyməti (HV 900) mərkəzdənqaçma ilə tökülmüş oymaqlar üçün P=1700Vt olduqda alınır. Qum-gil qəliblərdə alınmış çuqunlarda 0,12 mm dərinlikdə P=700Vt olduqda mikrobərklik cüzi dəyişir. Bu, lazer ema lının yüksək sürəti və strukturu dəyişmək üçün aşağı gücü ilə izah olunur.


Müəyyən olunmuşdur ki, lazer emalının rejimləri lazer təsiri zonalarının dərinliyi və eninə birbaşa təsirə malikdir. Lazer şüasının gücünün artırılması ilə termiki möhkəmlənmə zonasının eni və dərinliyi artır. Lazer emalının gücünün müxtəlif üsullarla alınmış boz çuqunların möhkəm ləndirilmiş zonasının dərinliyinə təsiri öyrənilmişdir. Müəyyən olunmuşdur ki, gücün dəyişməsi daha böyük təsiri mərkəzdənqaçma üsulu ilə alınmış oymaqlara göstərir. Belə ki, çuqunun ərimə zonası (mərkəzdənqaçma tökməsi) P > 700Vt olduqda müşahidə olunur, eyni zamanda qum-gil qəliblərə tökülmüş çuqunlarda belə zona P = 800...900Vt olduqda yaranır.

Lazer şüasının gücünü 900...1700Vt-dək intervalda qaldırdıqda mərkəzdənqaçma çuqun oymaqlarda lazer möhkəmlənməsinin dərinliyi 2 mm-dək artır, qum-gil qəliblərdə hazırlanmış oymaqlarda bu göstərici 1,6 mm təşkil edir. Çuqunun möhkəmlənmiş zonasının dərinliyi üzrə mikrobərkliyin paylanma xarakteri təhlil olunmuşdur. Lazer emalının gücü 520...1700Vt olduqda dərinlik üzrə mikrobərkliyin azalmasının ümumi qanunauyğunluğu müşahidə olunur. P = 1280Vt olduqda lazer emalı zonasının səthində mikrobərkliyin müşahidə olunan azalması münasibdir, çünki materialın uyuşma prosesi daha az vaxt ərzində baş verəcəkdir.

Bu zaman lazer emalından sonra silindr oymaqlarının ,,uyuşma" əməliyyatının əmək tutumu azalır. Uyuşmadan sonra kontakt səthlərində 0,05...0,07mm dərinlikdə mikrobərklik HV = 800 kq/mm^2-dək artır, bu qatda yüksək yeyilməyə davamlı mikrostrukturun formalaşması gedir. Bu qalınlıqda xırdadənəli sementit birləşmələrilə austenit-martensit sahələri müşahidə olunur. Sınaqlar zamanı nümunələr lazerin gücü P=520...1700Vt və sürət V=10mm/s olduqda möhkəmləndirilmişdir. Torpaq qəliblərdə alınmış çuqun oymaqların lazer emalının dərinliyini artırmaq üçün qrafit birləşmələrinin ölçüsü 95 mkm-dən az, onların faizlə miqdarı isə maksimal olmalıdır. Perlitin ölçüləri və miqdarı da lazer emalının dərinliyinə eyni cür təsirə malikdir. Perlitin ölçüləri 0,9 mkm-dək və onun miqdarı 88%-dən çox olduqda lazer emalının dərinliyi artır.


Mərkəzdənqaçma tökmə üsulu ilə alınmış çuqunlarda qrafit birləşmələrinin böyüməsilə lazer emalının dərinliyinin azacıq artımı baş verir. Qrafitin faizlə miqdarının artması isə tərs mütənasib asılılığa tabe olur. Lazer emalının dərinliyini artırmaq üçün perlitin maksimal miqdarı və minimum ölçülərini əldə etmək zəruridir. Qrafitin ölçüsü və perlitin miqdarının yeyilməyə təsir xarakteri qum-gil və mərkəzdənqaçma qəliblərində hazırlanan oymaqlar üçün eyni qanunauyğunluğa malikdir. Qrafitin ölçüsü 100mkm və miqdarı 90%-dək olduqda çuqunun yeyilməyə davamlılığı azalır. Qrafit 100-110 mkm ölçüdə və perlit 90...92% olduqda maksimal yeyilmə müşahidə olunur. Odur ki, yeyilməni azaltmaq üçün perliti maksimal və qrafiti 110...130 mkm olan struktur əldə etmək lazımdır.

Tədqiqat nəticələri göstərmişdir ki, oymaqların minimal yeyilməsinə nail olmaq üçün lazer şüasının gücü P=1000...1300Vt, sürət V = 5...8mm/s intervalında olmalıdır, bu halda mikrobərklik HV 800...900 kq/mm^2 həddində alınır. Belə mikrobərklik çuqun oymaqların maksimal yeyilməyə davamlılığını təmin edir. Gəmi dizelləri silindr oymaqlarının lazerlə möhkəmləndirilməsi xüsusi texnoloji kompleksdə yerinə yetirilmişdir (şəkil 1). Lazer qurğusu (1), oymaqları fırlatmaq üçün ləvazimat (2), şüanı nəqletmə sistemi (3,4), fokuslayan quruluş (5), ventilyator (6) və siyirtmədən (7) ibarətdir. Şüanı nəqletmək üçün optik sistem onu fokuslama qurğusuna çatdırmağa imkan verir, sonuncu isə şüanı oymağın daxili səthinə istiqamətləndirir.



Şəkil 1. *Lazer texnoloji qurğusu*


Gəmi dizel mühərriklərində istilik mübadiləsi proseslərinin effektivliyinin artırılması üçün blokda yerləşmə sxemi (şəkil 2) əsasında oymağın istismar şəraiti təhlil olunmuşdur.



Şəkil 2. *Silindr oymağının mühərrikin blokunda quraşdırılma vəziyyəti:*
1- dayaq bortu; 2- silindr oymağı; 3- silindr bloku; 4- kpləşdirici araqatları;
5- güzgü səthi;6- soyutma səthi

Silindr oymağını bimetallik tökmə üsulu ilə hazırlamaq təklif olunmuşdur: xarici qat – azkarbonlu tökmə poladı, aralıq qat – termoizoliyator, daxili qatı – modifikasiya edilmiş boz çuqun. Bimetallik silindr oymaqlarının hazırlanma texnologiyası belə təsvir edilir (şəkil 3). Əvvəlcə fırlanan metal qəlibə 25Л (ГОСТ 997-98) markalı azkarbonlu maye polad tökülür. Kristallaşma başladıqdan sonra polad pəstahın daxili səthinə pulverizatorla sirkon qumundan ibarət 0,3..0,4mm qalınlığında nazik termoizolyator qatı çəkilir. Sonra qəlibə lazımi qalınlıqda maye çuqun tökülür. Oymağın divarının termiki müqavimətinin artırılması temperatur basqısının artmasına gətirib çıxarır. Bu, istilikverən divarın temperaturu dəyişməz olduqda, istiliyi qəbul edən divarın temperaturunun artması hesabına baş verir.

Beləliklə, soyutmaya verilən istilik miqdarı və istilik mübadiləsinin digər faktorları sabit olduqda termiki müqavimətin artırılması silindrin səthləri arasında istilikötürmənin bərabərliyi təmin edilir. Bu isə mühərrikin effektiv f.i.ə. artmasına gətirib çıxarır və təklif edilən konstruktiv həllər və onların additiv texnoloji reallaşdırılmasının müsbət nəticəsinə dəlalət edir.



Şəkil 3. *Bimetallik oymağın mərkəzdənqaçma tökmə sxemi:*
1- metal qəlib; 2 - tökmə pəstah; 3 – yastıq dayaqları; 4 - mexaniki ötürmə;
5 - elektrik mühərriki; 6 – novça

Nəticə. Beləliklə, tədqiqatlar silindr oymaqlarının resursunun artırılmasının qiymətləndirilməsinə həsr olunmuşdur. "Akademik Tofiq İsmayılov" gəmisində dizelin silindr oymağında yeyilmənin ölçmə nəticələri təhlil olunmuşdur. Müəyyən olunmuşdur ki, yuxarı kəmər rayonunda oymağın yeyilməsinin orta hesabi qiyməti 0,126mm, real orta yeyilməsi isə 0,136mm, yeyilmənin orta sürəti isə 6,8mkm/saat təşkil edir. Silindr oymaqlarının möhkəmləndirilməsinin lazer texnologiyasının tətbiqinin iqtisadi səmərəsinin hesablanması standart metodika üzrə aparılmışdır. Texniki-iqtisadi hesablamalarla təyin olunmuşdur ki, lazer texnoloji kompleksin silindr oymaqlarının daxili səthinin emalında tətbiq olunmasından əldə olunan iqtisadi səmərə 100 oymaq üçün resurs 50% artdıqda 47390 man, 100% artdıqda isə 188.325 man təşkil edir.

Lazer möhkəmləndirilməsinin seçilmiş rejimləri ilə 64PH36/45 mühərrikinin silindr oymaqları emal olunmuşdur. Oymaqlar "Dağıstan" teploxoduna sınaq stendinə qoyulmuşdur. Teploxoda qoyulmuş oymaqlar üç naviqasiya (6000 saat) işləmiş və aparılan texniki baxışda qüsürlar aşkar edilməmişdir. Natur sınaqalrı göstərmişdir ki, lazerlə emal olunmuş oymaqların yeyilməyə davamlılığı 1,5-1,6 dəfə yüksəkdir. Sınaq stendində eksperimental oymaqlar 1000 saat işlədikdən sonra aparılan texniki baxış göstərmişdir ki, oymaqların yeyilməsi normativ qiymətlər həddində dəyişir.

Ədəbiyyat

1. Провотар А.Г., Дорохов А.Ф. Исмаилов А.Р. Минимизация потерь мощности на преодоление сил трения судовых ДВС / Вестник Астраханского Государственного Технического Университета, 2015, №2, с. 30-36
2. Исмаилов А.Р., Исмаилов Н.Ш. Особенности технологии дефектации цилиндровых втулок судовых дизелей // "Dəniz nəqliyyatında innovativ texnologiyalar" X Beynəlxalq elmi-texniki konfransın materialları, ADDA, 2015, №1, s. 33-35
3. İsmayılov A.R., İsmayılov N.Ş. Gəmi mühərriklərində silindr oymaqlarının imtinalarının xüsusiyyətləri / ADDA, Elmi Əsərlər, 2015, №2, c. 30-36
4. İsmayılov A.R., İsmayılov N.Ş., Məmmədov E.D. Silindr oymaqlarının hazırlanma üsullarının xüsusiyyətləri / ADDA, Elmi Əsərlər, 2016, №2, s.18-20
5. Исмаилов А.Р., Исмаилов Н.Ш., Мамедов Э.Д. Повышение эффективности процессов теплообмена судовых двигателей путем получения биметаллических цилиндровых втулок / Науковий вісник Херсонської Державної Морської Академії, Херсон, 2016, № 2 (15), с. 20-24
6. İsmayılov N.Ş., Sadıqov V.B., Xankişiyev İ.A., İsmayılov A.R. Gəmi silindr oymaqlarının lazerlə emalında səth qatında çuqunun struktur və xassələrinin dəyişməsi / ADDA, Elmi Əsərlər, 2020, №1, s. 12-17

Məqalə qəbul olunub: 25.09.23
Tövsiyə edib: prof. Məmmədov A.T.

UOT 621.742.82

"BAKU STEEL COMPANY" MMC-də YENİ FASİLƏSİZ TÖKMƏ MAŞININ QURAŞDIRILMASI VƏ TÖKÜLƏN PƏSTAHLARIN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ

[1]Məmmədov A.T., [1]İsmayılov N.Ş., [1]Hüseynov M.Ç., [2]Quliyev F.T.

[1]Azərbaycan Texniki Universiteti
AZ1148, Bakı şəh., H. Cavid pr., 25
[2]"Baku Steel Company" MMC
AZ1029, Bakı şəh., Mir-Cəlal küç., 15
E-mail: nizism@mail.ru

Xülasə. *"Baku Steel Company" MMC-də yeni fasiləsiz tökmə maşının quraşdırılması və onun mövcud maşınla müqayisəsi aparılmışdır. Polad pəstahların yeni fasiləsiz tökmə maşınında (PFTM) hazırlanmasının üstünlükləri göstərilmişdir. Müəyyən olunmuşdur ki, PFTM-in qabarit ölçülərinin azaldılması üçün yeni quraşdırılan maşının əyrilik radiusu 10,2 metr qəbul edilməlidir. Bu radius kristallaşma zamanı pəstahlarda çatlar və digər xarici qüsurların yaranma ehtimalını sıfıra endirmişdir. Müəyyən olunmuşdur ki, əyrilik radiusunun rasional qiyməti kristallaşdırıcıda müxtəlif ölçülü kvadrat və boru pəstahlarının keyfiyyətli alınmasına imkan verir.*

Tökülən pəstahların tələb olunan keyfiyyətini təmin etmək üçün PFTM-da maye metalın elektromaqnit qarışdırma (EMQ) qurğusu nəzərdə tutulmuşdur. İstehsal olunan kvadrat və boru pəstahlarının keyfiyyətini daha da yüksəltmək üçün maye metalın sobadankənar emal üsulları və tökmə prosesinin təkmilləşdirilməsinin vacibliyi əsaslandırılmışdır.

Müəssisədə innovativ metallurji texnologiyaların tətbiqi və müasir avadanlığın istismarı hesabına polad pəstahların keyfiyyətinin yüksəldilməsi imkanları göstərilmişdir. Boru pəstahlarına qoyulan tələblər və yayma prosesinin xüsusiyyətlərinin təhlili əsasında pəstahlarda qeyri-metal birləşmələr və qazların miqdarını azaltmaq üçün fasiləsiz tökmə maşınının vakuumator qurğusu ilə təchiz olunması təklif olunmuşdur.

Göstərilmişdir ki, EMQ-nin tətbiqi pəstahların səth qusurlarını 2-3 dəfə azaltmağa, bərabəroxlu kristallar zonasını 50-100% artırmağa, mərkəzi məsaməlilik və likvasiyanı 0 baladək azaltmağa, tökmə sürətini 20-30% artırmağa və kristallaşdırıcı ilə EMQ-nin birlikdə kütləsini 3 dəfə azaltmağa imkan verir. EMQ və vakuumatorun birgə tətbiqi tökülən polad markaları, o cümlədən yüksək karbonlu və legirli poladların çeşidini xeyli genişləndirir.

Abstract. *The paper presents the results of work on the installation of a new continuous casting machine at Baku Stell Company LLC and conducts a comparative analysis with the existing machine at the plant. The advantages of the method of continuous casting of blanks on a new continuous casting machine (CCM) are shown. To reduce the overall dimensions of the continuous casting machine, the radius of curvature of the newly installed machine was assumed to be 10.2 m. This led to zero probability of cracks and other external defects during the crystallization of cast billets.*

To improve the quality of cast billets, the new CCM is provided with a liquid metal electromagnetic mixing device. It is shown that in order to ensure the high quality of produced square and pipe blanks, it is very important to choose a method for processing liquid metal and improve the casting process. To this end, the enterprise has created ample opportunities for the introduction of innovative technologies and equipment operation.

Depending on the rolling process, the requirements for the resulting tubular blanks, the amount of non-metallic inclusions and gases in them must be lower than the requirements of the standard so that these defects do not adversely affect the rolling process. The solution of these problems becomes

possible with the help of a new caster and an additionally installed device, an electromagnetic stirrer and a vacuum torus.

In addition, the use of an electromagnetic stirrer (EMF) makes it possible to reduce the number of surface defects by 2-3 times, increase the zone of equiaxed crystals by 50-100%, reduce the central porosity segregation to 0 points, increase the casting speed to 20-30% and reduce the weight of the mold together with EMF by 3 times. At the same time, the joint use of an EMF and a degasser will make it possible to expand the range of cast steel grades, including carbon and special steels.

Аннотация. *В работе излагаются результаты работ по установке новой машины непрерывной разливки в ООО "Baku Stell Company" и ведется сравнительный анализ с существующей на заводе машиной.Показаны преимущества способа непрерывной разливки заготовок на новой машине непрерывной разливки (МНЛЗ). Для уменьшения габаритных размеров МНЛЗ радиус кривизны новой установленной машины принят 10,2 м. Это привело к нулю вероятность образования трещин и других наружных дефектов во время кристаллизации отливаемых заготовок.*

Для повышения качества отливаемых заготовок нановой МНЛЗ предусмотрено устройство электромагнитного перемешивания жидкого металла. Показано, что для обеспечения высокого качества производимых квадратных и трубных заготовок очень важен выбор способа обработки жидкого металла и совершенствование процесса литья. С этой целью на предприятии созданы широкие возможности для внедрения инновационных технологий и эксплуатации оборудования.

В зависимости от процесса прокатки требования, предъявляемые к получаемым трубным заготовкам, количество неметаллических включений и газов в них должно быть ниже чем требования стандарта, чтобы эти дефекты не оказывали отрицательного влияния на процесс прокатки. Решение этих проблем становится вазможным с помощью новой МНЛЗ и дополнительно установленного устройства, электромагнитного перемешивателя и вакууматора.

Установлено, что применение электромагнитного перемешивателя (ЭМП) позволяет снизить количество поверхности дефектов в 2-3 раза, увеличить зону равноосных кристаллов в 50-100%, снизить центральной пористости и ликвацию до 0 балла, повышать скорость литья до 20-30% и уменьшить массу кристаллизатора вместе с ЭМП в 3 раза. Показано, что совместное использование ЭМП и вакууматора позволят расширать номенклатуры марок разливаемой стали, в том числе углеродистых и специальных сталей.

Açar sözlər: *kvadrat və boru pəstahları, vakuumator qurğusu, fasiləsiz tökmə maşını, maqnit qarışdırıcı, bağlı kontur*

Keywords: *square billet, pipe billet, device, degasser, continuous casting machine, magnetic stirrer, closed loop*


Ключевые слова: *квадратная заготовка, трубная заготовка, установка, вакууматор, машина непрерывного литья заготовок, магнитный перемешиватель, закрытый контур*

Giriş. "Baku Steel Company" MMC şirkətində yüksək keyfiyyətli polad pəstahlar istehsalını təmin edən yeni fasiləsiz tökmə maşınının quraşdırılması və sınaqları həyata keçirilir. Hazırda zavodda istismar olunan Pəstahların Fasiləsiz Tökmə Maşınının (PFTM) radial hissəsinin əyrilik radiusunun 6m və tökmə sürətinin xeyli aşağı olması keyfiyyətli pəstahların alınmasına şərait yaratmır [1-3].

Yeni quraşdırılan tökmə maşınının mövcud maşından üstünlüyü odur ki, radial hissənin əyrilik radiusu 10,2m-dir, maşın daha yüksək sıxlığa malik dörd axın xətli tökmə sisteminə malikdir və eyni vaxtda iki 60 tonluq çalovun yerləşdirilməsinə imkan verir. Şəkil 1-də yeni PFTM-in radial hissəsinin quruluşu göstərilmişdir. Yeni qurulan maşının daha bir özəlliyi ondan ibarətdir ki, poladın markasından asılı olaraq fasiləsiz tökməklə ölçüləri 100-200 mm-lik kvadrat, həm də 130-250 mm-lik dairəvi

pəstahların alınmasına imkan verir. Yeni maşının tökmə sürəti 0,5-6m/dəq intervalında dəyişir və pəstahın soyuma rejimi avtomatik tənzimlənir.

Yeni maşın pəstahların 6000-12000 mm uzunluqda tökülməsi, habelə sifarişçinin tələbinə uyğun uzunluqlarda pəstah istehsalı və pəstahların qaz kəsici ilə avtomatik kəsilməsini təmin edir. Radial tipli yeni fasiləsiz tökmə maşınının əsas özəlliklərindən biri də maye poladın kristallaşdırıcıya tökülməsinin qapalı mühitdə aparılmasıdır.



Şəkil 1. *Fasiləsiz tökmə maşınının radial hissəsi*

Bu halda maye metal çalovu, aralıq çalov və kristallaşdırıcı arasında məsafədə bağlı mühit yaradılır və kənar təsirlər olmadan tökmə prosesi yerinə yetirilir. Yeni Fasiləsiz Tökmə Maşınında kristallaşmanın daha nizamlı gedişini təmin edən kristallaşdırıcı gilizin başlanğıc hissəsində maqnitli qarışdırıcı qurğu yerləşdirilmişdir. Bu qurğu hesabına kristallaşma prosesi daha fəal gedir, kristal mərkəzlərinin yaranma və böyümə sürəti, həm də istiqaməti kristallaşma müddətindən asılı olaraq nizamlı şəkildə tənzimlənir Maqnit qarışdırıcı qurğu tətbiq etdikdə kristallaşma prosesində iridənəli struktur xırdadənəli strukturla əvəz olunur. Bu isə boruyayma üçün daha yüksək sıxlığa malik pəstah istehsalını təmin edir.

"Baku Steel Company" MMC-də vakuumator qurğusu ilə təchiz olunmuş yeni PFTM neftçıxarma sənayesi üçün daha yüksək keyfiyyətli boru pəstahlarının alınması və böyük dərinliklərdə yüksək təzyiq altında işləyən borular istehsal etməyə imkan verəcəkdir. Qeyd edək ki, sözügedən avadanlıqlar Zaqafqaziyada yalnız "Baku Steel Company" MMC-də qurulmuşdur və zavodun istehsal gücünü ildə 0,5mln tona çatdırmağa imkan verəcəkdir [2, 3]. Şəkil 2-də maye metal çalovunun PFTM-də yerləşdirilməsi göstərilmişdir.




Şəkil 2. *Maye metal çalovunun PFTM-ə yerləşmə qurğusu*

Əsas məzmun. Son illər Azərbaycanın neft sektorunda xususi xas-səli polad borulara tələbat xeyli artmışdır. Bu tendensiyanı nəzərə alaraq "Baku Steel Company" MMC neftçıxarma sənayesində istifadə olunan yüksək təzyiqli qazma borularının APİ standartı və 01 yanvar 2021-ci il tarixdən qüvvədə olan yeni yaradılmış ГОСТ31446-2017 standartının tələblərinə cavab verən polad boruların istehsalını həyata keçirməyə başlamışdır. Bu məqsədlə şirkət yüksək keyfiyyətli polad istehsal etmək üçün xususi seyrəkliyə malik vakuum mühitində maye poladın emal edilməsi sahəsində işləri həyata keçirir.

Tədqiqatlarla müəyyən olunmuşdur ki, vakuumator qurğusunun tətbiqi poladın markasından asılı olaraq daha dərin emal prosesini həyata keçirməklə yüksək keyfiyyətli boru pəstahlarının istehsalına imkan verir [4, 6]. Qeyd edək ki, fasiləsiz tökmə pəstahlarının istehsalında soba-çalovda emal prosesi poladda qeyri-metal birləşmələr, o cümlədən oksidlər (FeO, MnO SiO_2, P_2O_5) və Fe, Na, K-un azotla duzlu birləşmələri, habelə nitridlər ($Fe(NO_2)_3$, $NaNO_2$, KNO_2) və sulfidlərin (FeS, MnS, CuS, TiS) müəyyən dərəcədə təmizlənməsinə şərait yaradır.

Bundan başqa, sobada əritmə dövründə qaz və ovuntularla üfürmə, habelə çirkləndiricilərin kənarlaşdırılması üçün təsirsiz qaz mühitində vakuumator qurğusunda qalıq qazlardan təmizləmə poladı daha dərin emal etməyə imkan verir. Beləliklə, təsirsiz qazlar mühitində (Ar, He) vakuumator qurğusunda emal etməklə poladda olan O_2, N_2, H_2 kimi zərərli qazları maye poladdan daha dərindən təmizləmək və nəticədə keyfiyyətli məhsul əldə etmək olar.

Qeyd edək ki, yüksək təzyiq altında işləyən qazma boruları istehsalında maye poladın vakuumator qurğusunda emal edilməməsi metalın qazsızlaşdırılmasının tam həyata keçirilməsinə imkan vermir. Ona görə də borular markadan asılı olaraq sınaq müddətində 40-70 MPa təzyiqə yoxlanmaya davam gətirmir. Fikrimizcə, bunun əsas səbəbi əritmə prosesində yaranan qazlar və qeyri-metal birləşmələrin maye poladın tərkibindən tam kənarlaşdırıla bilinməməsidir. Hazırda bu məqsədlə "Baku Steel Company" MMC-də vakuumator qurğusunun quraşdırılması həyata keçirilir (şəkil 3).



Şəkil 3. *Vakuumator qurğusunun sxemi*

Bu qurğu maye metalla dolu çalovun vakuumator qurğusunun içərisinə yerləşdirilmə prinsipilə işləyir. Vakuumlaşdırma prosesini yaxşılaşdırmaq üçün metalı çalovun dibinə quraşdırılmış məsaməli tıxac vasitəsilə arqonla üfürürlər.

Vakuumlaşdırma prosesinin kinetikası. Poladın sənaye şəraitində vakuumla emal prosesini səmərəli aparmaq üçün qazsızlaşdırma reaksiyalarının sürəti və ona təsir edən amilləri bilmək lazımdır. Hidrogen və azotun kənarlaşdırılma kinetikası prosesin aşağıdakı əsas mərhələlərinin getməsilə təyin olunur:

- metal-qaz ayırma səthinə qazın atomlarının daşınması;

- hidrodinamik qarışdırma olmadıqda incə diffuziya qatı vasitəsilə diffuziya (maye vanna nə qədər intensiv qarışdırılırsa, diffuziya qatının qalınlığı bir o qədər az olur);
- səthi adsorbsiya qatında qazın atomlarının adsorbsiyası;
- molekullaşma reaksiyaları və qaz molekullarının yaranması;

$$2H_{agc} = H_2 \text{ və ya } 2N_{agc} = N_2;$$

- yaranan molekulların qaz fazasına desorbsiyası;
- səthdən qaz molekullarının getməsi və ya miqrasiyası.

Bu halda reaksiyanın sürəti Fik diffuziyasının birinci qanunu ilə yazılan tənliklə təqdim oluna bilər:

$$\frac{dc}{d\tau} = k\frac{F}{V}\cdot(C_S - C), \tag{1}$$

$$\ln\left[(C_s - C)/(C_s - C_0)\right] = -k\frac{F}{V}, \tag{2}$$

$$\ln\left[(P_s - P)/(P_s - P_0)\right] = -k\frac{F}{V}, \tag{3}$$

burada C – τ vaxtı ərzində poladdakı qazların konsentrasiyası; C_S – maye poladın səthində qazların taraz konsentrasiyası; C_0 – τ=0 vaxtında maye poladda qazların ilkin konsentrasiyası; $\frac{dc}{d\tau}$ – maye poladda həll olmuş qazların konsentrasiyasının dəyişmə sürəti; F – qazsızlaşdırmada səthin sahəsi; k – qazın tipi və maye poladın qarışdırılma intensivliyindən asılı olan kütləköçürmə əmsalı; V – maye poladın həcmi; P_s – tarazlıq yarandıqdan sonra maye polad üzərində qazların təzyiqi; P – τ vaxtından sonra maye polad üzərində qazların təzyiqi; P_0 – reaksiyanın başlanğıcında (τ=0) maye polad üzərində təzyiqdir.

(1) - (3) tənliklərindən görünür ki, qazsızlaşdırma sürətinə aşağıdakı amillər kömək edir: maye poladın səthi üzərində təzyiqin azalması; kütlə köçürmənin böyük əmsalı; səthin emal olunan metalın həcminə yüksək nisbəti. Bizim hal, yəni maye poladın çalovda qazsızlaşdırılması halı üçün demək olar ki, əgər çalov vakuum kamerada yerləşdirilirsə, onda qazsızlaşdırma üçün səthin yararlı sahəsi F maye poladın səthinə bərabər olacaqdır, yəni nisbət çox da böyük olmaya bilər. Bu nisbət arqon və digər qazlarla üfürməklə qarışdırmada, metalın ayrı-ayrı paylarının emalında əhəmiyyətli artırıla bilər. Qarışdırma kütləköçürmə əmsalının K artmasına kömək edir. Metal-qaz səthini bloklayan və azotun kənarlaşdırılma prosesinin getməsinə mane olan səthi-aktiv aşqarların iştirakı da böyük həmiyyət kəsb edir.

Belə aşqarlar sırasına, hər şeydən əvvəl, oksigen və kükürd aid edilə bilər. Ona görə metalın oksigensizləşdirilməsi və kükürdsüzləşdirilməsi vakuumlaşdırmada azotun kənarlaşdırma şəraitini hiss olunacaq dərəcədə asanlaşdırır [7,8]. Vakuum altında metalın saflaşdırma prosesi eyni zamanda karbon oksidlərinin qabarcıqlarının ayrılması ilə gedən proseslə sürəklənir, çünki qabarcıqlar metalı intensiv qarışdırır, hidrogen və azotun parsial təzyiqləri sıfra bərabər olduqda əlavə "vakuum kameraları" rolunda çıxış edirlər. Dəmirdə həll olmuş karbon və oksigenin qarşılıqlı təsir reaksiyasının limitləşdirici bəndi fazalararası səthin yaxınlığında kütləköçürmədir. Buna uyğun olaraq oksigen və karbonun konsentrasiyasının azalma sürəti aşağıdakı tənliklərlə yazılır:

$$\frac{d[O]}{d\tau} = k_o\frac{F}{V}\cdot([O]_s - [O]), \tag{4}$$

$$\frac{d[C]}{d\tau} = k_c \frac{F}{V} \cdot ([C]_s - [C]), \tag{5}$$

burada k_o, k_c – oksigen və karbonun kütləköçürmə əmsalları, sm/san; [O], [C] – mayedə oksigen və karbonun konsentrasiyası, %; $\frac{F}{V}$ – səthin həcmə nisbətidir, sm^{-1}.

Maye metalın vakuumlaşdırma prosesini həyata keçirən zavodların təcrübəsinin təhlili göstərir ki, metal tullantılarının iştirakı ilə şixtənin elektrik sobasında əridilməsi və sonra çalovda vakuum şəraitində emalı nəticəsində daha yüksək təmizliyə malik polad pəstahlar almaq mümkündür. Beləliklə, "Baku Steel Company" MMC-də hazırda həyata keçirilən tədbirlər, o cümlədən vakuumator qurğusu ilə təchiz olunmuş Pəstahları Fasiləsiz Tökmə Maşınının işə salınması ölkə və MDB məkanında neftçıxarma sənayesi üçün böyük dərinlik və təzyiqlərdə işləyən yüksək keyfiyyətli pəstahlar və onlardan boruların istehsalına imkan verəcəkdir.

Nəticə. Pəstahları Fasiləsiz Tökmə Maşınında (PFTM) radial hissənin əyrilik radiusunun 10,2m götürülməsi kvadrat və boru pəstahlarında daha əlverişli strukturun formalaşması və daha intensiv tökmə sürətinin seçilməsinə imkan verir, həm də bu halda pəstahlarda səth qüsurları müşahidə olunmur. Yeni quraşdırılan PFTM-də tökülən kvadrat və boru pəstahların yüksək keyfiyyətinə maye poladı bağlı konturla tökməklə nail olunur. Soba-çalov və vakuumator qurğularında maye metalı təsirsiz qaz mühitində üfürməklə boru pəstahlarının struktur və xassələrinin əhəmiyyətli dərəcədə yaxşılaşması gözlənilir. Vakuumator qurğusunda emal olunan poladın tərkibində qeyri-metal ünsürlərin azaldılması hesabına əritmə müddətində qazlarla çirklənən poladın yüksək keyfiyyətini təmin etmək mümkündür.

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun maliyyə dəstəyilə yerinə yetirilmişdir: Qrant №EİF-MQM-ETS-2020-1(35)-08/02/1-M-02.

Ədəbiyyat

1. Kərimov R.İ., Quliyev F.T. Fasiləsiz tökmə pəstahları (qüsurlar, onların aradan qaldırılma tədbirləri). Bakı, Sabah, 2018. 144 s.
2. Рахманов С.Р., Тополов В.Л., Гасик М.И., Мамедов А.Т., Азимов А.А. Процессы и машины электрометаллургического производства. Баку-Днепр-Сабах, 2017. 568 с.
3. Фролов Я.В., Рахманов С.Р., Бабанлы М.Б., Керимов Р.И., Мамедов А.Т.Технологические процессы и станы холодной пильгерной прокатки труб. Днепр-Баку-Сабах, 2020, 303 с.
4. Величко А.Г., Рахманов С.Р., Бабанлы М.Б., Мамедов А.Т., Байрамов А.Т. Внепечная обработка при производтве высококачественных сталей. Монография. НМетАУ и АГУНП, Баку, 2021, 467 с.
5. Величко А.Г. Технологии підвищення якості сталі. Дніпропетровськ, 2016, 196 с.
6. Величко А.Г. Внепечная обработка стали. Днепропетровск: Системные технологии, 2005, 670 с.
7. Ярошенко Ю.Г. Энергоэффективные и ресурсосберегающие технологии черной металлургии. Учеб. пособие: Екатеринбург, ООО "УИПУ", 2012, 670 с.
8. Рахманов С.Р., Мамедов А.Т. и др. Машиностроительные материалы. Монография. НМетАУ и АзТУ, Баку, 2017, 410 с.

Məqalə qəbul olunub: 26.09.23
Tövsiyə edib: dos. Xankişiyev İ.A.

UOT 658.7

MULTİMODAL LOGİSTİK NƏQLİYYAT-PAYLAYICI MƏRKƏZİNİN TƏŞKİLATİ-FUNKSİONAL STRUKTURUNUN MODELLƏŞDİRİLMƏSİ

Rəhimov C.R.

Azərbaycan Texniki Universiteti
AZ1073, Bakı şəh., H.Cavid pr., 25
E-mail: jeyhoon.rahimov@aztu.edu.az

Xülasə. *Məqalədə multimodal logistik nəqliyyat-paylayıcı mərkəzinin (MLNPM) təşkilati-funksional strukturunun modelləşdirilməsinə baxılmışdır. Multimodal logistik nəqliyyat-paylayıcı mərkəzlərinin informasiya təminatı və inteqrasiyalı altsisteminin formalaşdırılması öyrənilmişdir. Eyni zamanda multimodal logistik nəqliyyat-paylayıcı sisteminin (MLNPS) informasiya təminatının təşkilati strukturu işlənilmişdir. Multimodal logistik nəqliyyat-paylayıcı sisteminin telekommunikasiya şəbəkəsinin iyerarxik strukturu hazırlanmışdır. Multimodal logistik nəqliyyat-paylayıcı mərkəzin inkişafı üçün normativ-hüquqi təminat məsələlərinə baxılmışdır.*

Abstract. *The article considers the modeling of the organizational and functional structure of a multimodal logistics transport and distribution center (MLTDC). The formation of information support and an integrated subsystem of multimodal logistics transport and distribution centers has been studied. At the same time, the organizational structure of the information support of the multimodal logistics transport and distribution system (MLTDS) was developed. A hierarchical structure of the telecommunications network of a multimodal logistics transport and distribution system has been developed. the issues of regulatory and legal support for the development of a multimodal logistics transport and distribution center were considered.*

Аннотация. *В статье рассмотрено моделирование организационно-функциональной структуры мультимодального логистического транспортно-распределительного центра (МЛТРЦ). Исследовано формирование информационного обеспечения и интегрированной подсистемы мультимодальных логистических транспортно-распределительных центров. При этом была разработана организационная структура информационного обеспечения мультимодальной логистической транспортно-распределительной системы (МЛТРС). Разработана иерархическая структура телекоммуникационной сети мультимодальной логистической транспортно-распределительной системы. рассмотрены вопросы нормативно-правового обеспечения развития мультимодального логистического транспортно-распределительного центра.*

Açar sözlər: *nəqliyyat, multimodal logistika, modelləşdirmə, inteqrasiya, alt sistem, telekommunikasiya, regional, funksional, yük, əmtəə, çeviklik, adaptivlik, dəqiqlik, rasional, potensial, sxemlər, ekspedisiya, subyekt, informasiya*

Key words: *transport, multimodal, logistics, modeling, integration, subsystem, telecommunications, regional, functional, standard, freight, commodity, flexibility, manufacturability, accuracy, rational potential, schemes, expedition, subject, information*

Ключевые слова: *транспорт, мультимодальная, логистика, моделирование, интеграция, подсистема, телекоммуникация, региональный, функциональный, грузовой, товарный, гибкость, технологичность, точность, рациональный потенциал, схемы, экспедиция, предмет, информация*

Giriş. MLNPS-in formalaşdırılması metodologiyası sistemli, proqram-məqsədli və logistikanın inteqral paradiqmasına əsaslanır. Mürəkkəb sosial-iqtisadi obyektlərin sintezi zamanı tətbiq edilən

sistemli yanaşmanın əsas prinsipləri və müddəaları milli və funksional xüsusiyyətləri də nəzərə alınmaqla LNPS-in sintezində dəqiqləşmələr və konkretləşmələr tələb edir. Çünki, MLNPS öz növbəsində MLNPS mürəkkəb dinamik iyerarxik və stoxastik sistemdir, çoxsaylı qarşılıqlı təsir və qarşılıqlı əlaqədə olan elementlərdən – özləri də çoxsəviyyəli iyerarxik strukturlu logisstik sistem bloklarından ibarətdir. MLNPS-in bəndləri (elementləri) məqsədli və funksional təyinatlı nisbi stabilliklə səciyyə olunur, lakin bütövlükdə MLNPS üçün onlar logistik funksiyalarının qarşılıqlı əvəzedilməsi və aqreqatlaşdırılması imkanlarına görə qeyri-müəyyəndir.


MLNPS-in yaradılması və fəaliyyəti yük və əmtəə dövriyyəsi prosesinin logistik idarə edilməsinin inkişafına əsaslanır, həmçinin beynəlxalq standartlara uyğun logistik nəqliyyat-paylayıcı sistemin (LNPS) formalaşmasını tələb edir. MLNPS-in fəaliyyəti və inkişafının idarə edilməsinin təşkilati strukturunun qurulmasının əsasında funksional və təminedici altsistemlərdən ibarət olan təşkilati-funksional struktur durur [1].

Məsələnin qoyuluşu. Multimodal terminal kompleksləri əsasında formalaşan inteqrasiyalı MLNPS-in idarə edilməsinin təşkilati strukturu şəkil 1-də təqdim olunmuşdur. Qarşıya qoyulan məqsəd MLNPM-nin təşkilati-funksional strukturunun modelləşdirilməsidir.

MLNPM-in yaradılması üzrə məqsədli proqramların reallaşdırılmasının idarə edilməsi orqanlarının formalaşdırılması zamanı aşağıdakı əsas prinsiplərin rəhbər tutulması məqsədəuyğundur:

- mürəkkəb və geniş şaxələnmiş LNPS kimi bir sistemin idarə edilməsi Azərbaycan iqtisadiyyatının, eləcə də təcrübi olaraq bütün sahələrin inkişafına güclü təsir göstərdiyindən üç səviyyəli xarakter daşımalıdır: beynəlxalq, milli və regional (yerli). Bu zaman müxtəlif səviyyəli idarəetmə orqanları arasında funksiya və səlahiyyətlərin səlis bölgüsü, qarşılıqlı maraqlar dairəsində uzlaşdırılmış birgə qərarların qəbul edilməsi tələb olunur;
- bazar iqtisadiyyatı xüsusiyyətlərinin nəzərə alınması, hər şeydən əvvəl, qarşılıqlı faydalı əməkdaşlıq şərtlərinə əməl edilməsi, sistemin subyektləri arasında məcmu sinergetik effektin paylaşdırılması, iqtisadi güzəştlərə nail olunması və maraqların razılaşdırılması əsasında inteqrasiya olunmuş yük hərəkəti logistik sistem iştirakçılarının iqtisadi-hüquqi qarşılıqlı münasibətlərinin vahid sisteminin yaradılmasını nəzərdə tutur;
- marketinq və logistik menecment metodlarının nəqliyyat müəssisələrinin iş təcrübəsinə tətbiqi əsasında ölkənin nəqliyyat kompleksinin müəssisə və təşkilatlarının rəqabət qabiliyyətinin təmin edilməsi, nəqliyyat-logistik servisin inkişafı əsasında müştərilərin tələblərinin kəmiyyət və keyfiyyətcə maksimum ödənilməsi;
- yük və əmtəə dövriyyəsi sistemində mütərəqqi terminal texnologiyalarının təşkili və idarəetmənin logistik prinsiplərinin tətbiqi əsasında ölkədə nəqliyyat-ekspedisiya və logistik xidmətin keyfiyyətinin yüksəldilməsi məqsədilə, bu fəaliyyət sahələrində sahibkarlığın lisenziyalaşdırılması əsasında nəqliyyat-ekspedisiya və logistik xidmətlər bazarının inkişafının birbaşa dövlət tənzimlənməsi mexanizminin tətbiqi;
- büdcə və büdcədən kənar mənbələrin, o cümlədən iri və kiçik ölkə biznes-kommersiya strukturları və xarici kapitalı cəlb etməklə, ölkə ərazisində yerləşən nəqliyyat qovşaqlarında nəqliyyat və logistik infrastrukturun inkişafının pay bölgüsü üzrə maliyyələşdirilməsinin təmin edilməsi;
- intermodal əlaqəli operatorun iştirakı ilə qarışıq xarici ticarət yük daşımalarının təşkilində nəqliyyatın bütün növlərinin koordinasiyalı və qarşılıqlı əlaqəli işinə əsaslanan intermodal konsepsiyanın ümumşəbəkə (regional) nəqliyyat qovşağında reallaşdırılması;
- milli logistik nəqliyyat-paylayıcı sistem iştirakçılarının informasiya təminatının inteqrasiyalı sisteminin yaradılması üçün zəruri təşkilati-iqtisadi və istehsal-texniki şəraitlərin təmin edilməsi;
- əmtəə-material və onları müşayiət edən servis, informasiya və maliyyə axınlarının idarə edilməsində mütərəqqi terminal texnologiyaları və logistik yanaşmağa öyrədilməklə nəqliyyat-

ekspedisiya, servis və logistik fəaliyyətin digər (daşıma, anbarlama, paylayıcı və s.) sahələrində kadrların peşəkar hazırlığı və yenidən hazırlığının təşkili;



Şəkil 1. *Multimodal terminal kompleksləri əsasında formalaşan inteqrasiyalı milli nəqliyyat-paylayıcı sistemin idarə edilməsinin təşkilati strukturu*

– lisenziya sistemi, logistik infrastruktur obyektlərinə sərmayələrin güzəştli kreditləşdirilməsi, güzəştli vergiqoyma, terminal kompleksləri və logistik nəqliyyat-paylayıcı mərkəzlərin, həmçinin digər regional distributiv şəbəkə obyektlərinin tikilməsinə torpaq sahələrinin ayrılması, regional nəqliyyat-paylayıcı sistemin iştirakçılarına eyni sərfəli şərtlərin təmin

edilməsinə yönəlmiş normativ-hüquqi tənzimləmə də daxil olmaqla dövlət və bələdiyyə tənzimləməsinin tətbiqi əsasında LNPS iştirakçılarına daha münasib şəraitin təmin edilməsi ilə dövlət dəstəyi və tənzimlənməsi sisteminin yaradılması;

– regionlararası və beynəlxalq inteqrasiyalı nəqliyyat-logistik sistemlərin formalaşdırılması əsasında LS-in yük və əmtəə hərəkətinin milli və beynəlxalq logistik sistemlərinə inteqrasiyasının təmin edilməsi.

Beləliklə, ümumşəbəkə (multimodal) nəqliyyat qovşağı əsasında formalaşdırılan inteqrasiyalı LNPS-in təşkilati idarəetmə strukturunda xüsusi yeri sxemdə təqdim olunmuş regional idarəetmə orqanları tutur. Yəni, nəqliyyat və rabitə üzrə regional idarələr, istehlak bazarı, xarici iqtisadi əlaqələr, elm və texnologiyalar; Yüksək Texnologiyalar Nazirliyinin nəqliyyat və rabitə sahələri üzrə ərazi orqanları; nəqliyyat növləri üzrə Departament və Agentliklər; Xəzər Dəniz Gəmiçiliyi, Azərbaycan Dəmir Yolları, Azərbaycan Hava Yolları; Dövlət Gömrük Komitəsinin regional idarələri və s. [2]

Ölkə logistik nəqliyyat-paylayıcı sistemin (MLNPS) informasiya məkanı telekommunikasiya, proqram-texniki, informasiya və təşkilati-iqtisadi mühiti ilə müvafiq strukturları və onlar arasında normativ-hüquqi aktlarla müəyyən edilmiş təşkilati-iqtisadi münasibətləri özündə ehtiva edir. Telekommunikasiya və intellektual dəstəyin müasir vasitələrinin istifadəsinə əsaslanan vahid inteqrasiyalı informasiya məkanının ölkədə yaradılması MLNPS-in səmərəli fəaliyyət göstərməsi ilə yanaşı, idarəetmə orqanlarının səmərəli fəaliyyətini təmin edər. Həmçinin ölkə ərazisində yerləşən multimodal nəqliyyat qovşağında nəqliyyat növlərinin koordinasiya və qarşılıqlı təsirinin səmərəliliyi yüksələr. Ölkədə vahid informasiya məkanının formalaşdırılmasına bütövlükdə nəqliyyat-paylayıcı sistemin fəaliyyətinin idarə edilməsi sisteminin tərkib hissəsi kimi baxmaq lazımdır, bu zaman o inteqrasiyaedici rol oynayacaq, sahə və regional vəzifələrin həllində rasional potensial imkanları daha da artıracaqdır.

İnteqrasiyalı informasiya altsisteminin qurulmasının əsasında aşağıdakı əsas prinsiplər durmalıdır.

İstifadəçi üçün informasiyanın dolğunluğu və yararlılığı. MLNPS-in menecmenti qərarlar qəbul etmək üçün zəruri (kifayət) və dolğun, özü də ona lazım olan şəkildə informasiyaya malik olmalıdır. Məsələn, hazır məhsul ehtiyatlarının və ya istehsalçıların (yük göndərənlərin) yüklərin daşınmasına dair informasiyaları çox vaxt ilkin emal tələb edir və nəqliyyatçı təşkilatın menecerinin qərar qəbul etdiyi iş yerində yerləşdirilmir. Odur ki, informasiya sistemi informasiyanı müvafiq nəqliyyat-logistik funksiyaların və əməliyyatların yerinə yetirilməsində tələb olunan yerdə, şəkildə və dolğunluqla təqdim etməlidir.

İlkin informasiyanın dəqiqliyi və dürüstlüyü. Düzgün qərarlar qəbul etmək üçün ilkin informasiyanın dəqiqliyi prinsipial əhəmiyyət kəsb edir. Məsələn, müasir LNPS-də distributiv şəbəkədə yük ehtiyatlarının səviyyəsi barədə informasiyada səhvlər və ya fiziki paylanma ehtiyatlarının yaradılması və istehlakçıların məmnunluğunda qeyri-müəyyənlik 1%-dən çox olmamalıdır. İlkin məlumatların dəqiqliyi və dürüstlüyü tələbatın proqnozlaşdırılması, məhsul həcminin planlaşdırılması, yük daşımalarının istiqamətləri və strukturunun müəyyənləşdirilməsində böyük əhəmiyyət kəsb edir.

İnformasiyanın vaxtında daxil olması. Yük daşımalarına tələbata dair informasiya menecment sisteminə vaxtında daxil olmalıdır. Bunu nəqliyyat-logistik texnologiyaların əksəri, xüsusən just in time (dəqiq vaxtında) konsepsiyasına əsaslanana texnologiyalar tələb edir. İnformasiyanın vaxtında verilməsi LNPS-də təcrübi olaraq bütün nəqliyyat-paylayıcı logistik funksiyası və əməliyyatlar üçün çox vacibdir. Bundan başqa, nəqletmədə, əməliyyat menecmentində, sifariş və ehtiyatların idarə edilməsində bir çox məsələlər real zaman rejimində (on line) həll olunur. Bunu həm də nəqliyyat logistik monitorinqin çoxsaylı məsələləri tələb edir. İnformasiyanın vaxtında daxil olması və emalı tələbi skanerləmə, peyk naviqasiyası, ştrixli kodlaşdırma, EDİ/EDİFACT standartlarının tətbiqinin müasir logistik texnologiyaları vasitəsilə də reallaşdırıla bilər.

İnformasiyanın çevikliyi və adaptivliyi. MLNPS-də sirkulyasiya edən informasiyalar konkret istifadəçilər üçün uyğunlaşdırılmalı və onlar üçün istifadəyə daha rahat şəkildə olmalıdır. Bu, həm firmanın personalı, həm də LNPS-ə daxil olan logistik vasitəçilər və son istehlakçılara aiddir.

Kağız və elektron sənəd dövriyyəsi, aralıq və çıxış formaları, hesabatlar, arayış və digər sənədlər nəqliyyat-paylayıcı logistik proseslərin bütün iştirakçılarının tələblərinə uyğunlaşdırılmalı və mümkün çoxistifadəli interfeysə adaptasiya olunmalıdır.

Müxtəlif istifadəçilər üçün informasiyanın uyğunluğu. İnformasiya sisteminin kompüter və telekommunikasiya şəbəkələrində tətbiq edilən verilənlər və məlumatların formatları texniki sistemlərin məhsuldarlığına (yaddaşın həcmi, sürətliliyi, buraxıcılıq qabiliyyəti və s.) maksimal imkan verməlidir.

Sənədlərin növləri və formaları, kağız sənədlərdə rekvizitlərin yerləşməsi, verilənlərin ölçüləri və digər parametrlər informasiyanın maşın emalını asanlaşdırmalıdır. Bundan başqa, nəqliyyatın bütün növləri üzrə daşıyıcıların, ekspeditorların, logistik vasitəçilər və verilənlər formatının digər istifadəçilərinin kompüter və telekommunikasiya sistemlərinin informasiya uyğunluğu təmin edilməlidir. Qeyd edək ki, MLNPS-in informasiya dəstəyini üç aspektdə araşdırmaq lazımdır: ərazi (sahə), ölkə və beynəlxalq miqyaslarda [3].

Ərazi mövqeyindən LNPS-in informasiya təminatı regionun telekommunikasiya mühitinin elementi kimi çıxış edir. Bu isə mühitin digər elementləri ilə uyğunluq tələbini ön plana çəkir, müxtəlif informasiyaların regionun maraqları çərçivəsində emalı zərurətini ortaya qoyur.

Sahə aspekti informasiya dəstəyini nəqliyyatın müəyyən növünün və ya ayrıca nəqliyyat müəssisələrinin idarə edilməsinin vacib tərkib hissəsi kimi baxılmasını nəzərdə tutur. Problem ümumi maraqlar naminə regionun və nəqliyyat növünün informasiya resurslarının rasional uyğunlaşdırılmasından ibarətdir.

Aydındır ki, milli logistik nəqliyyat-paylayıcı sistem beynəlxalq nəqliyyat sisteminin tərkib hissəsi və ya elementdir. Onun səmərəli istifadə edilməsi ərazilərin və regionların sosial-iqtisadi inkişafına, Azərbaycanın Avropa İttifaqı iqtisadi məkanına inteqrasiyasına kömək edir.


Bununla yanaşı, logistik nəqliyyat sistemləri nəqliyyat logistikası, ticarət, bank, sığorta, vergi və gömrük əməliyyatları sahəsində aparılan bu günkü informatikləşdirmədə qəbul edilmiş vahid yanaşmalara riayət edilməsini tələb edir.

Bu problemlərin ən yaxşı həlli dünya standartları və protokollara uyğun razılaşdırılmış və ekvivalent quruluşa malik sənəd dövriyyəsi və normativ-hüquqi bazaya əsaslanan informasiya mübadiləsinin təşkili şəraitində mümkünüdür. Belə tələblər yalnız regionda vahid informasiya məkanının mövcudluğu şəraitində yerinə yetirilə bilər.

MLNPS-in fəaliyyətinin çoxfunksiyalılığı və özünəməxsusluğu, bir tərəfdən, ölkə ərazisində məskunlaşmış müəssisə və təşkilatların nəqliyyat-paylayıcı strukturlarla səmərəli qarşılıqlı təsiri zərurəti, digər tərəfdən isə etibarlı koordinasiya mexanizmlərinin yaradılmasını tələb edir.

Müasir şəraitdə bu problemin həlli nəqliyyatın, terminalların, LNPM, logistik vasitəçi şirkətlərin – yük və əmtəə hərəkəti sistemi təşkilatçılarının və vahid informasiya məkanı çərçivəsində fəaliyyət göstərən sosial-iqtisadi kompleksin digər obyekt və subyektlərinin fəaliyyətinin koordinasiyası vasitəsilə mümkündür.

Beləliklə, vahid informasiya məkanı (VİM) strateji məqsəd kimi qoyulur, ona nail olmağa isə MLNPS-in informasiya təminatı altproqramı yönəldilməlidir. Şəkil 2-də yuxarıda şərh olunan prinsiplər əsasında qurulmuş MLNPS-in informasiya dəstəyinin tövsiyə olunan təşkilati strukturu təqdim olunmuşdur. Şəkil 3-də MLNPS-in telekommunikasiya şəbəkəsinin iyerarxik strukturu təsvir olunmuşdur. Göründüyü kimi, ölkənin vahid informasiya məkanında baş koordinator qismində regional informasiya-analitik mərkəz (RİAM) təklif olunur. RİAM regional logistik nəqliyyat-paylayıcı mərkəzin (RLNPM) tərkibinə girir.




Şəkil 2. *MLNPS-in informasiya təminatının təşkilati strukturu*

MLNPS-in informasiya dəstəyi altproqramının əsas məqsədlərini aşağıdakıları hesab etmək olar:

1. MLNPS-in informatikləşdirilməsi sisteminin yaradılması və inkişafı üzrə işlərin koordinasiyası, onların milli və beynəlxalq layihə və proqramları ilə uyğunluğu və qarşılıqlı təsirlərinin təmin edilməsi, nəqliyyat-paylayıcı kompleksinin informasiya və telekommunikasiya infrastrukturu və nəqliyyat logistikasının təkmilləşdirilməsi.
2. Razılaşdırılmış konseptual baza və dünya standartları əsasında vahid regional informasiya məkanının yaradılmasında iştirak.
3. Ölkənin nəqliyyat kompleksinin bütün növləri və bəndlərinin dayanıqlı idarə edilməsini təmin edən LNPS-in infromatikləşmə infrastrukturunun formalaşdırılması və inkişafı.
4. Ölkədə istifadəçilərin geniş dairəsinə müasir telekommunikasiya və informasiya xidmətlərinin göstərilməsi.
5. Nəqliyyat-logistik servisin təşkili və həyata keçirilməsi zamanı nəqliyyat logistikası, informasiya uyğunluğu və informasiyanın elektron mübadiləsinin digər sferalarında beynəlxalq əməkdaşlığın həyata keçirilməsi.

Qoyulmuş məqsədlərə nail olmaq üçün MLNPS-in informasiya təminatı altproqramında aşağıdakı vəzifələri həll etmək lazımdır:



Şəkil 3. *MLNPS-in telekommunikasiya şəbəkəsinin iyerarxik strukturu*

- ✓ ölkədə LNPS-in telekommunikasiya mühiti və informasiya infrastrukturunun inkişafı plan və layihələrinin işlənməsi zamanı sahələr və nəqliyyat idarələri arasında altproqram çərçivəsində qarşılıqlı təsirlərin təşkili;
- ✓ idarəetmə, informatikləşdirmə və telekommunikasiya sahəsində LNPS-in maraqlarına toxunan beynəlxalq və milli layihə və altproqramlarla altproqram çərçivəsində qarşılıqlı təsirlərin təşkili;
- ✓ idarəetmə ərazisində yerləşən LNPS-in müxtəlif bəndlərinin vəziyyəti və fəaliyyəti barədə dövlət və icra idarəetmə orqanlarının informasiya təminatı sahəsində ərazilərin informatikləşdirilməsi proqramları ilə qarşılıqlı təsirlərin təşkili;
- ✓ nəqliyyat-logistik servisin informatikləşdirilməsi sahəsində ümumi istifadə təyinatlı verilənlər bazası və banklarının regional sistemi ilə qarşılıqlı təsirlərin təşkili;
- ✓ LNPS-in vahid informasiya məkanının metodologiyası, texnologiyası və təşkilinin formalaşdırılmasında iştirak;
- ✓ LNPS-in müxtəlif struktur bəndlərinin proqram texniki komplekslərinin yaradılması və inkişafı konsepsiyası, proqramları və layihələrinin işlənməsi və reallaşdırılması;
- ✓ beynəlxalq və milli nəqliyyat xətlərində təqdim olunan informasiya xidmətlərinin kəmiyyət və keyfiyyətinin artırılması;
- ✓ ölkənin informasiya təhlükəsizliyinin təmini tələbləri və prinsiplərinə uyğun olaraq informasiya fondlarına girməyin sanksiyalı giriş rejiminin, informasiyanın etibarlı mühafizəsi və saxlanmasının zəruri səviyyəsinin təmini;
- ✓ ölkədə və regionda yük və əmtəə hərəkəti sisteminin rasionallaşdırılması üzrə kompleks funksional qarşılıqlı əlaqəli vəzifələri həll edən, terminal kompleksləri və logistik-nəqliyyat-

paylayıcı mərkəzlərin tərkib hissəsi kimi informasiya-analitik mərkəzlərin (İAM) yaradılması layihələrinin işlənməsi və reallaşdırılması.

Ölkədə formalaşdırılan LNPS-in fəaliyyəti və inkişafında normativ-hüquqi təminat altsistemi mühüm əhəmiyyət kəsb edir. Belə ki, LNPS-in formalaşdırılması proqramının reallaşdırılmasının normativ-hüquqi təminatının altsisteminin məqsədləri aşağıdakılardır:

- ✓ vahid normativ-hüquqi məkanın və LNPS iştirakçıları və subyektlərinin iqtisadi qarşılıqlı əlaqələrinin qarşılıqlı faydalı sisteminin yaradılması;
- ✓ nəqliyyat-logistik fəaliyyətin dövlət tənzimlənməsi altsisteminin yaradılması, LNPS iştirakçılarına daha münbit şəraitin təmin edilməsi;
- ✓ regionda və ölkədə nəqliyyat logistik xidmətlərin sivil bazarının yaradılması;
- ✓ beynəlxalq standartlara uyğun yeni nəsil iri multimodal terminal kompleksləri və LNPM-nin nəqliyyat şəbəkəsi qovşaqlarında yaradılması, eləcə də nəqliyyat-logistik infrastrukturun digər elementlərinin inkişafına böyük sərmayələrin, o cümlədən xarici investorların cəlb edilməsi üçün şəraitin təmini.

Daxili və beynəlxalq bazarda nəqliyyatın inkişafını təmin etmək məqsədilə nəqliyyat servisinin, ilk növbədə nəqliyyat-ekspedisiya və logistik xidmətin sürətli inkişafı vəzifəsi qoyulmalıdır. Logistik xidmətlər yüklərin daşınması, terminallarda emalı, eləcə də nəqliyyatın bütün növlərində müxtəlif mülkiyyət formasında xırda, orta və iri ekspeditor təşkilatları və logistik vasitəçi şirkətlərinin yaradılması ilə əlaqədar iş və xidmətlərin geniş kompleksini əhatə etməlidir [4].

Bu müddəanın təsdiqini altsahə kimi fəaliyyətinin əsas şərtlərini tənzimləyən Nəqliyyat Strategiyasının "Nəqliyyat ekspedisiyası" bölməsində təsbit olunması göstərir. Elə bu Strategiyada "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Qanunun işlənib hazırlanması zərurəti qeyd olunmuşdur. Strategiyada nəqliyyat ekspedisiyaları xidmətinin inkişaf etdirilməsi və fəaliyyətinin tənzimlənməsinin ümumi məsələləri əksini tapmışdır.

Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında qanunvericilik aktına zərurətin vacibliyini təsdiqləyərək, qeyd etməliyik ki, hətta bu sənəd mükəmməl olsa belə, bütün məsələləri həll edə bilməyəcəkdir. Nəqliyyat-ekspedisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi və stimullaşdırılması tədbirlərinin işlənməsi üçün Nəqliyyat Nazirliyi və bütün maraqlı təşkilatların, habelə sahənin görkəmi alim və mütəxəssislərinin cəlb edilməsi ilə elm-texniki konfrans və metodoloji seminarların keçirilməsi də faydalı ola bilərdi.

Məsələn, Nəqliyyat Strategiyasında nəqliyyat-ekspedisiya fəaliyyətində mütərəqqi bir yanaşma kimi logistik yanaşmanın daha geniş tətbiq edilməsi zərurəti vurğulanmalıdır. Çünki, əvvəllər də qeyd etdiyimiz kimi, bir çox qabaqcıl Qərb şirkətləri, son vaxtlar isə Rusiya firmaları nəqliyyat-ekspedisiya biznesinə daha çox diqqət yetirərək, özlərini logistik şirkətlər adlandırır, bununla da mütərəqqi logistik texnologiyaların tətbiqini müştərilərə xidmətdə ön plana çəkirlər.

Hazırda nəqliyyat xidmətləri bazarında ekspeditor fəaliyyəti böyük əhəmiyyət kəsb edir. Ekspeditor burada əsas rollardan birini oynayır, ekspeditor əmtəə-material və müşayiətedici servis, informasiya və maliyyə axınlarının təşkili və hərəkəti ilə əlaqədar logistik funksiyaların daha böyük miqdarını özündə birləşdirir.

Qeyd etdiyimiz kimi, nəqliyyat xidmətləri bazarında rəqabət mühitinin formalaşması şəraitində nəqliyyat xidmətinin keyfiyyətinə tələblər xeyli artır, yük daşımalarına tələbin strukturu dəyişir. Yük nəqliyyatında xırda göndərişlərin çatdırılmasına, konteyner daşımalarının təşkilində, şəhərlərarası və beynəlxalq daşımalarda nəqliyyat-ekspedisiya xidmətlərinə, təcili və bahalı yüklərin çatdırılmasına tələbat durmadan artır. Bunlar son istehlakçıya yüklərin çatdırılmasının təşkilində prinsipcə yeni yanaşma tələb edir, onun əsasında nəqletmənin təşkili və idarə edilməsinin logistik prinsipləri və logistika texnologiyaları durur. Qeyd edək ki, beynəlxalq yük daşımalarında yük sahiblərinə göstərilən nəqliyyat xidmətinin keyfiyyəti, milli nəqliyyat operatorlarının rəqabət qabiliyyətinin təmini, hər şeydən əvvəl, təqdim edilən nəqliyyat-ekspedisiya xidmətlərinin səviyyəsindən, daşıma prosesində tətbiq edilən texnologiyalardan, eləcə də əmtəə-material axınlarının informasiya müşayiəti

də daxil olmaqla göstərilən nəqliyyat-logistik servisin xarakteri və səviyyəsindən asılıdır. Beləliklə, MLNPS-in formalaşdırılması proqramının reallaşdırılmasının səmərəliliyi xeyli dərəcədə onun normativ-hüquqi təminatının keyfiyyət və dərinliyindən asılıdır.

MLPS-in formalaşdırılması və inkişafının normativ-hüquqi təminatı altsistemi aşağıdakı əsas vəzifələrin həllinə istiqamətlənməlidir:

- ✓ MLNPS-in yaradılması Proqramının reallaşdırılması iştirakçıları iqtisadi qarşılıqlı münasibətlərinin vahid qarşılıqlı faydalı sisteminin yaradılması;
- ✓ ölkədə nəqliyyat-logistik xidmətləri (nəqliyyat-ekspedisiya, gömrük-anbar, terminal, ticarət-vasitəçi, kommersiya-işgüzar və digər servis xidmətləri, yük və məhsul daşımalarının müşayiət edən digər xidmətlər) sivil bazarının yaradılması;
- ✓ ölkədə yük və məhsul daşımaları sisteminin dövlət tənzimlənməsi, MLNPS iştirakçılarına daha münasib şəraitlərin yaradılması;
- ✓ Proqramın reallaşdırılmasına qeyri-dövlət, o cümlədən xarici sərmayələrin də cəlb olunması üçün şəraitin təmini.

Milli və regional səviyyələrdə nəqliyyat-ekspedisiya və logistik fəaliyyətlərin inkişafının stimullaşdırılması, hər şeydən əvvəl, dövlətin nəqliyyat-logistik infrastruktur obyektlərinin (yollar, terminallar, NPM, kommunikasiya sistemləri və s.) tikintisi, müasirləşdirilməsi və fəaliyyətinin təşkilinə vəsaitlərin qoyulması ilə əlaqədardır.

İri nəqliyyat-logistik infrastruktur obyektlərinin tikintisi və fəaliyyəti, adətən xeyli böyük sərmayələr tələb edir və bəzi hallarda ancaq dövlətin iştirakı ilə həyata keçirilməlidir. Bununla yanaşı, ölkə, eləcə də regional səviyyələrdə dövlət qurumları ilə biznes subyektlərinin tərəfdaşlığı mexanizmi də istifadə oluna bilər.

MLNPS-in inkişafının daha bir vacib amili nəqliyyat-ekspedisiya və logistika müəssisələrində işləmək üçün kadrların hazırlanması və ixtisasının yüksəldilməsi üçün peşə təlimi şəbəkəsinin inkişafının stimullaşdırılmasıdır. Çünki nəqliyyat ekspedisiya və logistik şirkət işçilərinin yaxşı peşə-ixtisas hazırlığı uğurlu fəaliyyət üçün mühüm şərtdir.

Beləliklə, nəqliyyat-ekspedisiya və logistik fəaliyyətin dövlət tənzimlənməsində mərkəzi məsələ nəqliyyat-ekspedisiya və servis xidmətinin keyfiyyətinin təmin edilməsidir.

Nəqliyyat-ekspedisiya və logistika fəaliyyətinin keyfiyyətinin idarə edilməsi sferasında dövlət siyasətinin ən vacib prinsipi isə kompleks nəqliyyat-ekspedisiya və logistika xidmətləri istehlakçılarının (fiziki və hüquqi şəxslərin) ehtiyaclarının ödənilməsinə yönəlməlidir.

Nəticə. MLNPS-in funksional altsistemləri arasında mərkəzi yeri regional paylayıcı mərkəzlər (RPM) tutur, onlar özlərində böyük miqdarda əsas və dəstəkləyici nəqliyyat-logistik funksiyaları inteqrasiya edir və yüklərin cəmləşməsini, emalını, servis və kommersiya-işgüzar xidmətini təmin edir. Məhsulların səmərəli paylanmasının təşkili və onların son və ya aralıq istehlakçıya çatdırılması prosesinin düzgün yerinə yetirilməsi nəqliyyat-texnoloji prosesin səmərəli uzlaşdırılmasına gətirib çıxarır. MLNPS təşkilati funksional strukturunun modelləşdiriməsi proqramı sayəsində texniki-iqtisadi və səmərəlilik göstəriciləri yüksələcək və investisiyalar əsasən regionda nəqliyyat-logistik infrastrukturun inkişafına yönəldiləcəkdir.

Bu məqsədlə, MLNPM-nin informasiya təminatı və inteqrasiyalı altsisteminin formalaşdırılması öyrənilməklə MLNPM-nin təşkilati-funksional strukturu üçün yeni modellər təklif edilmişdir. Həmin strukturda MLNPS informasiya təminatı məsələləri təkmilləşdirilmişdir. Müasir tələblərdən biri hesab edilən multimodal logistik nəqliyyat-paylayıcı sisteminin telekommunikasiya şəbəkəsinin iyerarxik strukturu normativ-hüquqi təminat sənədləri nəzərə alınmaqla işlənib hazırlanmışdır.

Ədəbiyyat

1. Rəhimov C.R., Adilzadə R.E. Su nəqliyyatının istismar keyfiyyətinin innovativ üsullarla yüksəldilməsi. ADDA-nın “Elmi əsərləri”. №1, Bakı, 2022, səh. 72-77.

2. Rəhimov C.R. Regionlarda nəqliyyat sisteminin inkişafının səmərəliliyinin qiymətləndirilməsinin metodoloji əsasları. ADDA-nın "Elmi əsərləri". №1, Bakı, 2016, səh. 77-80.
3. Rəhimov C.R. Milli Logistik sistemlərin formalaşdırılmasının əsaslandırılması. ADDA-nın "Elmi əsərləri". №2, Bakı, 2016. Səh. 114-119.
4. Rahimov J.R, Isgandarov E.B. Main direction of transport system managment. European Academy of Natural sciences. "Materials of the international symposium eanw". Hannover, Germany. Vol. II. 2018, p.118-120.

Məqalə qəbul olunub: 26.09.23
Tövsiyə edib: prof. Yusubov N.D.

UOT 621.941.01

RPİ DƏZGAHLARINDA EMAL KEYFİYYƏTİ VƏ MƏHSULDARLIĞIN YÜKSƏLDİLMƏSİNİN ARAŞDIRILMASI

[1]Yusubov N.D., [2]Богатенков С.А., [1]Dadaşov R.Y., [1]Əzizli Z.M.

[1]Azərbaycan Texniki Universiteti
AZ1073, Bakı şəh., H. Cavid pr., 25
[2]Cənubi Ural Dövlət Universiteti
Rusiya, Çelyabinsk şəh., Lenin pr., 76
E-mail: nizami.yusubov@aztu.edu.az, ser-bogatenkov@yandex.ru, dadashov@aztu.edu.az, zerife.ezizli@aztu.edu.az

Xülasə. *Məqalədə RPİ dəzgahlarında emal keyfiyyəti və məhsuldarlığın yüksəldilməsinin araşdırılması məsələsinə baxılmışdır. Qeyd edilmişdir ki, RPİ dəzgahlarında metal emalı əməliyyatları məhsuldarlığının, müasir istehsal üçün məhsulların keyfiyyəti və dəqiqliyinin artırılması mürəkkəb vəzifələrdən biridir, onun həlli istehsal avadanlıqlarının dəqiqliyi ilə əlaqədar bir sıra məsələlərin nəzərdən keçirilməsini tələb edir. Bu məqsədlə, RPİ dəzgahlarında emalın keyfiyyəti və dəqiqliyinə təsir edən əsas amillər araşdırılmış, RPİ dəzgahlarında detalların emal dəqıqliyi təhlil edilmişdir. Təhlillərin nəticələri əsasında hazırda müasir maşınqayırma müəssisələri üçün RPİ dəzgahlarının təkmilləşdirilməsi və istehsal olunan məhsulların keyfiyyətinin yaxşılaşdırılması üçün prioritet fəaliyyət sahələrini formalaşdırmağa imkanların mövcudluğu göstərilmişdir. Detalların istehsalı üçün texnoloji proseslərin layihələndirilməsi zamanı mümkün olan ən yüksək məhsuldarlıqla emal edilən səthin keyfiyyətini təmin etmək məsələsi, eləcə də məhsuldarlığı artırmaq üçün kəsmə prosesinin rasional parametrlərinin seçilməsi həll olunan ən vacib məsələlərdən biri kimi tövsiyə edilmişdir.*

Abstract. *In the article, the issue of researching the improvement of machining quality and productivity on CNC machines was considered. It was noted that increasing the productivity of metal processing operations on CNC machines, the quality and accuracy of products for modern production is one of the complex tasks. Its solution involves consideration of a number of issues related to the accuracy of production equipment. For this purpose, the main factors affecting the quality and accuracy of machining on CNC machines were investigated, and the machining accuracy of parts on CNC machines was analyzed. Based on the results of the analysis, it has been shown that there are opportunities to form priority areas of activity for the improvement of CNC machines and the improvement of the quality of manufactured products for modern machine-building enterprises. During the design of technological processes for the production of parts, the issue of ensuring the quality of the machined surface with the highest possible productivity, as well as the selection of rational parameters*

of the cutting process to increase productivity, was recommended as one of the most important issues to be resolved.

Аннотация. *В статье рассмотрена задача повышения качества обработки и производительности на станках с ЧПУ. Отмечено, что повышение производительности операций по обработке металла на станках с ЧПУ, качества и точности изделий является одной из сложных задач для современного производства, решение которой предполагает рассмотрение ряда вопросов, связанных с точностью технологического оборудования. С этой целью были исследованы основные факторы, влияющие на качество и точность обработки на станках с ЧПУ, а также проанализирована точность обработки деталей на станках с ЧПУ. По результатам анализа показано, что существуют возможности для формирования приоритетных направлений деятельности по совершенствованию станков с ЧПУ и повышению качества выпускаемой продукции для современных машиностроительных предприятий. При проектировании технологических процессов изготовления деталей задача обеспечения качества обрабатываемой поверх-ности при максимально возможной производительности, а также выбор рациональных параметров процесса резания для повышения производительности, была рекомендована как одна из основных, наиболее важных решаемых задач.*

Açar sözlər: *RPİ dəzgahlarında emal dəqiqliyi, emal keyfiyyəti, emal məhsuldarlığı, istehsal texnologiyas, RPİ dəzgahlarının dəqiqliyi*

Key words: *Machining accuracy on CNC machines, machining quality, machining productivity, production technology, precision of CNC machines*

Ключевые слова: *Точность обработки на станках с ЧПУ, качество обработки, производительность обработки, технология производства, точность станков с ЧПУ*

Giriş. Müasir maşınqayırmada rəqəmli proqramla idarəetmə (RPİ) dəzgahları geniş tətbiq tapmışdır. Çünki belə dəzgahlar köməkçi vaxtın azalması və kəsmə rejimlərinin intensivləşdirilməsi ilə əlaqəli yüksək məhsuldarlıq və istehsal çevikliyini təmin edir. Nəticədə hazır məhsulların maya dəyərinin aşağı salınmasına şərait yaranır. RPİ dəzgahlarında pəstahların emalı zamanı bərk xəlitələrlə təchiz edilmiş kəsici alətdən istifadə edərkən, kəsmə sürətini əl ilə idarə olunan dəzgahlarda çətin mümkün olan qiymətlərə qədər artırmağa imkan yaranır.

Lakin RPİ avadanlıqlarının tətbiqi bir sıra məsələlərin həllini nəzərdə tutur: kadr hazırlığı, istehsal texnologiyasının təkmilləşdirilməsi, sürətli sazlama sistemlərinin istifadəsi və s. [1]. Bundan əlavə, metal emalı əməliyyatlarının məhsuldarlığının, müasir istehsal üçün məhsulların keyfiyyətinin və dəqiqliyinin artırılması mürəkkəb vəzifələrdən biridir ki, onun həlli istehsal avadanlıqlarının dəqiqliyi ilə əlaqədar bir sıra məsələlərin nəzərdən keçirilməsini nəzərdə tutur [2].

Hal-hazırda mexaniki emalın dəqiqliyinin yüksəldilməsi maşınqayırma texnologiyası və kəsmə nəzəriyyəsinin ən aktual məsələlərindən və maşınqayırma istehsalının prioritet sahələrindən biridir. RPİ sistemləri ilə təchiz edilmiş avadanlıqların yüksək yerdəyişmə diskretliyinə, kəsici alətin hərəkət trayejtoriyasının korreksiyası funksiyasına, kəsici tilin yeyilməsinin nəzərə alınması və digər texniki imkanlaramalik olmasına baxmayaraq, emal dəqiqliyi həmişə müəyyən edilmiş tələblərə uyğun gəlmir.

Yuxarıda göstərilənlərin hamısı ilə əlaqədar olaraq, RPİ dəzgahlarında pəstahın emal keyfiyyətinə və dəqiqliyinə təsir edən amilləri nəzərə almaq vacib və zəruri görünür.


RPİ dəzgahlarında mexaniki emalın dəqiqliyinə təsir edən amillər. Yuxarıda göstərilən problemin həlli yalnız istehsala aşağıdakı elementləri özündə cəmləşdirən bir sistem kimi baxıldıqda mümkündür: işçi heyəti, maşın və avadanlıqlar, məhsul, idarəetmə və nəzarət, onların hər biri istehsal prosesi zamanı baş verən və hazır məhsulun dəqiqliyinə və keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərən xətaları minimuma endirməyə yönəldilmişdir. Nəticədə müştəri məmnuniyyətinə və bütövlükdə müəssisənin rəqabət qabiliyyətinə nail olmaq olur. RPİ dəzgahlarında emal keyfiyyətinə

və dəqiqliyinə əhəmiyyətli dərəcədə təsir edən əsas amillər şəkil 1-də səbəb-nəticə əlaqələrinin diaqramı şəklində göstərilmişdir.

Bir çox tədqiqatçılar [1, səh. 165; 2, səh.129-130; 3-16] kəsmə qüvvələr, istilik hadisələri, kəsici alətin yeyilməsi nəticəsində yaranan xətaların emal xətasına təsirini kritik hesab edir. Belə ki, məhz bu xətalar həm dəzgahın icra orqanlarının, həm də emal olunan pəstahın forma və fəza vəziyyətinin dəyişməsinə səbəb olur [3, səh. 41-43].

Emal dəqiqliyinə təsir edən əsas amilləri nəzərdən keçirək.

Dəzgahların dəqiqliyi. Verilən yerdəyişmənin dəqiqliyi idarəetmə sistemi və dəzgahın müvafiq elementlərinin konstruksiyaları ilə müəyyən edilir. Öz növbəsində, idarəetmə sisteminin dəqiqliyinə hesablama nəticələrinin yuvarlaqlaşdırılmasından (şəkil 1 (1)) və kəsici alətin ucundakı (təpəsindəki) radiusun təsirindən (şəkil 1) ibarət olan proqramlaşdırma xətası təsir göstərir. (2)). Dəzgah elementlərinin konstruksiyasını nəzərdən keçirsək, onda xüsusi yeri burada dəzgah inteqalı, veriş mexanizmi və avadanlığın işçi orqanlarının mövqeləndirilməsi tutur. Dəzgah inteqalının xətası idarəetmə proqram sistemi (şəkil 1(3)) və dəzgahın işçi orqanlarının veriş intiqallarının konstruksiyalarının dəqiqliyi (şəkil 1(4)) ilə müəyyən edilir.



Şəkil 1. *RPİ dəzgahlarında emalın keyfiyyətinə və dəqiqliyinə təsir edən əsas amillər [7]*

Mövqeləndirmə xətası isə dəzgahın işə salınması və dayandırılması zamanı istiqamətləndiricilərdə sürtünmə qüvvələrinin qeyri-sabitliyi (şək. 1(5)) və momentləri (şəkil 1 (6)) nəticəsində baş verir [4, səh. 91].

Dəzgahın dəqiqliyinə təsir edən müəyyən edilmiş amillər arasında xüsusi yer onun güc və istilik hadisələri, həmçinin vibrasiya və yük dəyişmələri (rəqsləri) nəticəsində yaranan yeyilməsidir.

Kəsmə qüvvələri istənilən kəsmə prosesində baş verir və həmişə emal dəqiqliyinə təsir göstərir. Belə qüvvələr həm avadanlıqların, həm də alət elementlərinin elastik deformasiyalarına (yerdəyişmələrinə), pəstahın deformasiyalarına (yerdəyişmələrinə) səbəb olur. Onların təsrini azaltmaq üçün əsas istiqamət çatı, supportlar və şpindellərin sərtliyinin artırılmasıdır. İstilik həm yonqarın əmələ gəlməsi prosesində, həm də dəzgahın mühərriklərdən, elektronikadan qızması nəticəsində, həmçinin dəzgahın funksional məqsədlərinə uyğun olaraq işlədiyi otaqların temperaturunun qeyri-sabitliyi səbəbindən ayrılır. Bütün bunlar texnoloji sistemin elementlərinin istilik deformasiyalarına və emalın verilən qiymətlərdən kənara çıxmasına səbəb olur. Bu amillərin əksəriyyətinin minimuma endirilməsi hazırda kəsmə zonasında yağlayıcı-soyuducu vasitələrin (mayelərin) bol istifadəsi səbəbindən baş verir, dəzgahların qızmasına sensorlar tərəfindən nəzarət olunur və dəzgahın RPİ qurğusu ilə kompensasiya edilir. Güc və istilik amillərinin pəstaha təsiri onda qalıq gərginliklərin yaranmasına səbəb olur ki, bu da emaldan sonra zaman keçdikcə detalın əyilməsinə, yəni forma və ölçülərinin dəyişməsinə səbəb ola bilər.

Kəsici alət. Avtomatik rejimdə emalı həyata keçirən RPİ dəzgahları üçün alətin keyfiyyətinə olan tələblər, dəqiqliyi və emal keyfiyyətini müəyyən edən amil kimi əhəmiyyətli dərcədə artır. Alət blokunun elementlərinin baza səthlərinin dəqiqliyi, eləcə də alətin kəsici hissələrinin itilənməsinin dəqiqliyi emal nəticəsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Alətin həndəsəsinin dəyişdirilməsi hesablanmış trayektoriyanın təhrif edilməsi səbəbindən emal zamanı xətalara, itiləmənin keyfiyyətsizliyi isə kəsici qüvvələrin artmasına, kələ-kötürlüyün pisləşməsinə, vibrasiyaya və hesablanmış emal şəraitindən digər kənara çıxmalara səbəb ola bilər.

Əhəmiyyətli meyarlardan biri alətin *davamlılığıdır*. Alətin davamlılığını proqnozlaşdırmaq üçün alət istehsalçılarının təklif etdiyi kəsmə rejimləri ilə əlaqədar məlumat xarakterli tövsiyələrinə ciddi riayət etmək lazımdır. Ən əhəmiyyətli problemlər dəyişən yüklə kəsilən (fasilələrlə) emal zamanı yaranır (məsələn, frezeləmə, dişfrezləmə, eksantrik yonma və s.). Belə emalın xüsusiyyəti, kəsilən qat kəsiyində yükün dəyişən qiymətilə kəsilməsidir. Kəsmə qüvvəsi dəyişdikdə yükün dəyişməsi vibrasiyaya, səth təbəqəsinin kələ-kötürlülüyünun artmasına və ölçü dəqiqliyinin azalmasına, alətin kəsici səthinin yeyilməsinin artmasına və onun davamlılığının azalmasına səbəb olur. Bundan əlavə, alətin davamlılığının azalması bir sıra digər amillərlə də əlaqəlidir, bunlara aşağıdakılar daxildir: material strukturunun qeyri-bircinslyi, daxili gərginliklər, əyilmə - formalaşmış səthlərdə emal payının qeyri-bərabər paylanmasına təsir edir [1, səh. 165]. Nəticədə, bu amillərin təsiri məhsuldarlığın azalmasına və müəyyən edilmiş tələblərə cavab verməyən məhsulların istehsalına səbəb olur.

Pəstah və istehsal texnologiyası. Yerləşdirmə üsulları və səthlərin emal ardıcıllığı, emal olunan materialın keyfiyyəti, pəstahın ölçüləri və konfiqurasiyası emalın dəqiqliyinə və məhsuldarlığına əhəmiyyətli dərəcədə təsir göstərir. Emal olunan səthin xətasının qiymətinə əhəmiyyətli dərəcədə texnoloji və konstruktiv bazaların üst-üstə düşməməsindən yaranan baza xətası (şəkil 1 (7)) və bərkitmə qüvvəsinin qiymətinin (şəkil 1 (8)) və pəstahın səth qatının keyfiyyətinin (şəkil 1(9)) dəyişməsindən (rəqsindən) yaranan yerləşdirmə xətası daxildir [4, səh. 90]. Bu xətalar dəzgahın müvafiq sazlamaları ilə, həmçinin pəstahın yerləşdirmə səthlərinin ilkin emalı ilə azaldıla bilər.

İstismar şərtləri. Texnoloji sistemin funksional təyinatını qorumaq və hazır hissələrin yüksək dəqiqliyini və keyfiyyətini təmin etmək qabiliyyəti konkret detalların tipləri üçün rasional kəsmə rejimlərinin seçimini, onların normal işləməsi üçün şəraitin təmin edilməsi məqsədilə RPİ dəzgah istehsalçılarının tövsiyələrinə ciddi riayət etməyi əhatə edən istismar şərtlərindən, o cümlədən: sabit ətraf mühit temperaturunun, havanın rütubətinin və mikrobioloji mühitin saxlanmasından asılıdır. Bundan əlavə, operatorun ixtisas dərəcəsi texnoloji prosesin son nəticəsinə birbaşa təsir göstərir.

RPİ dəzgahlarında detalların emal dəqıqliyinin təhlili. RPİ dəzgahlarının texnoloji imkanları əməliyyatların yüksək konsentrasiyasını təşkil etməyə və pəstahların yüksək dəqiqliklə emalını təmin etməyə imkan verir. RPİ dəzgahlarının dəqiqliyi normalaşdırılır və bütün növ metalkəsmə dəzgahları üçün ümumi olan müvafiq yoxlamalar zamanı aşkar edilir. Bundan əlavə, RPİ dəzgahları üçün əlavə yoxlamalar aparılır:

- dəzgahın işçi orqanlarının xətti mövqelənmələrinin (yerdəyişmələrinin) düzgünlüyü;
- qeyri-həssas zonanın qiyməti (hərəkət istiqamətini dəyişdirərkən dəzgahın işçi orqanlarının yerdəyişmələrində geriləmə);
- dəzgahın işçi orqanlarının verilmiş nöqtəyə qayıtmasının dəqiqliyi;
- avtomatik dəyişdirildikdən sonra alətlərin vəziyyətinin sabitliyi.

RPİ dəzgahının dəqiqliyinin əsas göstəricilərindən biri dəzgahın işçi orqanlarını sazlama vəziyyətinə gətirdikdə onların minimum yerdəyişmələrini təyin edən koordinatlar üzrə hesablamanın diskretliyidir. Bununla belə, diskretliyin qiyməti $\Delta_{ö}$ ölçülərin səpələnmə sahələrinin yalnız bir təşkiledicisidir. Buna görə də RPİ dəzgahlarında koordinatlar üzrə emalın faktiki dəqiqliyi diskretliyinin qiymətindən aşağıdır [4, səh. 89, 17, 18].

Pəstahların konfiqurasiyası və ölçüləri, materialın keyfiyyəti, yerləşdirmə üsulları və səthlərin emal ardıcıllığı, kəsici alətin həndəsəsi, kəsmə rejimləri emalın dəqiqliyinə və məhsuldarlığına əhəmiyyətli dərəcədə təsir göstərir. Əl ilə idarə olunan dəzgahlara analoji olaraq RPİ dəzgahında emal dəqiqliyinin balansı aşağıdakı asılılıq ilə müəyyən edilir [4]:

$$\Delta_{ö}= k\sqrt{\varepsilon_{yer}^2 + \Delta_{ö.saz}^2 + \Delta_{ö.RPİ}^2 + \Delta_{ö.ey}^2} \quad (1)$$

burada ε_{yer} – yerləşdirmə xətası sahəsi; $\Delta_{ö.saz}$ – sazlama xətası sahəsi; $\Delta_{ö.RPİ}$ – RPİ sisteminin xətası sahəsi; $\Delta_{ö.ey}$ – elastiki deformasiyalardan ölçülərin xətası sahəsidir.

Yerləşdirmə xətası sahəsi detalın emal olunan səthlərinin xətalarının qiymətlərinə əhəmiyyətli dərəcədə təsir göstərir,

$$\varepsilon_{yer} = \sqrt{\varepsilon_{baz}^2 + \varepsilon_{bər}^2 + \varepsilon_{tər}^2} \quad (2)$$

burada ε_{baz} - texnoloji və konstruktiv bazalarının uyğunsuzluğundan yaranan bazalaşdırma xətası sahəsi; $\varepsilon_{bər}$ - bərkitmə qüvvəsinin qiymətinin və pəstahın səth qatının keyfiyyətinin dəyişməsi nəticəsində yaranan bərkitmə xətası sahəsi; $\varepsilon_{tər}$ - tərtibatın hazırlanması, onun elementlərinin yerləşdirilməsi və istismar zamanı yeyilməsi nəticəsində yaranan xəta sahəsidir.

RPİ dəzgahlarında texnoloji proseslərin işlənib hazırlanmasında ε_{yer} yerləşdirmə xətası sahəsinin təşkiledicilərinin qiymətlərini azaltmaq üçün texnoloji və konstruktiv bazaları üst-üstə salmağa çalışmaq lazımdır, bu halda $\varepsilon_{baz} = 0$ olacaqdır. $\varepsilon_{bər}$ bərkitmə qüvvəsinin qiymətinin və pəstahın səth qatının keyfiyyətinin dəyişməsi nəticəsində yaranan bərkitmə xətası sahəsiniin qiyməti detalın yerləşdirmə səthlərinin ilkin emalı hesabına azaldılır. $\varepsilon_{tər}$ tərtibatın hazırlanması, onun elementlərinin yerləşdirilməsi və istismar zamanı yeyilməsi nəticəsində yaranan xəta sahəsi qiyməti isə dəzgahın uyğun sazlanması ilə aradan qaldırıla bilər.

RPİ torna qrupu dəzgahlarında val tipli pəstahlarını emal edərkən, ε_{yer} yerləşdirmə xətası sahəsi, əsəsən mərkəz deşiklərinin hazırlanması dəqiqliyindən asılıdır. Mərkəz deşiklərinin dərinliyinin müsaidəsi valın oxboyu ölçülərinin müsaidələrinə baza xətası kimi daxil edilir. Mərkəz deşiklərinin dairəvilikdən sapması eninə kəsikdə valın emal olunmuş səthlərinin forma dəqiqliyinə təsir göstərir.

$\Delta_{ö.saz}$ sazlama xətası sahəsi dominant xətalar kateqoriyasına aiddir. Kəsici alətlər dəzgahdan kənarda alət bloklarında əvvəlcədən quraşdırılır və sonra dəzgahda emal dövrünün (tsiklinin) başlanğıc nöqtəsi olan sıfır nöqtəsinə uyğunlaşdırılır.

Bu halda, sazlama xətası sahəsi dörd təşkiledicidən asılıdır [4]:

$$\Delta_{ö.saz}= k\sqrt{\Delta_{ö.a.s}^2 + \Delta_{ö.a.b}^2 + \Delta_{ö.a.f}^2 + \Delta_{ö.a.ölçmə}^2} \quad (3)$$

Burada $\Delta_{ö.a.s}$ - blokda alətin ilkin sazlanma xətası sahəsi; $\Delta_{ö.a.b}$ - blokun dəzgahda yerləşdirmə xəta sahəsi; $\Delta_{ö.a.f}$ - fırlanan alət tutqacı və ya dəzgahın revolver başlığının fiksasiyası xətası sahəsi; $\Delta_{ö.a.ölçmə}$ – dəzgahın sazlanmasın zamanı ölçmə xətası sahəsidir.

$\Delta_{ö.RPİ}$ RPİ sisteminin xətası səbəbi ilə hissənin ölçü xətası $\Delta_{ö.x}$ idarəetmə proqramlarının hazırlanması xətasından və onların $\Delta_{ö.y.yet}$ oxunması və yerinə yetirilməsi xətası təşkiledicilərindən ibarətdir. Birinci $\Delta_{ö.x1}$ təşkiledicisi $\Delta_{ö.p.x}$ proqramlaşdırma xətalarından və $\Delta_{ö.i.x}$ interpolyasiya xətasından asılıdır [4].

$$\Delta_{ö.1x}= k\sqrt{\Delta^2_{ö.p.x} + \Delta^2_{ö.i.x}} \tag{4}$$

Burada $\Delta_{ö.p.x}$- proqramlaşdırma xətası sahəsi; $\Delta_{ö.i.x}$ - interpolyasiya xətası sahəsidir.

İkinci $\Delta_{ö.x2}$ təşkiledici dəzgahın $\Delta_{ö.di.x}$ intiqal, $\Delta_{ö.vm.x}$ veriş mexanizmi və $\Delta_{ö.iomöv.x}$ mövqeləndirmə xətaları ilə formalaşır.

$$\Delta_{ö.2x}= k\sqrt{\Delta^2_{ö.di.x} + \Delta^2_{ö.vm.x} + \Delta^2_{ö.iomöv.x}} \tag{5}$$

burada $\Delta_{ö.di.x}$ – dəzgah intiqalının xətası sahəsi; $\Delta_{ö.vm.x}$ – veriş mexanizminin xətası sahəsi;

$\Delta_{ö.iomöv.x}$– dəzgahın işçi orqanlarının mövqeləndirmə xətası sahəsidir.

$\Delta_{ö.p.x}$ proqramlaşdırma xətası approksimasiya (yaxınlaşma), hesablama nəticələrinin yuvarlaqlaşdırılması və kəsici alətin ucundakı (təpəsindəki) radiusun təsiri xətalarından ibarətdir. Onların əmələ gəlmə ehtimalını nəzərə alsaq, o zaman onları dəqiqlik balansından qismən çıxarmaq olar.

$\Delta_{ö.di.x}$ dəzgah intiqalının xətası dəzgahın işçi orqanlarının veriş intiqallarının konstruksiyası və idarəetmə proqram sisteminin dəqiqlikləri ilə müəyyən edilir.


$\Delta_{ö.vm.x}$ veriş mexanizminin xətası gediş vintinin hazırlanma xətası, kürə-vint cütünün boşluqlarının olması və əks əlaqə sensorlarına nisbətən ötürücü və reduktorların dişli çarxlarının yığılmış səhvi ilə şərtlənir.

$\Delta_{ö.iomöv.x}$ dəzgahın işçi orqanlarının mövqeləndirmə xətası dəzgahı işə salarkən və dayandırarkən istiqamətləndirisilərdə sürtünmə qüvvələri və momentlərinin qeyri-sabitliyi nəticəsində baş verir.

Alətin sazlama vəziyyətinin və onun hərəkət trayektoriyasının korreksiyası, eyni detallar dəstini dəzgahda emal edərkən, emalın cəm xətasının hissənin ölçüləri üzrə müsaidələrini aşmaq ehtimalı olduqda lazımdır. Adaptiv idarəetmə sistemlərinin istifadəsi bu problemi həll etməyə və bununla da emalın dəqiqliyini yaxşılaşdırmağa və ya yüksəltməyə imkan verir.

RPİ dəzgahlarında təmiz emal dəqiqliyi balansının hesablanması, L_f sazlama ölçüsünün faktiki qiymətinin L_v verimiş qiymətdən $\Delta_ö$ sapmasını təyin etməyə imkan verir. Sazlama ölçüsünün L_v qiymətinə uyğunlaşdırılması (korreksiyası) aşağıdakı kimi həyata keçirilir (şəkil 2). Dəstin birinci detalını emal etdikdən sonra dəqiqlik balansı hesablanır və nəticədə alınan $\Delta_ö$ qiyməti sazlama ölçüsünün $\Delta_{s.ö}$ müsaidə sahəsinin qiyməti ilə müqayisə edilir.

$\Delta_ö$ qiyməti sazlama ölçüsünün $\Delta_{s.ö}$ müsaidə sahəsinin qiymətindən çox olarsa, idarəetmə sistemi dəzgahın veriş intiqalı tərəfindən yerinə yetirilən, faktiki və verilən sazlama ölçüsünün bərabərliyini təmin etmək üçün lazım olan korreksiya edici impulsların sayını müəyyən edir.



Şəkil 2. *Sazlama sxeminin yenidən sazlanması sxemi [4]*

Nəticə.

1. RPİ dəzgahlarında pəstahların mexaniki emal dəqiqliyinə təsir edən amillərin nəzərdən keçirilməsi dəzgahın dəqiqliyi, kəsici alətin keyfiyyəti, pəstah və istehsal texnologiyası, habelə istismar şərtləri daxil olmaqla ən əhəmiyyətli olanları müəyyən etməyə imkan verdi. Təhlillərin nəticələri müasir maşınqayırma müəssisələri üçün dəzgahların təkmilləşdirilməsi və istehsal olunan məhsulların keyfiyyətinin yaxşılaşdırılması üçün ən prioritet fəaliyyət sahələrini formalaşdırmağa imkan verəcəkdir.
2. Müasir maşınqayırmanın ən mühüm məsələlərindən biri maşın detallarının emalının səmərəliliyinin artırılmasıdır. Bu məsələnin həlli zaman detalların səth qatının verilmiş keyfiyyət səviyyəsində ən yüksək emal məhsuldarlığına nail olmaq da daxildir. Mümkün olan ən yüksək məhsuldarlıqla işlənmiş səthin keyfiyyətini təmin etmək detalların istehsalı üçün texnoloji proseslərin layihələndirilməsi zamanı həll olunan ən vacib məsələdir.
3. Məhsuldarlığı artırmaq üçün ehtiyatlardan biri kəsmə prosesinin rasional parametrlərinin seçilməsidir. Bu baxımdan, verilmiş emal şərtləri və emal olunan səthlərin keyfiyyətinə olan tələblər üçün maksimum məhsuldarlığı təmin edən optimal kəsmə rejimlərinin parametrlərinin tədqiqi aktuallaşır.

Ədəbiyyat

1. Кузнецов А.С. Технологическое обеспечение точности при обработке на станках с ЧПУ / А.С. Кузнецов, А.А. Дроздов // Современные проблемы науки и образования (Пенза). [Электронный ресурс] –№2, 2015. – с. 165- 170. – Режим доступа. – URL: http:// Elibrary.ru.
2. Максимов Ю.В. К вопросу об обеспечении точности обработки на станках с ЧПУ // Ю.В. Максимов, А.А. Бекаев, М.А. Надольский, А.В. Прохоров // Известия Московского государственного технического университета (МАМИ, Москва). [Электронный ресурс] – Том2, №2(14), 2012. – с. 129- 130. – Режим доступа. – URL: http:// Elibrary.ru.
3. Некрасов Р.Ю. Структура и принципы работы интеллектуальной системы управления обработкой на станках с ЧПУ / Р.Ю. Некрасов, А.И. Стариков, И.В. Соловьев, О.В. Бекарева // Технология и материалы. - №4, 2015. – с. 41-48.
4. Неизвестных А.Г. Анализ точности обработки деталей на станках с ЧПУ / А.Г. Неизвестных, Е.Г. Крылов // Известия Волгоградского государственного технического университета (Волгоград). [Электронный ресурс] – Том 4, №9(47), 2008. – с. 89-91. – Режим доступа. – URL: http:// Elibrary.ru.

5. Лысенко А.Ф. К оценке погрешности обработки деталей при интеллектуальном управлении станком / А.Ф. Лысенко, А.И. Изюмов, О.В. Гончаров // Вестник донского государственного технического университета (Ростов-на-Дону). [Электронный ресурс] – Том 14, №3(78), 2014. – с. 96-102. – Режим доступа. – URL: http:// Elibrary.ru.
6. Системный подход к ротационному резанию при получении порошковых материалов / В.Г. Шаламов, С.Д. Сметанин // Металлообработка. - 2013. - № 2. - с. 23-26.
7. Темпель Ю.А., Темпель О.А. Особенности и факторы, оказывающие влияние на точность механической обработки на станках с ЧПУ / Новые технологии - нефтегазовому региону. Материалы Международной научно-практической конференции. Том II. 2016 Издательство: Тюменский индустриальный университет (Тюмень): 2016, с. 265-270
8. Юсубов, Н.Д. Повышение эффективности многоинструментной обработки на станках-автоматах токарной группы: / диссертация доктора технических наук, специальность 05.02.08 – Технология машиностроения. / − Баку, 2009. − 424 с.
9. Yusubov, N., Abbasova, H., Khankishiyev, İ. Entwicklung einer Projektierungstheorie für die Mehrwerkzeugbearbeitung mit den Möglichkeiten der modernen CNC-Werkzeugmaschinen // – Germany: Forschung im Ingenieurwesen, – 2021. No.85, – p. 661–678.
10. Yusubov N.D., Abbasova H.M. Full-factor matrix model of accuracy of dimensions performed on multi-purpose CNC machines // – Moskow: *Obrabotka metallov (tekhnologiya, oborudovanie, instrumenty) = Metal Working and Material Science,* – 2021, 23(4), – p. 6-20.
11. Yusubov, N.D., Movlazade, V.Z., Abbasova, H.M. Research of sensitivity of full-factor models of scattering fields of dimensions performed in multi-tool machining // The 8th International Conference on Control and Optimization with Industrial Applications (COİA 2022), – Baku, Azerbaijan: – 24-26, – 2022, –vol. II, – pp. 480-482.
12. Yusubov, N.D., Abbasova, H.M. Models for Machining Accuracy in Multi-Tool Adjustment // - Pekan, Pahang, Malaysia: International Journal of Automotive and Mechanical Engineering (IJAME), – 2020. 17 (3), – p. 8067-8085.
13. Кошин, А.А., Юсубов, Н.Д. Элементы матричной теории точности многоинструментной обработки в пространственных наладках // – Челябинск: Вестник машиностроения, – 2013. №9, – с. 13-17.
14. Юсубов, Н.Д. Многоинструментная обработка на станках - автоматах токарной группы (Матричная теория точности многоинстументной обработки на современных станках с ЧПУ токарной группы) / Н. Д. Юсубов. – Саарбрюккен: AV Akademikerverlag Gmbh & Co. KG / LAP LAMBERT Academic Publishing, – 2013, – 256 с.
15. Юсубов, Н.Д. Основы матричной теории точности многоинструментной токарной обработки (Принципы и структура теории, проектирования и управления процессами многоинструментной обработки) / Н.Д. Юсубов. – Саарбрюккен: OmniScriptum GmbH & Co. KG / LAP LAMBERT Academic Publishing, – 2013. – 216 с.
16. Юсубов, Н.Д., Аббасова, Г.М. Управление обработкой при многоинструментной двухсуппортной наладке // – Москва: Вестник машиностроения, – 2020. №3, – с. 67-73.
17. Комиссаров, В.И. Точность, производительность и надежность в системах проектирования технологических процессов / В.И. Комиссаров, В.И. Леонтьев. – М.: Машиностроение, 1985. – 425 с.
18. Соломенцев, Ю.М. Управление гибкими производственными системами / Ю.М. Соломенцев, В.Л. Сосонкин. – М.: Машиностроение, 1985. – 352

Məqalə qəbul olunub: 26.09.23
Tövsiyə edib: prof. Məmmədov A.T.

GƏMİÇİLİK VƏ SU NƏQLİYYATININ İSTİSMARI

УДК 656. 615

ИССЛЕДОВАНИЯ И РАЗРАБОТКА УСТАНОВКИ ДЛЯ ОПРЕДЕЛЕНИЯ ЦЕНТРА ТЯЖЕСТИ ПОРТОВЫХ ПЕРЕГРУЗОЧНЫХ МАШИН

Аралбаева М.К.

Yessenov University, Морская академия
Казахстан, г. Актау
E-mail: mereke.aralbayeva@yu.edu.kz

Аннотация. *В статье рассмотрена актуальная проблема по исследованию и разработке установки для определения центра тяжести погрузочно - разгрузочных машин. Определение действительного центра тяжести необходимо для расчетов устойчивости. Данной установкой можно определить точку приложения центра тяжести от веса самой машины, при неправильном определении этой точки соответственно изменятся плечи приложения сил и расчет коэффициента устойчивости будет неверен.*

Xülasə. *Məqalədə yükləmə və boşaltma maşınlarının ağırlıq mərkəzini təyin etmək üçün qurğunun öyrənilməsi və inkişafı ilə bağlı aktual problem müzakirə olunur. Sabitliyin hesablanması üçün həqiqi ağırlıq mərkəzinin müəyyənləşdirilməsi lazımdır. Bu quraşdırma ağırlıq mərkəzinin tətbiq nöqtəsini maşının özünün ağırlığından təyin edə bilər, bu nöqtə düzgün müəyyənləşdirilmədikdə qüvvələr tətbiqinin çiyinləri müvafiq olaraq dəyişəcək və sabitlik əmsalının hesablanması səhv olacaqdır.*

Abstract. *The article deals with the actual problem of research and development of an installation for determining the center of gravity of loading and unloading machines. Determination of the actual center of gravity is necessary for stability calculations. With this installation, it is possible to determine the point of application of the center of gravity from the weight of the machine itself, if this point is incorrectly determined, the shoulders of the application of forces will change accordingly and the calculation of the stability coefficient will be incorrect.*

Ключевые слова: *подвижная опора центра тяжести погрузчика, тарированные пружины, истинный центр тяжести*

Açar sözlər: *daşınan dayaq, forkliftin ağırlıq mərkəzi, yüklənmiş yaylar, həqiqi ağırlıq mərkəzi*

Key words: *movable support, loader center of gravity, calibrated springs, true center of gravity*

Введение. К самоходным перегрузочным машинам на пневмоколесном ходу предъявляются всё более строгие требования в отношении веса, габаритов, манёвренности, скорости, устойчивости при условии их полной надёжности и экономичности.

В течение последних лет в странах СНГ и за рубежом обсуждается вопрос устойчивости погрузчиков который гарантировал бы полную безопасность работы, давая возможность повысить технико-эксплуатационные показатели перегрузочных машин. Возникает потребность в простом и достаточно точном методе проверки устойчивости погрузчиков, пригодном для практического применения [1].

В практической работе водителю погрузчика приходится перевозить смешанный груз неизвестного веса и с неизвестным расположением центра тяжести. Поэтому ему приходится интуитивно определять безопасность условий работы. Для решения этого вопроса в «Морской академии» Yessenov University им. Ш. Есенова была разработана установка – выдвижной противовес, который увеличивает грузоподъёмность погрузчика до максимально допустимой.

Постановка задач. При эксплуатации самоходных погрузчиков не полностью используется номинальная грузоподъёмность при работе погрузчиков с рабочим оборудованием навесной стрелой. В следствии этого значительно снижается производительность и при несоблюдении таблицы подъема грузов погрузчик переворачивается. Для решения этой проблемы необходима разработать дополнительно систему выдвижного (плавающего) противовеса, который увеличит коэффициент устойчивости погрузчика. Для расчета моментов сил удерживающих и сил опрокидывающих необходимо точно определить центр тяжести исследуемого погрузчика. Для этого необходима разработать установку для определения центра тяжести.

Анализ полученных результатов. При определении продольной устойчивости погрузчиков, большое значение имеет точное определение центра тяжести погрузчика в нерабочем (ненагруженном) состояний [2].

Для определения центра тяжести предложена установка, состоящая из четырёх подвижных площадок – весов-1. Автопогрузчик въезжает на эти площадки, причём каждое из четырёх колёс – опор устанавливается на своей площадке при этом показатели веса передней и задней оси будут одинаковы, после этого системой гидроцилиндров выдвигается металлическая плита-3, опирающая на две одинаковые, тарированные пружины, причём упругость пружин составляет 25% от веса автопогрузчика (рисунок 1) [3].




Рисунок 1. *Схема определения центра тяжести в поперечной оси:1,2 - подвижные площадки весов; 3-плита металлическая; 4,5,6,7-табло весов*

Показатели веса опор – колёс на весовом табло-4,5,6,7, изменяется при этом, если на табло, например, двух передних опор получается разные значения, то это говорит о том, что центр тяжести в направлении поперечной оси выбран неправильно.

Например, показания табло правой передней опоры больше показаний левой передней опоры, соответственно и табло задних опор будут отличаться. В этом случае, подпружиненная плита переустанавливается ближе к правым опорам в направлении, показанном стрелкой на рисунке 1.

После того как показания табло передних опор и соответственно задних опор, покажут одинаковые значения, будет ясно, что центр тяжести в поперечных осях выбран правильно.

Для определения истинного центра тяжести, т.е. в продольной оси гидроцилиндром выдвигаем подвижную опору, линия действия которой направлена вдоль продольной плиты (рисунок 2) [4].




Рисунок 2. *Схема определения истинного центра тяжести в продольной оси: 1,2 – подвижные площадки весов; 3-плита металлическая; 4,5,6,7-табло весов, 8-подвижная опора*

Устанавливаем подвижную опору в середине продольной плиты -3, при этом, например, показания на табло передней и задней оси будут разные, причём показания на табло задней оси значительно больше показания на табло передней оси. В этом случае, плавно передвигаем подвижную опору-8 вдоль продольной плиты-3 в направлении к задней оси до того состояния, когда показания табло передних и задних осей не покажут равные значения, это означает, что истинный центр тяжести погрузчика найден, при этомпоказания весовые данных на всех четырех табло должны быть одинаковыми (рис.2) это указывает на то что центр тяжести определен верно.

Заключение. На разработанной установке можно определить центр тяжести любой самоходной перегрузочной машины и по полученным данным рассчитать коэффициент устойчивости.

Аналога данной установки не выявлено. Установка разработана Морской академией при содействии научного отдела Yessenov University.

Литература

1. Вайнсон А.А. Подъемно-транспортные машины. – М. Машиностроение, 2018.
2. Мархель И.И. Детали машин. – М. Ф ОРУМ-ИНФРА-М, 2015.
3. Барабанов В.А. Расчеты грузоподъемных и транспортирующих машин. – М. Мастерство, 2012.
4. Спиваковский А.О., Бржезовский С.М., Дьячков В.К. Подъемно-транспортные машины. Атлас конструкции. – М., Машиностроение, 2017.
5. Барсов И.П. Грузоподъемные машины и оборудование. – М., Академия, 2014.

Məqalə qəbul olunub: 02.10.23
Tövsiyə edib: dos. İsmayılov A.Ş.

UOT 629.123.1

DAYAZLIQ NAVİQASİYA TƏHLÜKƏSİ: YARANMA EHTİMALININ BƏZİ QANUNAUYĞUNLUQLARININ TƏDQİQİ

Abbasov E.O., Rüstəmov Z.Ə.

"Azərbaycan Dövlət Dəniz Akademiyası" PHŞ
AZ1000, Bakı şəh., Z.Əliyeva küç., 18
E-mail: elnur.abbasov@asco.az , rzao@mail.ru

Xülasə. *Məqalədə gəminin naviqasiya təhlükəsinin dəf edilməsi, üzmə təhlükəsizliyinin artırılması, idarəolunmanın təminatı ilə əlaqəli sahildə və gəmidə quraşdırılmış müvafiq naviqasiya texniki vasitələri, vəhdətlik şərti ilə araşdırılaraq, aralarında funksional asılılığın mövcudluğu əsaslandırılır. Müəyyənləşmiş funksional asılılığa istinad edərək, bir cihazın göstərici dəyişməsinin digərinə təsirinin nəzəri-praktiki əsasları tədqiq olunur.*

Abstract. *In the article, in order to prevent navigational hazards, improve the safety of navigation, ensure the controllability of ships, the corresponding navigational technical means installed on the shore and on the ship are investigated, and the presence of a functional relationship between them is substantiated. With regard to the established functional dependence, the theoretical and practical foundations of the influence of a change in the indicators of one device on another are investigated.*

Аннотация. *В статье, с целью предотвращении навигационных опасностей, повышение безопасности мореплавания, обеспечения управляемости судами исследуются соответствующие навигационные технические средства, установленные на берегу и на судне, обоснуются наличия функциональной зависимости между ними. Применительно к установленной функциональной зависимости исследуются теоретические и практические основы влияния изменения показателей одного прибора на другой.*

Açar sözlər: *gəmi, üzəgənlik, naviqasiya, laq, exolot, təhlükəsizlik*
Key words: *ship, buoyancy, navigation, log, echo sounder, safety*
Ключевые слова: *судно, плавучесть, навигация, лаг, эхолот, безопасность*

Giriş. Dəniz nəqliyyatı, təyinatından asılı olmayaraq, istismarı dövründə dəniz və okeanlarda minlərlə mil məsafə qət və naviqasiya təhlükəsini dəf etməklə, bütün hallarda üzmənin təhlükəsiz, etibarlı, zəmanətli və səmərəli təminində xüsusi maraq kəsb edən nəqliyyat növüdür. Bu baxımdan istər ticarət, istərsə də digər xüsusi məqsədlər üçün (hərbi, sənaye, geoloji və s.) müəyyən olunaraq tikilmiş gəmilərin naviqasiya təhlükəsinin dəf edilməsi, üzmə təhlükəsizliyinin artırılması, bununla əlaqəli sahildə və gəmidə quraşdırılmış müvafiq texniki vasitələrin təkmilləşdirilməsi istiqamətində aparılan elmi tədqiqat işləri hər bir zaman aktuallığını qoruyub saxlamaqdadır.

Beləliklə, tədqiqat obyekti olan ticarət gəmiləri, uzaq səfərlərə çıxmaqla minlərlə mil qət edərək kütləvi sərnişin-turist və ya kifayət qədər yüksək miqdarda müxtəlif fiziki-kimyəvi xüsusiyyətli yüklərin daşınması, dünya dəniz və okeanların sularında uzunmüddətli səyahətləri zamanı naviqasiya təhlükəsini dəf etmə məcburiyyətindədirlər.


Yüksək dənizçi təcrübəsi və nəzəri bilik tələb olunan gəmi rəhbərliyi və idarə heyəti, səfərlər üçün ən etibarlı marşrutları seçmək iqtidarında olsalar da, tanımadığı və məhdud görmə imkanlı yerlərdən təhlükəsiz üzmənin təşkilinə görə məsuldarlar. İstismar şəraitinin müxtəlifliyi, turist səyahətinin və gəzintisinin rəngarəngliyi gəmi kapitanlarından tufanlar, tələtümlər, fırtınalar, qayalıqlar, buzlaqlıqlar, dayazlıqlar, dar keçidlər, məhdud akvatoriyalar, qabarmalar-çökmələr, axınlar, intensiv hərəkət və s. sahələrdə ola biləcək ***naviqasiya təhlükəsini*** də dəf edərək gəmini təhlükəsiz idarə etmə bacarığına sahibliyi ön plana çıxır. Bu zaman dənizçilər yüksək psixoloji hazırlıqlı olmaqla yanaşı, bütün gözlənilən

və gözlənilməyən hadisələrə, o cümlədən ***naviqasiya təhlükəsi*** mövcugluğuna daim hazır olmalı və insan amilinə tuşlanmadan risk etməyə də qadir olmalıdırlar [1,2].

– владельцы из Сингапура предпочитают нанимать моряков с Малайзии, Таиланда, Филиппин и Индонезии. Однако на практике цена и доступность будут иметь приоритет над любыми чувствами и культурной близостью [1].


Основное содержание. Анализ многолетнего опыта управления многонациональными экипажами российским командным составом показывает, что основными факторами влияющими на личностно-профессиональные качества членов экипажа и командного состава судов являются как общие факторы такие как национальная политика, состояние судоходной индустрии, социальное положение моряков в стране, национальные особенности, система школьного обучения, основные вероисповедания, система подготовки моряков, так индивидуальные: исполняемая должность, опыт плавания, уровень профессиональной подготовленности психофизиологические особенности, степень знания иностранных языков и уровень национальной толерантности, которые и составили основу модели управления многонациональными экипажами (рис.).

Исторический опыт свидетельствует, что морские флоты во все времена являлись важнейшим инструментом политики государств, имеющих выход к морю, которая формировалась на основе национальных интересов и определяющей состояние судоходной индустрии.

Командному составу рекомендуется знать основные положения национальной политики государств, сравнить политику государств, понять место и роль Российской Федерации во внешнеполитической деятельности, что позволит не только лучше понять членов экипажей, их идеологию, но и использовать эти сведения в своей деятельности.

Сегодня в основном мононациональные экипажи можно встретить на борту судов, принадлежащих развивающимся странам мира, и в то же время именно эти же страны являются

поставщиками рабочей силы на суда «удобных» флагов.



Модель управления многонациональными экипажами

Затраты на экипаж судна в основном определяются его национальностью и также зависят от флага судна и может быть вдвое выше при сравнении – европейский флаг и «удобный» флаг типа Либерии, Панамы или Сингапура.

Еще одной причиной растущего числа многонациональных экипажей является социальный аспект. Рост уровня жизни в развитых странах Западной Европы, США и Японии вызвал также изменения на международном морском рынке труда, вследствие того, что заработная плата моряка сегодня может быть незначительно выше оплаты труда квалифицированного рабочего или служащего в развитых странах и это еще одна из причин, почему мы все больше встречаем экипажей судов из представителей развивающихся стран [1].

Командному составу судов необходимо учитывать особенности национального образования. Ведь в экипажах руководящему составу приходится работать зачастую с матросами, которые имеют только школьное образование, имеющими минимальный опыт плавания или

вообще без него. Опыт показывает, что уровень школьного образования в этих странах ниже российского. У обучающихся зачастую отсутствуют элементарные знания по предметам, которые необходимы для выполнения своих функциональных обязанностей.

Как состояние образования в стране определяется в основном уровнем ее экономического развития, так и морское образование непосредственно связано с морской мощью государства. Состав, состояние национальных морских флотов и задачи ими решаемые определяют содержание, уровень, ступени и всю систему подготовки моряков. Требования к качеству подготовки специалистов национальных морских флотов, отношение к обеспечению обучения, несомненно, отражается на степени подготовки моряков национальных морских флотов.

Гипотеза о существовании национального характера очень давно распространена и в обыденном сознании, и в художественной литературе и в научном мире. Хорошо известна вежливость японцев, сдержанность англичан и дисциплинированность немцев.

Несмотря на логичность подобных рассуждений и аргументов, конкретный этнический материал не подтверждает эту гипотезу полностью, хотя благодаря ей ученые исследуют важные стороны жизни народов. Учёные (особенно в США) пытаются найти ей подтверждение, полагая, что психические особенности людей одной национальности обусловлены традициями воспитания, семейных отношений и т.д. Зарубежные авторы определяют национальный характер как «модальную личность» или сужают понятие национального характера до системы установок и представлений у членов одной этнической общности, выполнения ролевых функций, соблюдения правил и табу.

Национальный характер определяет национальные особенности (этностереотипы), которые влияют на этнические симпатии – антипатии, национальные установки, обуславливающие межэтническое поведение людей, они формируются на основе избирательности – сопоставления своей этнической общности с другими («нас» с «не нами»). Наряду с другими факторами национальные особенности обуславливают характер национальных отношений, способствуя формированию образов «хороших» и «плохих» народов (народов союзников-партнеров и народов соперников-врагов) [4].

Офицерскому составу рекомендуется изучать и использовать в своей деятельности свойства национального характера. Он значительно явственнее проявляется в тех случаях, когда действуют не отдельные личности, а группы взаимодействующих людей в многонациональных экипажах и определяет национальные особенности, характер межнациональных отношений, и межэтническое поведение многонациональных групп. Неучёт национальных особенностей членов экипажей, как правило, приводит к возникновению психологического барьера и негативного отношения к командному составу.

Знание и использовать командным составом в своей деятельности национальных особенностей членов экипажей, определяющих характер межнациональных отношений и межэтническое поведение людей, позволит избежать возможных недоразумений, преодолеть в короткие сроки психологический барьер, адекватно реагировать на различные ситуации, возникающие в процессе плавания, вызывает уважение у экипажа и позволяет эффективно организовывать управление многонациональными экипажами.

Для человека, живущего в условиях той или иной цивилизации, не обязательно быть истово верующим. Ему в первую очередь необходимо осознавать свою принадлежность к общности, связанной канонизированными религией нормами отношений. Религия была и остается влиятельным элементом политической и духовной жизни многих государств.

Невозможно жить в обществе и быть полностью от него свободным, не следовать обычаям, определенным ритуалам, взглядам, ценностным установкам, не придерживаться определенного образа жизни. Религиозное влияние в наше время проявляется по-разному в каждой стране в зависимости от государственного строя, степени социально-экономического развития, исторических традиций и других условий.

Даже если человек считает себя неверующим, он внутренне придерживается определенной религиозной ориентации, так как постулаты других религий вызывают у него отторжение, а какая-то определенная религия считается им «своей» или кажущейся ему близкой по своим основным понятиям, связывающей его со своим народом, своей национальностью, своими традициями.

Практически во всех странах, являющихся основными поставщиками моряков для многонациональных экипажей многих аспектах жизни соблюдаются предписания национальных религий. В экипажах могут быть моряки различных вероисповеданий, поэтому командному составу рекомендуется иметь понятие об постулаты религий распространенных в стране, чтобы умело использовать эти знания в своей деятельности.

В многонациональных экипажах могут возникать психологические барьеры на фоне различных культур, языков и религий, что приводит к трудностям восприятия или полному непонимание при обсуждении каких-либо личных вопросов и проблем, вызванных различным менталитетом и национальными особенностями. Все это может привести к разрозненности членов экипажа, замкнутости, чувству одиночества, что пагубно сказывается как на экипаже, так и в целом на работе судна.

Знание особенностей национальных культур членов многонационального экипажа, их национальных особенностей, уважение национальных традиции и религиозные чувств позволят командному составу избежать возможных недоразумений и негативного отношения, преодолеть в короткие сроки психологический барьер между членами экипажа судна, адекватно реагировать на различные ситуации, возникающие во время рейса.

Позволяет уяснить некоторые аспекты в их поведении, понять логику их поступков, вызывает чувство уважения у членов экипажа, помогает повысить эффективность его деятельности и обеспечить повышение безопасности плавания.

Заключение. Таким образом знание национальных и религиозных особенностей позволяет избежать возможных недоразумений и негативного отношения к командному составу, преодолеть в короткие сроки психологический барьер, адекватно реагировать на различные ситуации, возникающие в рейсе. Позволяет уяснить некоторые аспекты в их поведении, понять логику их поступков, вызывает чувство уважения у членов многонационального экипажа и позволяет эффективно управлять их деятельностью.

Использование факторов в комплексном виде, сравнение российских и национальных факторов, представленных в модели управления многонациональными экипажами позволяет избегать возникновения психологических барьеров и каких-либо недоразумений, т.к. иностранные моряки с уважением и почтением относятся к офицерам, обладающим знаниями об их родине и уважающим их национальные и религиозные традиции и в то же время пользоваться заслуженным авторитетом у всех членов экипажа и выбирать судовым офицерам методы оптимального управления.

Литература

1. Сапронов К. Многонациональные экипажи. Как их видит история и современность. [Электронный ресурс]. – Режим доступа: https://teletype.in (Дата обращения: 02.04.2023).
2.. Количество моряков в России увеличилось. [Электронный ресурс]. – Режим доступа: //http://www.sur.ru/ (Дата обращения 02.04.2023).
3. Россия вышла на второе место в мире по количеству моряков. «Морская газета.23». – Режим доступа: //http://dzen.yandex.ru/ (Дата обращения 02.04.2023).
4. Роль и значение этнических стереотипов в деятельности и поведении**.** [Электронный ресурс]. – Режим доступа: https://studexpo.ru/ (Дата обращения: 02.04.2023).

Məqalə qəbul olunub: 12.10.23
Tövsiyə edib: dos. Abbasov E.O.

GƏMİÇİLİK TEXNİKASI

UOT 629.12.066

OBYEKTLƏRİN İDARƏ EDİLMƏSI ÜÇÜN MƏNTİQİ TƏNZİMLƏYİCİNİN SİNTEZİ VƏ TƏDQİQİ

Fərhadov V.Q., Bayramova İ.P., Qocayeva A.B.

"Azərbaycan Dövlət Dəniz Akademiyası" PHŞ
AZ1000, Bakı şəh., Z. Əliyeva küç.,18
E-mail vahidf@mail.ru, genclik76@mail.ru

Xülasə. *Məntiqi tənzimləyicilərin qurulması avtomatik idarəetmənin nəzəri və tətbiqi məsələlərinin əsas istiqamətlərdən biridir. Sintez məsələsinin çətinliyi bir çox elektromexaniki sistemlərin, texnoloji proseslərin, mobil və uçan aparat vasitələrinin riyazi modellərinin yüksək qeyri-müəyyənlik dərəcəsinə, eyni zamanda obyektin qeyri-xətti və qeyri-stasionarlığının olması ilə xarici və parametrik təsirləri çox vaxt ölçməyin mümkün olmamasından ibarətdır. Belə hallarda tənzimləyicilərin sintezinə konstruktiv yanaşmalardan biri məntiqi idarəetmədir. Bu yanaşma hərəkətin fundamental göstəricilərinin məntiqi-linqvistik təhlilinə əsaslanır və buna görə də obyektin formal riyazi modeli və həyacanlandırıcı təsirlərin xüsusiyyətləri haqqında çox bilik tələb edilmir. Məntiqi-linqvistik idarəetmənin sintezinə əsas yanaşmalardan biri də "Lyapunov funksiyası üsulu"dur. Hazırda bu üsul həm deterministik, həm də qeyri-səlis tənzimləyicilərin sintezi üçün geniş istifadə olunur.*

Аннотация. *Построение логических регуляторов является одним из основных направлений теории и практики автоматического управления. Задача синтеза усложняется тем, что математические модели многих электромеханических систем, технологических процессов, подвижных и летательных аппаратов имеют большую степень неопределенности, а также часто бывают недоступны измерению внешние и параметрические возмущения, являющиеся источниками нелинейности и не стационарности характеристик объекта. В указанной ситуации одним из конструктивных подходов к синтезу стабилизирующих регуляторов является логическое управление. Этот подход основывается на логико-лингвистическом анализе фундаментальных показателей движения и поэтому не требует больших знаний о формальной математической модели объекта и характеристик возмущений. Одним из основных подходов синтеза логико-лингвистического управления является «метод функции Ляпунова». В настоящее время этот метод широко используется как для синтеза детерминированных, так и нечетких регуляторов.*

Abstract. *The construction of logical controllers is one of the main directions in the theory and practice of automatic control. The task of synthesis is complicated by the fact that mathematical models of many electromechanical systems, technological processes, mobile and aircraft vehicles have a high degree of uncertainty, and external and parametric disturbances, which are sources of nonlinearity and non-stationarity of object characteristics, are often inaccessible to measurement. In this situation, one of the constructive approaches to the synthesis of stabilizing controllers is logical control. This approach is based on a logical-linguistic analysis of the fundamental indicators of movement and therefore does not require much knowledge about the formal mathematical model of the object and the characteristics of disturbances. One of the main approaches to the synthesis of logical-linguistic control is the "method of the Lyapunov function". Currently, this method is widely used for both the synthesis of deterministic and fuzzy controllers.*

Açar sözlər: *tənzimləyici, faza portreti, məntiqi idarəetmə, alqoritm, astatizm, gücləndirmə əmsalı, statik xəta, keçid prosesi*

Ключевые слова: *регулятор, фазовый портрет, логическое управление, алгоритм, астатизм, коэффициент усиления, статическая ошибка, переходный процесс*

Key words: *regulator, phase portrait, logic control, algorithm, astatism, amplification factor, static error, transition process*

Giriş. Məntiqi idarəetmə modellərinin meydana gəlməsi avtomatlaşdırma sahəsində qeyri-müəyyən obyektlərin tədqiq edilməsi ilə əlaqədərdir. Bu halda idarəetmənin ənənəvi üsulları aşağı effektivli və ya sadəcə yararsız olurlar. Bunun əsas səbəbi aşağıdakılardır [1]:

1. Bir-çox idarə məqsədləri ədədi münasibətlərlə ifadə oluna bilmir.
2. Bəzi idarə girişləri arasında dəqiq ədədi asılılıqları təyin etməyin mümkün olmaması.
3. İdarə prosesinin coxmərhələli olması və hər bir addımın təsirinin əvvəlcə təyin oluna bilməməsi.
4. Obyektlərin mövcud yazılış üsullarının praktikada real zamanda istifadə oluna bilməməsi.
5. Obyektin fəaliyyəti zamanə onun parametrləri və strukturunun dəyişməsi.

Bu səbəbdən hər bir konkret hal meydana gəldikcə, idarəni dəyişmək lazım gəlir ki, bu da idarəetməni əhəmiyyətli dərəcədə çətinləşdirir. İdarəetmədə məntiqi üsulların əlverişliyi aşağıdakı səbəblərlə əlaqədardır:

1. Tələb olunan nəticəni tam informasiya və bilik tələb olunmadan aksiomatik xarakterli anlayışlar və müddəaların əsasında almaq olar.
2. Formalizasiya prosesi (riyazi təsviretmə) təbiiyə adekvat olan məntiqi mühakiməyə gətirir.
3. Məntiqi mühakimə nisbətən daha sadə olan dil konstruksiyalarından ibarət olur.
4. Dinamik proseslər halında formal mülahizələr dayanıqlıq nəzəriyyəsinin ümumi qaydaları əsasında qurulur ki, bu da mühakimə prosesini başa düşməyə və yoxlamağa imkan verir.
5. Formal mühakimənin nəticəsini hər hansı bir sistemdə çıxarış kimi almaq olar, çıxarışın axtarış prosesini isə konstruktiv qaydalardan ibarət olan sistemdə kompyuter proqramlarının köməyi ilə asanlıqla yetirilə yetirmək olar. Bu halda, məsələn, "*if-then*" ("əgər-onda") qaydalarından istifadə elmək olar.

Hazırda texnika və texnologiyada istifadə edilən obyektlər üçün məntiqi-linqvistik idarənin qurulmasına olan əsas yanaşmalardan biri x_i faza dəyişənləri arasında sonlu sayda ədədi münasibətlərin ayrılmasına əsaslanır. Bu münasibətlər idarə strategiyasının ayrı-ayrı elementlərini əlaqələndirir.

Əsas hissə. Dinamik obyektlər üçün məntiqi idarənin əsas sintez üsulu Lyapunov funksiyası üsuludur. Bu məsələnin həllində determinik [1] və qeyri-səlis [2] yanaşmalar mövcuddur. Məntiqi idarənin əsasını Lyapunovun 2-ci üsulu təşkil edir. Bu üsula əsasən, əgər "məsafə" ilə əlaqədar olan, məsələn, evklid norması, elə müsbət müəyyən $V(x_1, x_2, \ldots, x_n)$ funksiyası seçmək və idarəni seçməklə bu "sürətiin" sıfırdan kiçikliyini təmin etmək mümkün olarsa, yəni $dV(x)/dt < 0$ şərti ödənərsə, onda hesab etmək olar ki, idarəetmənin əsas məsələsi, dinamik sistemlər üçün, dayanıqlıq ödənilmişdir.

Energetik baxımdan bu xüsusiyyəti belə əsaslandırmaq olar. Əgər Lyapunov funksiyası adlanan $V(x)$ potensial funksiyasının enerjisi sistemin traektoriyası x(t) boyunca azalırsa, sistemin hərəkəti müəyyən vaxtdan sonra yekunlaşacaqdır. Adətən, kanonik kvadratik və xətti vuruqlara ayrılan kvadratik formalardan istifadə olunur.

Alınmış məntiqi idarəetmə strategiyası seçilmiş Lyapunov funksiyasının tipindən əhəmiyyətli dərəcədə asılıdır. Məsələnin həlli sadə halda 4 mərhələdən ibarətdir:

• müsbət müəyyən (yəni $V(x) > 0, V(0) = 0$) funksiyanın seçilməsi; obyektin traektoriyası x(t) üzrə bu funksiyanın zamana görə $dV(x)/dt$ törəməsinin təyin olunması; alınmış törəmənin idarə u ilə əlaqələndirilməsi: $dV(x)/dt = f(u).$; $dV(x)/dt < 0$ şərtini ödəyən əks əlaqəli $u(x)$ idarəsinin təyin olunması.

Kanonik kvadratik forma halında x_i , i=1,2,...n, faza dəyişənlərinin işarəsindən asılı olaraq elə idarə $u_j(x)$ seçilir ki, işarələrin kombinasiyasının baxılan oblastında törəmənin sıfırdan kiçikliyini təmin edir. Bu səbəbdən, hər bir j-ci oblastda özünün lokal $u_j(x)$ təyin edilir. Sistemin tərtibi artdıqca işarələrin kombinasiyalarının sayı kəskin artır və məntiqi qanunauyğunluqlar ekspert tərəfindən getdiycə başa düşülmür.

İşdə qeyri-xətti obyektlər üçün yuxarıda göstərilən çətinliklərdən qismən azad olmağa imkan verən məntiqi rele idarəetmə alqoritmi işlənilmişdir. Bu halda obyekt qeyri-müəyyən olub, qeyri-xəttilik və xarici həyazanlandırıcı təsirlər məlum olmur. İki tip məntiqi rele tənzimləyiciləri işlənilmişdir:

1. Kvazisürüşən rejimdə işləyən rele tənzimləyiciləri.
2. "if-then" qaydaları əsasında qurulmuş rele tənzimləyiciləri.

Bu halda qeyri-xəttiliyin və həyacanlandırıcı təsirin hədd qiymətlərini bilmək kifayətdir. Təbii ki, bu halda rele siqnalının səviyyəsi qeyri-xəttiliyin yaratdığı hərəkət toplananını və həyacanlandırıcı təsirləri dəf edə bilmək üçün kifayyət etməlidir.

Xətti vuruqlara ayrılan kvadratik formaqan istifadə etdikdə tapılmış idarə sürüşən rejim doğurur. Sürüşən rejim sonlu gücləndirmə əmsalında avtomatik idarəetmədə əldə edilən ən robast rejimdir. Lakin bu rejimdə idarə siqnalının yüksək tezlikli rəqslər etməsi icra orqanının dayanıqlığını və etibarlığını zəiflədir. Bu xüsusiyyət sürüşən rejimlərin tətbiq sahəsini məhdudlaşdırır. İşdə bu çatışmamazlıq qoşma s=0 xəttinin sərhəd təbəqəsində u=0 idarə siqnalının istifadə edilməsə yolu ilə zəiflədilir.

Məntiqi idarənin sintezi məsələsinin qoyuluşu. $\dot{V}(x)$ törəməsinin sıfırdan kiçik olmasını təmin edən elə idarəni təyin etmək lazımdır ki, butün x_i faza dəyişənlərinin işarəsini təhlil təhlil etmək mümkün olsun. Yüksək tərtibli obyektlər halında kombinasiyaların sayı kəskin artır və bütün işarə kombinasiyaları üçün $\dot{V}(x) < 0$ şərtini təmin edən məntiqi qanunauyğunluqların qurulması olduqca çətinləşir.

Lyapunov funksiyasını qurduqdan sonra ikinci əsas məsələ $\dot{V}$ törəməsinin u idarəsindən asılığını tapmaqdan ibarətdir.

Bu halda Lyapunov funksiyası aşağıdakı şəkildə verilir:

$$V(x) = \frac{1}{2}\sum_{i}^{n}\sum_{j}^{n} q_i x_i x_j = \frac{1}{2} x^T Q x,$$

burada $x = (x_1, x_2, \ldots, x_n)^T$ – vəziyyət vektoru; $Q = (q_{ij})$, $i, j = \overline{1,n}$ – müsbət müəyyən ədədi matrisdir. Kanonik formada Q diaqonal şəklində qəbul etmək olar $Q = diag(q_{ij})$. Xüsusi halda $Q = I$, burada I – vahid matrisdir.

Obyektin tənliyi $$\frac{dx}{dt} = f(x,u).$$

$f(x,u)$ – obyektin vektor funksiyasıdır.

Bu funksiyanın obyektin trayektoriyası $x(t)$ üzrə zamana gərə törəməsi:

$$\frac{dV}{dt} = \sum_{i=1}^{n} \frac{\partial V}{\partial x_i} \frac{dx_i}{dt} = x_1\dot{x}_1 + x_2\dot{x}_2 + \ldots + x_n\dot{x}_n = \nabla V \cdot f(\boldsymbol{x},\boldsymbol{u}). \qquad (1)$$

Burada $\nabla V(x_1, x_2, \ldots, x_n)$ - Lyapunov funksiyasının qradiyentidir.

Məntiqi idarənin sintezi məsələsinin həlli. Misal olaraq **s**abit cərəyan mühərrikinin sürətini idarə edən məntiqi tənzimləyicinin qurulması misalına baxaq. Belə dinamik obyektlərin riyazi modeli belə olur:

$$dx^2 / dt^2 = u.$$

Burada x – yerdəyişmə (mühərrik üçün valın dönmə bucağı); $\dot{x}$ - sürət (bucaq sürəti); u – idarə təsiri.

Faza dəyişənlərində uyğun model:

$$\dot{x}_1 = x_2, \quad \dot{x}_2 = u, \quad x = x_1.$$

Kanonik formada Lyapunov funksiyası:

$$V = \frac{1}{2}\left(x_1^2 + x_2^2\right).$$

Bu funksiyanın (1) ifadəsinə əsasən zamana görə törəməsi:

$$dV / dt = x_1\dot{x}_1 + x_2\dot{x}_2. \qquad (2)$$

Obyektin tənliyindəki $\dot{x}_2 = u$ ifadəsini (2)-də yerinə yazsaq törəmə ilə u idarəsinin əlaqəsini taparıq. Onda

$$dV / dt = x_1\dot{x}_1 + x_2u = x_1x_2 + x_2u = x_2(x_1 + u).$$

$dV/dt < 0$ şərtini idarəni seçməklə təmin etmək üçün 4 sayda işarə kombinasiyası və o qədər də məntiqi qaydalar mümkündür:

Əgər $x_1 > 0$ və $x_2 > 0$, onda $u < -K x_1$, $\quad |Kx_1| > |x_1 x_2|$ (3)

Əgər $x_1 < 0$ və $x_2 < 0$, onda $u > -Kx_1$, Əgər işarələr müxtəlifdirsə, onda $u = 0$.

Alınmış nəzəri (3) əks əlaqəli məntiqi idarə alqoritminə nəzərən bəzi qeydlər etmək lazımdır. Birincisi, u-nun seçilməsinin birqiymətli olmaması. İkincisi, traektoriyanın pərçimlənməsinin qarşısını almaq üçün u=0 idarəsini x_1 absis oxunun kiçik ətrafında qoşmaq olmaz. Bu səbəbdən u=0 əvəzinə $u = \pm\varepsilon$, $\varepsilon > 0$ – kiçik kəmiyyətdir, və ya u=0 qiymətinə qadağa qoyulan kiçik $-b \le x_2 \le +b$ oblastını ayırmalıyıq. Bununla bərabər x_2 oxunun ətrafında u=0 olan $-a \le x_1 \le a$ oblast ayırmaq lazımdır. Belə modifikasiya edilmiş alqoritm $x_1 = 0, x_2 = 0$ tarazliq nəqtəsinin kiçik ətrafında stabilləşdirici $u = 0$ idarəsinin təsir etdiyi və tərəfləri a , b olan düzbucaqlı ayırmağa imkan verir.


Qeyd olunanları nəzərə alaraq (3) məntiqi alqoritminin rele variantını aşağıdakı şəkildə yazmaq olar:

Əgər $x_1 \ge a$ və $x_2 > -b$, onda $u < -1$, (4)

Əgər $x_1 \le -a$ və $x_2 \le b$, onda $u > 1$, digər hallarda $u = 0$.


Şəkil 1-də sistemin faza portreti göstərilmişdir.

Parametrlər a və b kiçik kəmiyyətlər olduğundan avtoəqslərin amplitudu çox da böyük olmayaraq buraxıla bilən tənzimləmə xətası ilə uzlaşır. Əks halda a parametrini kiçiltmək olar.




Şəkil 1. *Sistemin faza portreti*

Şəkil 2-də (4) alqoritmi əsasında qurulmuş tənzimləyicinin realizasiya sxemi göstərilmişdir.




Şəkil 2. *Tənzimləyicinin realizasiya sxemi*

Şəkil 3-də tənzimləyicinin Simulink sxemi göstərilmişdir.



Şəkil 3. *Tənzimləyicinin Simulink sxemi*

Şəkil 4, *a*-*b*-də $a = 0.05$, $b = 0.2$ qiymətlərində sistemin faza portreti (a), tənzimlənən $y = x_1$ kəmiyyəti və idarə siqnalı u göstərilmişdir.



a) *b*)

Şəkil 4. *Sistemin faza portreti (a), tənzimlənən* $y = x_1$ *kəmiyyəti və idarə siqnalı u (b)*

Təklif olunan (4) məntiqi alqoritmin çatışmayan cəhəti x=0 tarazlıq nöqtəsinin kiçik ətrafında avtorəqslərin mövcud olmasıdır. Bu xüsusiyyət idarə siqnalının məhdud, yəni çəmisi üç u=± 1 və u=0 qiymətlərini ala bilməsidir.

Nəticə. Beləliklə, obyektlərin idarə edilməsi üçün məntiqi tənzimləyicinin sintezi və tədqiqi məsələsinə baxılmışdır. Belə hallarda tənzimləyicilərin sintezi üçün əsas yanaşmalardan biri məntiqi idarəetmədir. Bu yanaşma hərəkətin fundamental göstəricilərinin məntiqi-linqvistik təhlilinə əsaslanır və buna görə də çox məlumatlar tələb olunmur. Bu məqsədlə məntiqi-linqvistik idarəetmənin sintezinə əsas yanaşmalardan biri olan "Lyapunov funksiyası üsulu" təklif edilir. Xətti vuruqlara ayrılan kvadratik formadan istifadə sürüşmə və avtorəqs rejimlərindən azad olmağa imkan verir.

Ədəbiyyat

1. Rüstəmov Q.Ə. Avtomatik tənzimləmə nəzəriyyəsi. 2-ci hissə. Ali texniki məktəblər üçün dərslik. Bakı, Nasir nəşriyyatı, 2006, 532 s.
2. Рустамов Г.А., Фархадов В.Г., Рустамов Р.Г. Исследование Коробастных систем при ограниченном управлении //Мехатроника, автоматизация, управление. Москва, № 11, 2018. с. 699-706.

Məqalə qəbul olunub: 12.10.23
Tövsiyə edib: prof. Qafarov A.M.

UOT 629.12.066

CƏRƏYAN İNVERTORU ƏSASINDA QURULMUŞ TEZLİK ÇEVİRİCİLƏRİNİN AVAR ELEKTRİK QURĞULARINDA TƏTBİQİNİN TƏHLİLİ

Səlimova A.K., Sultanov E.F., İsmayılov S.S.

"Azərbaycan Dövlət Dəniz Akademiyası" PHŞ
AZ1000, Bakı şəh., Z.Əliyeva küç., 18
E-mail: afag_sk@mail.ru, elshen_sultanov@mail.ru, sahib-ismayil@bk.ru

Xülasə. *Avar elektrik qurğularında (AEQ) güclü elektrik maşınları üçün perspektivli olan cərəyan invertorları əsasında qurulmuş tezlik çeviricilərinin (TÇ) xüsusiyyətlərindən bəhs edilir. Bir və üç fazalı cərəyan invertoru, eləcə də gəmi üçün istehsal olunan cərəyan çeviricisi üçün sxematik həllər təhlil edilmiş, cərəyan invertorlarının sxemlərinin (CSI) qurulmasının əsas prinsipləri və tezlik çeviricisinin iş prinsipi nəzərdən keçirilmişdir. CSI sxemlərinin əsas 394elementlərinin seçimi aparılmış, cərəyan invertorlarının üstünlükləri, çatışmazlıqları və xüsusiyyətləri verilmişdir.*

Аннотация. *Рассмотрены особенности преобразователей частоты (ПЧ) на базе инверторов тока, перспективных для электрических машин гребных электроустановок большой мощности. Проанализированы схемные решения одно- и трехфазных инверторов тока, а также преобразователей тока, выпускаемых в морском исполнении, рассмотрены основные принципы построения схем инверторов тока (ИТТ) и принцип работы преобразователей частоты. Сделан выбор основных элементов схем инверторов тока, приведены преимущества, недостатки и характеристики инверторов тока.*

Abstract. *The characteristics of built-in frequency converters (FC) based on current inverters, which are promising for powerful electric machines in oar electric devices (OED) were discussed in the article. The schematic solutions for one- and three-phase current inverters, as well as current converters manufactured for ships, considered the basic principles of constructing current inverter circuits (CSI) and the working principle of frequency converters were analyzed in the article.The selection of the main elements of CSI schemes was made, the advantages, disadvantages and characteristics of current inverters were presented.*

Açar sözlər: *tezlik çeviricisi (TÇ), cərəyan invertorları, avar elektrik qurğuları (AEQ), vahid elektriktroenergetika sistemləri, tədqiqat gəmiləri*

Ключевые слова: *преобразователь частоты (ПЧ), инверторы тока, лопастные электроустановки (ВЭУ), комплексные электроэнергетические системы, научно-исследовательские суда*


Key words: *frequency converter (FC), current inverters, oar electric devices (OED), integrated electric power systems, research vessels*

Giriş. Dəniz donanmalarının gəmilərinin avar elektrik qurğularında tətbiq edilən elektrik maşınlarının gücünün tələbata uyğun olaraq artması, daha güclü elektrik çeviricilərinin tətbiq edilməsini zəruri edir. Hazırda dəniz donanmasının gəmilərində sabit cərəyan bəndi olan TÇ –ri geniş istifadə olunur. Bu cür çeviricilər manevr qabiliyyətini, istehsal ehtiyaclarını və gəminin təhlükəsizliyini təmin edən güclü elektrik ötürücülərini idarə etmək üçün istifadə olunan sabit cərəyanın paylanma şinlərini təşkil etmək qabiliyyətinə malikdir. İlk növbədə bunlar köməkşi sükan qurğuları, yük nasosları və kompressorlar, yanğın nasosları və lafetlərdə quraşdırılmışdır [6,8].

ABB şirkətinin proqnozuna əsasən, diaqramlarda göstərildiyi kimi, cərəyan invertorlarından əsasən yüksək güclər və yüksək gərginliklər üçün istifadə etmək məqsədəuyğundur (şəkil 1). Müasir gəmi invertorlarının işçi gərginliyi 10 kV-a, gücü isə 50 MVt-a çata bilər.

Əsas hissə. Cərəyan invertorunun (CSI-Current Source Inverter) ilkin olaraq konstruksiyası, sadə idi və mürəkkəb element bazası tələb etmirdi. Onun iki xüsusiyyəti var:

- invertorun girişi nəzəri olaraq sonsuz bir induktivliyə malik olmalıdır, onda invertorun giriş dövrəsi birbaşa cərəyan mənbəyi olacaqdır. Təcrübədə, yük müqavimətinin aktiv komponentindən minimum iş tezliyində indüktorun induktiv müqavimətinin mütləq dəyərdə 5-6 dəfə yüksək olması kifayətdir. Tiristorun dəyişdirilməsi prosesində tiristor açarının çıxışında "dəyişən" cərəyan, daha doğrusu, əks qütblü sabit cərəyanın düzbucaqlı impulsları baş verəcək;
- düzbucaqlı cərəyan impulslarını minimal təhriflə ötürmək üçün invertorun yükü daxili dinamik müqaviməti sıfıra yaxın olan dövrə olmalıdır. Bu məqsədlə, yükə paralel olaraq, impuls cəbhələrinin göründüyü anda yükü manevr edən bir kondensator bağlanır. Beləliklə, cərəyan invertorunun çıxış dövrəsinin xüsusiyyətləri qoşulma anlarında gərginlik mənbəyinin xüsusiyyətlərinə yaxındır.



Şəkil 1. *Müxtəlif növ invertor və TÇ–nin tətbiqində gərginlik və güc aralıqları*


Çıxış cərəyanının forması i_g yalnız tiristorların qoşulma sırası ilə müəyyən edilir və gərginliyin forması yükün təbiətindən asılıdır. Avtonom invertorlar təbii və süni kommutasiya ilə işləyə bilər. Kompensasiya edilmiş sinxron mühərriklərdə, fırçasız mühərrikin stator dolaqlarında və s. işləyərkən avtonom invertorun təbii kommutasiyası yer alır. Bununla belə, ən çox tiristorlarla hazırlanmış avtonom invertorlarda ventillərin süni kommutasiyası tətbiq olunur.

Cərəyan invertorunun ümumi yükü tutum xarakterli olmalıdır. Bu halda, kondensator C_g yalnız yükün Z_g reaktiv gücünü deyil, həm də invertorun reaktiv gücünü kompensasiya etməlidir (şəkil 2, a). Bu o deməkdir ki, bağlanma klapanına tiristorların ani kommutasiyası şərti ilə, β = δ bucağı ilə müəyyən edilmiş və onun idarəetmə xassələrini bərpa etmək üçün zəruri olan müddət ərzində mənfi gərginlik tətbiq edilməlidir. C_g kondensatorundakı gərginlik yükün və tiristorun U_{V1} gərginliyinə bərabərdir. Çıxış cərəyanının tezliyini tənzimləyərkən, δ bucağının sabitliyini qorumaq üçün C_g kondensatorunun tutumunu tezliyin kvadratına tərs mütənasib olaraq dəyişdirmək lazımdır. Bu, aşağı tezliklərdə çox böyük bir tutum dəyəri ilə nəticələnir.

Beləliklə, şəkil 2, b-də göstərilən sxem praktiki olaraq istifadə edilmir, lakin daha mürəkkəb sxemlər istifadə olunur. Invertorun çıxış siqnalının keyfiyyətini yaxşılaşdırmaq üçün eninə impuls


modulyasiyasından (PWM) istifadə olunur [1,2]. Gəmilərdə istifadə edilən çoxsəviyyəli invertorlada olduğu kimi, daha çox effekt əldə etmək üçün eninə amplitud modulyasiyasından (APWM) istifadə olunur [3,4].

Hər bir faza üçün çoxfazalı invertorun işi şəkil 2-də göstərilən bir fazalı çeviricinin işinə bənzəyir. VS1 və VS2 açıq olduqda, cərəyan soldan sağa axır. Bu halda kommutasiya kondensatoru U_d gərginliyinə qədər doldurulur. Kondensatorun sol tərəfində "müsbət" olacaq. Kondensatordan keçən cərəyan yalnız kommutasiya anında axır, buna görə də kommutasiya edici adlanır. VS3 və VS4 tiristorları açılan kimi (diaqramda –VS1 və VS4 - sonra C_{ab} üçün VS3 və VS2), əvvəllər açıq olan tiristorlar U_c əks (bloklama) gərginliyinin təsiri altında olacaq və kilidlənməyə başlayacaq. Buna görə də, adi cərəyan çeviricilərinin sxemlərində sadə bloklanmayan tiristorlar istifadə edilə bilər.



Şəkil 2. *Cərəyan invertorunun sxemi:*
a - birfazlı cərəyan invertoru, cərəyan və gərginliyin asılılıq əyrisi
b - keçid kondensatorlu üçfazlı cərəyan invertorulıq əyrisi

Şəkil 3-də göstərilmiş TÇ–sinin sxemi PowerFlexTM 7000 TÇ –də 6000 - 6600 V gərginliklər üçün dəniz gəmilərində istifadə olunur. TÇ–nin girişində PWM düzləndiricisi (aktiv filtrlə) və çıxışında - PWM ilə cərəyan invertoru vardır.




Şəkil 3. *Eninə impuls modulyasiyalı və cərəyan invertorlu TÇ–nin sxemi*

PowerFlexTM 7000, Rockwell Automation kompaniyasının üçüncü nəsil yüksək gərginlikli intiqallarının nümayəndəsidir. TÇ –si sxemində simmetrik idarəetmə elektrodu olan SGCT (Symmetrical Gate Commutated Thyristor) tiristorları istifadə olunur. SGCT inteqrasiya edilmiş drayver ilə qapanan tiristorun (GTO- Gate Turn-Off thyristor) modifikasiyasıdır. Drayverin SGCT-yə yaxın yerləşdirilməsi idarəetmə dövrəsinin aşağı indutivliyi ilə nəticələnir ki, bu da güc komutasiya qurğusunun daha bircinsli və səmərəli idarə edilməsini təmin edir. SGCT tiristoru IGCT cihazı ilə eyni xüsusiyyətlərə malikdir, onlar bir sıra çeviricilərdə istifadə olunur, lakin SGCT 6500 V-a qədər gərginliyi NPT strukturu (Non-Punch-Through Structure) hesabına yalnız duz deyil, həm də əks istiqamətdə saxlamaq (bloklamaq) qabiliyyətinə malikdir.

PowerFlex 7000L tipli çeviricilərdə SGCT tiristorlarının istifadəsi əhəmiyyətli üstünlüklərə malikdir [5]:


- dövrənin konstruksiyasının sadələşdirilməsi və kondensatorun tutumunun təxminən 10 dəfə azalması;
- daha yüksək modulyasiya tezliyində (420-540 Hs) PWM-nin formalaşması və nəticədə passiv komponentlərin ölçüsünün 50% azalması;
- elektrik intiqalında elektromaqnit və elektromexaniki keçid proseslərinin xüsusiyyətlərinin ümumiyyətlə təkmilləşdirilməsi;
- komponentlərin sayını azaltmaq və etibarlılığını artırmaq, TÇ–nin ölçüsünü azaltmaq.

Invertorin çıxış cərəyanının formasının yaxşılaşdırılması cərəyanın hər yarım dövrəsini trapesiya qanununa uyğun olaraq müddəti dəyişən cərəyan impulslarının ardıcıllığı şəklində formalaşdırmaqla əldə edilir (şəkil 4).



Şəkil 4. *EİM–lı invertorun çıxışında gərginlik və cərəyan*

İnvertorin çıxışındakı kondensatorlar, çıxışda cərəyan invertoru olan cərəyan impulsları ilə bir qayda olaraq, onlarda cərəyan artımına yol verməyən induktiv empedansa (transformatorların, asinxron mühərriklərin səpələnmə induktivliyi) malik Z_Y yükü arasında "enerji buferi" funksiyasını yerinə yetirir. Buna görə də, avar mühərrikinin gərginlik və cərəyan qrafikləri (bir faza üçün) şəkil 5 –də göstərilən formaya malikdir.



Şəkil 5. *Tam yükdə və nominal sürətdə mühərrikin cərəyanı və gərginliyinin forması*

Kondensatorun yükə görə necə qoşulmasından asılı olaraq, cərəyan və gərginlik invertorları paralel, ardıcıl və ardıcıl-paralel invertorlara ayrılır. Paralel invertorda kommutasiya kondensatoru yüklə paralel olaraq qoşulur.

Cərəyan invertorunun xarici xarakteristikası şəkil 6–da göstərilmişdir. Yüksuz işləmə rejimində, C kondensatoru U gərginliyinə kimi doldurulduqda, tiristorlar açılmağı dayandırdığından invertor işləmir. Yüksək yük cərəyanı ilə, C kondensatorunda gərginlik sürətlə azaldıqda (t_c vaxtı azalır), sürüşmə baş verə bilər, yəni işdən çıxan tiristorların bağlanmağa vaxtı olmayacaq. Dönmə zamanı dövrədəki cərəyan yalnız L induktorunun aktiv müqaviməti ilə məhdudlaşdırılacaq. Buna görə də, avtonom cərəyan invertoru məhdud yük cərəyanlarında işləyə bilər. Dəyişən çıxış gərginliyin sinusoidinin hissələri ilə ifadə olunan t_c zamanını β bucağı kimi qəbul etmək olar.
İnvertorin normal işləməsi üçün aşağıdakı şərt yerinə yetirilməlidir:


$$\beta \geq \omega t_{çıx} \tag{1}$$

Həmçinin β – bucağı aşağıdakı kimi də ifadə edilə bilər:

$$\beta = Y/Y_Y \cos\varphi - tg\varphi_Y \tag{2}$$

$$\varphi_Y = arctgX_Y/R_Y.$$

Burada $Y_C = wC - C$ kondensatorunun keçiricilik modulu; $Y_Y = 1/Z_Y$ - yükün keçiricilik moduludur.



Şəkil 6. *Cərəyan invertorunun xarici xarakteristikası*

Yükdəki gərginlik və C kondensatorunun tutumunun tələb olunan qiyməti əvvəlcədən müəyyən edilə bilər. Aktiv və reaktiv güclərin balansından alınan yük parametrlərinin funksiyaları şəklində təqdim edilə bilər:

$$P_Y = U_c I_c = U_Y I_Y cos\beta;\ Q_Y = P_Y tg\beta;\ Q_I = Q_K - Q_Y = U_Y^2 \omega C - P_Y tg\varphi_H.$$

burada U_c – yükdə dəyişən gərginliyin cari qiyməti, I_c- yükdə dəyişən cərəyanın cari qiyməti, P_Y - yükün aktiv gücü; Q_K - kondensatorun reaktiv gücü; Q_Y - yükün reaktiv gücü; Q_I - invertorun istehlak etdiyi reaktiv güc.

Yükdə əsas harmonikanın dəyişən cərəyan gərginliyinin effektiv qiyməti

$$U_Y = \pi/2(\sqrt{2} \cdot U_c)/C cos\beta$$


Bu ifadədə (2) ifadəsini nəzərə alsaq, aşağıdakı ifadəni yaza bilərik

$$U_Y = \pi/2(\sqrt{2} + \omega C/(Y_Y cos\varphi_Y - tg\varphi_Y)^2 \quad (3)$$

Kondensator tutumunun tələb olunan qiyməti isə aşağıdakı ifadə ilə hesablanır.

$$C = P_Y(tg\beta + tg\varphi)/\omega U_Y^2 \quad (4)$$

Cərəyan invertorunda dəyişən çıxış gərginliyinin tezliyi geniş diapazonda dəyişə bilməz, çünki L drosselinin induktivliyi sonlu bir qiymətə malikdir və tezliyin azalması ilə sxemdə drossel artıq cərəyan generatoru rejimini saxlaya bilməyəcək (şəkil 7).



Şəkil 7. *İnvertorun çıxış gərginliyinin (a) və β (b) bucağının yük parametrlərindən və C kondensatorunun tutumundan asılılıqları*

Təhlilə əsasən, gəmilərdə tətbiqi geniş miqyas alan cərəyan invertorları ilə bağlı aşağıdakıları qeyd etmək olar:

- gərginliyin kəskin düşməsi sahəsi ilə xarici xarakteristikaya malikdir;
- yüksüz işləmə rejimlərinə icazə vermir və yük cərəyanının sərhəd qiymətinə məhdudiyyət qoyulur;
- yükün dəyərindən asılı olan çıxış gərginliyi formasına malikdi;
- inersiya çeviricidir, çünki rejimin dəyişmə sürəti böyük Ld induktivliyinə malik reaktorda cərəyanın dəyişmə sürəti ilə müəyyən edilir;
- çıxış gərginliyinin aşağı tezliklərini əldə etmək üçün kifayət qədər rasional deyil, çünki bu reaktorun həmçinin kondensatorun çəkisini və ölçüsünü artırır.

Çatışmazlıqların təsirini azaltmaq və ya bəzilərini aradan qaldırmaq üçün klassik sxem adətən aşağıdakı dəyişikliklərlə modifikasiya olunur:

- invertorun çıxışında əlavə kondensatorların daxil edilməsi;
- ayırma ventillərinin tətbiqi;
- əks cərəyan ventillərinin tətbiqi;
- tiristor-induktiv tənzimləyicinin tətbiqi;
- AEQ üçün zəruri olan əks əlaqənin tətbiqi;
- invertorun çıxış cərəyanının eninə-impuls tənzimlənməsinin tətbiqi;
- vektor (faza) tənzimlənməsinin tətbiqi.

Nəticə. Gəmi AEQ–da güclü elektrik maşınları üçün perspektivli olan cərəyan invertorlarına əsaslanan TÇ–nin istifadəsi və konvertorların xüsusiyyətləri araşdırılmışdır. Aparılmış təhlilə əsasən, gəmilərdə tətbiqi geniş miqyas alan cərəyan invertorlarının üstünlükləri və çatışmazlıqları qeyd edilmişdir. Dünya ölkələrində istifadəsinə geniş tələbat duyulan AEQ-dan ölkəmidə gələcəkdə tikilməsi planlaşdırılan gəmilərimizdə tətbiqi məqsədə uyğundur. Belə olan təqdirdə yeni tikilən gəmilərimizdə, müasir idarə və işəburaxma sistemləri ilə təmin edilmiş AEQ –nın sahib olduğu bütün üstünlükləri əldə etmək olar.

Ədəbiyyat

1. НЭС «Академик Трешников». Военно-технический сборник «Бастион». [Электронный ресурс]. - Режим доступа: http://bastion-karpenko.narod.ru/22280.html (дата обращения: 20.08.2017).
2. Radan D. Power electronic convertors for ship propulsion electric motors / D. Radan. — Trondheim, Nor-way: NTNU, 2005. - 23 p.
3. Романовский В. В. Гребные электрические установки для арктических ледоколов / В. В. Романовский // Морской вестник. - 2015. - № 4 (56). - С. 53–54.
4. Гармаш Д. Суда спасатели: новые подходы к концепции создания / Д. Гармаш, Т. Наумова, М. Темкин, П. Мартулев // Морской флот. - 2014. - № 5. - С. 36–46.
5. Rockwell Automation [Электронный ресурс]. - Режим доступа: www.rockwellautomation.com (датаобращения – 23.09.2022).
6. Зиновьев Г. С. Основы силовой электроники: учебник: в 2 ч. / Г. С. Зиновьев. - Новосибирск: Изд-во НГТУ, 2000. - Ч. 2. - 197 с.
7. Дмитриев Б. Ф. Судовые полупроводниковые преобразователи: учебник / Б. Ф. Дмитриев, В. М. Рябенький, А. И. Черевко, М. М. Музыка. - Архангельск: Изд-во САФУ, 2015. - 556 с.
8. Быков А. С. Гребные электрические установки атомных ледоколов / А. С. Быков, В. В. Башаев,В. А. Малышев, В. В. Романовский. - СПб.: Элмор, 2004. - 320 с.
9. Силовые полупроводниковые устройства в цепях электрических машин. [Электроный ресурс]. - Режим доступа: https://books.ifmo.ru/file/pdf/386.pdf (дата обращения: 20.08.2022).

Məqalə qəbul olunub: 18.10.23
Tövsiyə edib: dos. İsmayılov A.Ş.

UOT 621-317.7

GƏMİ ELEKTRON AVADANLIQ VƏ QURĞULARINDA KOMPENSASİYA TİPLİ GƏRGİNLİK STABİLİZATORLARININ TƏTBİQİNİN ANALİZİ

Sultanov E.F., Məmmədov E.M., Əlicanov R.R.

"Azərbaycan Dövlət Dəniz Akademiyası"PHŞ
AZ1000 Bakı şəh., Z.Əliyeva küç.,18
E-mail: elshen_sultanov@mail.ru, emilmemmedoglu@gmail.com, ralicanov@mail.ru

Xülasə. *Gəmi elektron avadanlıq və qurğularında tətbiq edilən düzləndiricilər və stabilizatorlar çıxış gərginliyinin tələb olunan stabilliyini hər zaman təmin edə bilmirlər. Buna görə də şəbəkə gərginliyi və yaxud yükün qiyməti iş prosesində dəyişməsi səbəbindən yükə tətbiq olunmuş gərginlik yaxud cərəyan dəyişməyə məcbur olur. Bunlardan əsas olaraq yalnız birinin stabilliyinə yükün dəyişməsinin qarşının alınması vasitəsilə nail olmaq mümkün olur. Məqalədə gəmi elektron avadanlıq və qurğularında tətbiq edilən gərginlik stablizatorlarının iş prinsipi araşdırılmış və nasazlıqların yaranmasının qarşısını almaq məqsədi ilə kompensasiya tipli gərginlik stabilizatorunun tətbiqi təklif olunmuşdur.*

Аннотация. *Выпрямители и стабилизаторы, применяемые в судовом электронном оборудовании и установках, не всегда обеспечивают необходимую стабильность выходного напряжения. Вследствие изменения во время работы величины напряжения сети или значения нагрузки, напряжение или ток, подаваемый на нагрузку, как правило изменяются. В основном имеется возможность добиться стабильности лишь одной из этих величин, ограничением изменения нагрузки. В статье исследуется принцип работы стабилизаторов напряжения, применяемых в судовой радиоэлектронной аппаратуре и устройствах, а также предложено использование стабилизаторов напряжения компенсационного типа в целях предупреждения возникновения неисправностей.*

Abstract. *Straighteners and stabilizers used in ship electronic equipment and devices do not always provide the required stability of the output voltage. Therefore, as the mains voltage or load value changes during operation, the voltage or current applied to the load is forced to change. Basically, the stability of only one of them can be achieved by preventing load changes. For all these reasons, voltage stabilizers must be provided with automatic and uninterrupted operation. The principle of operation of voltage stabilizers used in ship electronic equipment and facilities, and proposes the use of compensation-type voltage stabilizers in order to prevent failures is investigated in the article.*

Açar sözlər: *gəmi, elektron qurğu, kompensasiya tipli stabilizator, giriş gərginliyi, qida mənbəyi, düzləndirici*

Ключевые слова*: судно, электронный блок, стабилизатор компенсационного типа, входное напряжение, источник питания, выпрямитель*

Key words: *ship, the electronic unit, compensation type stabilizer, input voltage, power supply, straightener*

Giriş. Gəmilərdə elektron güc çeviricilərinin tətbiqinə təxminən 1960-70-ci illər arasında başlanılmışdır. Bu hadisə gəmi elektrik stansiyasının dəyişən cərəyan hasil etməyə başlaması dövrünə təsadüf edir. Gəmi elektrik stansiyasının sinxron generatorlarını öz-özünə təsirlənmə üsulu ilə təsirləndirmək üçün yarımkeçirici diodlardan yığılmış bir və ya üç fazalı körpü sxemli düzləndiricilərdən istifadə edilirdi. Bu vaxtlar tam elektrikləşdirilmədiyinə görə gəmi elektrik

stansiyasının gücü təxminən 300-400 kVt-a kimi olan generatorlar qurulurdu. Bu vaxt generatorların gərginliyini tənzim etmək üçün təsirlənmə sarğısının dövrəsinə reostat qoşulurdu.

1970-1980-cı illər gəmilərin tam elektrikləşdirilməsi və qismən avtomatlaşdırılma (Avtomatlaşdırılma dərəcəsi A2) dövrü sayılır. Bu vaxtlar hazırlanan gəmilərdə işçilər və şərnişinlər üçün normal həyat şəraitinin yaradılması üçün çoxlu sayda elektrik işlədiciləri qurulmağa başlandı, iş mexanizmlərinin və onları hərəkətə gətirən asinxron mühərriklərinin gücü artırıldı. Müvafiq olaraq gəmi sinxron generatorlarının gücü də artdı. Bu vaxtlardan başlayaraq elektron güc çeviricilərinin gəmilərdə geniş tətbiqinə başlandı [1, 2].

Gəmi sinxron generatorlarını təsirləndirmək üçün idarə olunmayan düzləndiricilərlə yanaşı tiristorlardan yığılmış idarə olunan düzləndiricilərin də istifadəsinə başlanıldı, bu da öz növbəsində sinxron generatorların gərginliklərinin avtomatik tənzim edilməsini asanlaşdırdı. Gəminin bir çox iş mexanizmlərinin rotoru qısa qapanmış asinxron mühərrik üçün bilavasitə (bir bəndli) tezlik çeviricilərinin tətbiqi başlandı. Bunlardan əlavə təxminən 1980-cı illərdən başlayaraq gəmilərdə geniş tətbiq edilən böyük güclü val generatorları nəinki təsirlənmə dövrəsində tiristor gərginlik tənzimləyicisinin qurulmasını, hətta generatorun çıxışında da böyük güclü idarə olunan yarımkeçiricilərdən yığılmış tezlik çeviricinin qurulmasını tələb edir. Bunun da əsas səbəbi val generatorlarının fırlanma hərəkətini gəmiyə hərəkət verən baş mühərriklərdən almasıdır. Təxminən 1990-cı illərdən başlayaraq gəmilər A1 avtomatlaşdırılma (tam avtomatlaşma) dərəcəsinə malik olur. Belə gəmilərin baş mühərrikləri və elektrik stansiyasının generatorlarının mikroprosessorla idarə olunması və bunlarda tətbiq edilən güc çeviricilərinin həm sayı, həm də güc diapazonu artmışdır. Belə gəmilərdə fırlanma sürətinin tənzim olunması tələb olunmayan böyük güclü rotoru qısa qapanmış asinxron mühərriklərinin işə buraxılmasıda tezlik çeviricisi vasitəsilə yerinə yetirilir.

Kənar təsirlərə həssas olan gəmi elektron ölçü aparatları və nəzarətedici qurğularında kompensasiya tipli gərginlik stabilizatorlarının tətbiq edilməsi ilə, kiçik döyünmə qiymətləri olan yüksək gərginlik sabitliyinin əldə olunmasına imkan yaradılır. Əvvəllər elektron qurğularda stabil gərginliyin bir mənbəyi istifadə olunurdu. Müasir dövrdə stabilizatorlar qismində inteqral gərginlik stabilizatorlarından ıstifadə edilir. Gərginlik stabilizatorları parametrik və kompensasya tipli stabilizatorlarına bölünürlər. Bunlardan daha geniş istifadə edilən kompensasiya tipli gərginlik stabilizatorları, rezistiv gərginlik bölücüsündən ibarət olan model kimi baxılaraq, müxtəlif bölünmə əmsallarında giriş gərginliyinin müxtəlif qiymətlərində çıxış gərginliyinin sabitliyini təmin edirlər [1,2].

Əsas hissə. Parametrik stabilizatorların tətbiq olunması yalnız iş prosesində yük cərəyanının kiçik hədlərdə dəyişən hallarda məqsədəuyğundur. Əks halda bu stabilizatorların FİƏ kiçik olur, həmçinin kiçik olan sabitləşdirmə əmsalı onların gəmilərdə tətbiqini məhdudlaşdırır.

Gəmi elektron avadanıq və qurğularında tətbiq edilən kompensasiya tipli stablizatorların iş prinsipi ona əsaslanır ki, U_g, yaxud I_y cərəyanının dəyişməsinin qarşısını almağa xidmət edir. Buna görə stabilləşmə gərginliyini təmin etmək üçün yükün qiymətinin dəyişməsinin qarşısının alınması funksiyasını xüsusi olaraq, sxemə daxil edilmiş TE – tənzimləyici elementin vasitəsi ilə U_y–ün dəyişməsinin qarşısını alınır. Tənzimləyici element kimi adətən güc tranzistoru, əməliyyat gücləndiricisi və stabilizator istifadə olunur. Elementlərin ardıcıl yaxud paralel qoşulmasından asılı olaraq kompensasiya tipli stablizatorlar da ardıcıl yaxud paralel olur. İstehsalatda ən çox ardıcıl stablizatorlar istifadə edildiyindən onun iş prinsipini öyrənək.

Gəmi elektron avadanlıq və qurğularında tətbiq edilən kompensasiya tipli gərginlik stabilizatorları parametrik stabilizatorlarından fərqli olaraq daha yaxşı stabilləşdirmə xüsusiyyətinə malikdirlər. Ardıcıl kompensasiya tipli gərginlik stabilizatoru gərginlik düşgüsünü tənzimləmək və çıxış gərginliyinin sabitliyinin saxlanılması üçün rezistiv bölücünün tənzimlənən ballast müqavimətidir [3].

Belə müqavimət kimi rezistor, tranzistor və yaxud əməliyyat gücləndiricisi seçilir.

Ardıcıl tipli gərginlik stabilizatoru üçün yükə düşən gərginlyin qiyməti aşağıdakı ifadə ilə təyin edilir.

$$U_y = \frac{U_{1n} R_{con}}{Rcon_{var}}$$

Paralel tipli gərginlik stabilizatoru üçün isə yükə düşən gərginlyin qiyməti aşağıdakı ifadə ilə təyin edilir.

$$U_y = \frac{U_{1n} Rd}{Rcon_d}$$

Burada giriş gərginliyi dəyişdikdə yükdəki gərginliyin tənzimlənməsi üçün ballast elementin müqaviməti (R_d) dəyişməlidir. R_d – in qoşulma növündən asılı olaraq, kompensasiyalı stabilizatorlar ardıcıl və paralel olurlar. Ardıcıl stabilizatorlar üçün onların giriş gərginliyi U_g R_d və R_{const} arasında paylaşdırılır:


$$U_{g.} = R_d + R_{con}$$

Yükdə gərginliyin stabilləşdirilməsi R_d - in dəyişməsi hesabına və eləcədə $R_{const.}$- da gərginlik düşgüsü nəticəsində yerinə yetirilir. Stabilləşdirilmə prinsipinə uyğun olaraq yükdə gərginlik artdıqda *Uç* kompensasiya müqaviməti R_{var} artır, bu da R_{const} -da gərginliyin artmasına gətirir:


$$U_{Rcon} = U_d - U_{Rd.}$$

Ardıcıl qoşulmada gərginliklər cəmlənir, ona görə sonuncu ifadənin yerinə yetirilməsi üçün yük gərginliyi azalır. Stabilizatorlarda R_{var} – müqavimətinin dəyişməsi, *Iy, Ug, Uy* qiymətlərindən asılı olaraq avtomatik dəyişir. Bir çox hallarda R_{var} qismində tranzistorlardan da istifadə olunur. Bipolyar tranzistordan istifadə edildiyi halda R_d – kollektor-emitter keçidinin müqavimətidir (R_k=R_{ke}) və məlumdur ki, idarəedici elektrod tranzistorun bazasıdır. Sahə tranzistoru üçün R_k – kanal müqavimətidir (R_k=R_{ci}) və siqnalın idarə edicisi idarəedici elektroddur. Kompensasiya tipli gərginlik stabilizatorunun struktur sxemləri aşağıda göstərilmişdir [2, 3].

Bütün kompensasiya tipli gərginlik stabilizatorlarının əsas elementləri tənzimləyici elementdir (*TE).* Bu element dayaq gərginlik mənbəyi (*M*), müqayisə elementi və sabit cərəyan gücləndiricisindən (G) ibarətdir. Şəkil 1-də ardıcıl kompensasiya tipli gərginlik stabilizatorunun struktur sxemi, şəkil 2-də isə paralel kompensasiya tipli gərginlik stabilizatorunun struktur sxemi göstərilmişdir Ardıcıl tipli gərginlik stabilizatorlarında tənzimləyici element giriş gərginliyinin mənbəyi U_0 və yüklə $R_{y.}$ qoşulmuşdur. Əgər hər hansı bir səbəbdən gərginlik çıxışda U_1 öz nominal qiymətindən dəyişir, onda dayaq və çıxış gətginliyin fərqi dəyişir. Bu gərginlik güclənir və tənzimləyici elenentə təsir edir. Bu halda tənzimləyici elementin müqaviməti avtomatik dəyişir və U_0 gərginliyi *TE* və R_y arasında elə paylaşdırılır ki, yükdə gərginliyin dəyişiklikləri kompensasiya olunsun [2, 3].



Şəkil 1. *Ardıcıl kompensasiya tipli gərginlik stabilizatorunun struktur sxemi*



Şəkil 2. *Paralel kompensasiya tipli gərginlik stabilizatorunun struktur sxemi*

Gəmi elektron avadanlıq və qurğularında tətbiq edilən kompensasiya tipli gərginlik stabilizatorlarında tənzimləmə funksiyası adətən tranzistorlarla yerinə yetirilir. Onları seçərək, kollektor və emitter arasında cərəyanın ötürmə əmsalının, doyma gərginliyin qiymətləri nəzərə alınır. Çox vaxt müqayisə elementlərinin sxemləri və sabit cərəyan gücləndiriciləri bir çox funksiyaları özündə əks etdirirlər və ya adi gücləndiricilər, diferensial yaxud əməliyyat gücləndiricilər üzərində yerinə yetirilirlər. Tənzimləyici element müqayisə sxemilə idarə olunan keçid tranzistorudur. Müqayisə sxeminin məsələsi verilən qiymətdən çıxış gərginliyinin fərqinin təyinidir. Əksər hallarda dayaq gərginliyi çıxış gərginliyinin bir hissəsilə müqayisə edilir. Adətən icra elementi gərginliyin rezistiv bölücüsü kimi yerinə yetirilir və burada əsas məsələ bölünmənin sabit əmsalının təmin olunmasıdır. Əmsalın dəyişən olduğu halda, idarə olunan çıxış gərginlikli gərginlik stabilizatorunun alınması mümkündür. Müqayisə sxemindən idarə siqnalı sabit cərəyan gücləndiricisi ilə gücləndirilən $\Delta U=U_{gir}-U_{dayaq}$ gərginliklər fərqidir. Gərginlik stabilizatorunun iş keyfiyyəti ən çox dayaq gərginliyi mənbəyindən asılıdır. Əgər dayaq gərginliyi stabil olmasa, onda çıxış gərginliyi də stabil olmayacaq [3,4].

Adətən dayaq gərginliyinin mənbəyi stabilitronda parametrik gərginlik stabilizatoru kimi yerinə yetirilir. Tənzimləyici elementin idarə dövrəsində əks əlaqələrin mövcudluğu və yaxud olmaması stabilizatorun aşağıdakı xüsusu xarakteristikaları ilə təyin edilir:

1. Stabilləşdirmə əmsalı;
2. Dinamiki müqavimət.

Əks əlaqələrin növündən asılı olaraq stabilləşdirmə əmsalının qiymətini və dinamiki müqaviməti yaxşılaşdırmaq olar. Ona görə də stabilizatorların əks əlaqələrə görə bölünməsi böyük praktiki əhəmiyyət kəsb edir.

- Giriş gərginliyinə görə stabilləşdirmə əmsalı stabilizatorun giriş və çıxışdakı nisbi gərginliklər artımının nisbəti kimi təyin etmək olar:

$$K_{st} = \frac{\frac{\Delta U_g}{U_g}}{\frac{\Delta U_x}{U_ç}},$$

burada ΔU_g, $\Delta U_ç$–yük cərəyanı dəyişməz olduqda stabilizatorun giriş və çıxış gərginliklərinin artımı; U_g, $U_ç$ – stabilizatorun nominal giriş və çıxış gərginlikləridir.

- Giriş gərginliyi dəyişməz olduqda çıxış gərginliyinin artımı $\Delta U_ç$ yük cərəyanının artımı ΔI_y nisbətinə bərabər olan stabilizatorun daxili müqavimətidir.


$$R_i = \frac{\Delta U_ç}{\Delta I_y}$$

- Giriş gərginliyi və yük cərəyanı sabit olduqda çıxış gərginliyinin artımı $\Delta U_ç$ ətraf mühit temperaturunun artımı $\Delta T_{əm}$ nisbətinə bərabər olan stabilləşdirmənin temperatur əmsalı.

$$T_k = \frac{\Delta U_x}{\Delta T_{em}}$$

Qeyd olunan parametrlərdən başqa, gərginlik stabilizatorları energetik, kütlə qabarit və s. parametrlərlə də qiymətləndirilirlər.

Gəmi elektron avadanlıq və qurğularında tətbiq edilən kompensasiya tipli stabilizatorun struktur sxemi şəkil 3-də göstərilmişdir.




Şəkil 3. *Kompensasiya tipli gərginlik stabilizatorunun struktur sxemi*

Gəmi elektron avadanlıq və qurğularında tətbiq edilən kompensasiya tipli stabilizatorda çıxış gərginliyinin stabilləşdirilməsi əks əlaqə vasitəsi ilə aparılır. Çıxış gərginliyi giriş gərginliyinin təsiri və ya yük cərəyanının dəyişməsilə dəyişə bilər. O dayaq gərginliyi ilə müqayisə olunur və onun qiyməti uyğunlaşdırılır. Kompensasiya tipli stabilizatorun iş prosesində tənzimləyici element kimi istifadə olunan tranzistor daxili müqavimətini dəyişir. Bu müqavimətdə Om qanununa görə ΔU_{TE} gərginlik düşgüsü baş verir. Bu anda çıxışda qida gərginliyinin lazımi qiymətinin alınması qədər gərginlik düşür. Bu o deməkdir ki, kompensasiya tipli gərginlik stabilizatorunun tətbiqində giriş gərginliyi çıxış gərginliyindən çox olmalıdır. Göstərilən sxemdə tənzimləmə elementinin ötürmə əmsalı K_T çıxış gərginliyinin giriş gərginliyindən asılılığını təyin edir. Bu əmsal nə qədər kiçik olarsa, stabilizator bir o qədər keyfiyyətli hesab edilir [5, 6].

Giriş gərginliyinin döyünmələri stabilizatorun çıxışında əks olunmur. Ona görə tənzimləmə elementində adətən giriş gərginliyi bipolyar tranzistorun kollektoruna ötürülür. Adətən etalon gərginliyi U_{ET} stabilizatorun çıxış gərginliyi ilə üst-üstə düşmür, ona görə müqayisə sxemi və çıxış arasında bölücü əmsalı olan K_b gərginlik bölücüsü qoyulur. Lazımi stabilləşdirmə əmsalının alınması üçün müqayisə qurğusu və tənzimləyici tranzistor arasında sabit cərəyan gücləndiricisi quraşdırılır ki, o da xəta siqnalını U_E gücləndirir. Rabitə gücləndiricisinin ümumi əmsalı bu sxemdə belə təyin edilir:

$$K_{İ\,\text{lg.}} = K_T K_G K_B$$

İki tranzistor üzərində qurulan kompensasiya tipli stabilizatorunun sxemi şəkil 4-də göstərilmişdir.



Şəkil 4. *Sadə kompensasiya tipli gərginlik stabilizatorunun prinsipial sxemi*

Bu sxemdə tənzimləyici element qismində ümumi kollektorlu sxemə əsasən qoşulmuş VT_1 tranzistorundan istifadə olunmuşdur. Müqayisə sxemi VT_2 tranzistorda realizə olmuşdur. Bu tranzistorun cərəyanı baza və emitter arasındakı gərginliklər fərqindən asılıdır. Etalon gərginlik mənbəyi kimi rezistor R_1 və $VD1$ stabilitronu üzərində qurulan parametrik stabilizator istifadə olunmuşdur. Çıxış gərginliyi gərginlik bölücüsü R_3, R_4 vasitəsilə VT_2 tranzistorun bazasına daxil olur. Əgər gərginlik stabilizatorunun çıxışında hər hansı bir səbəbdən gərginlik artarsa o zaman VT_2 tranzistoru açılacaq, kollektordakı gərginlik azalacaq. Kollektora VT_2 tranzistorun VT_1 bazası qoşulmuşdur və stabilizatorun çıxışında gərginlik azalır (yəni verilən qiymətə qayıdır). Analoji olaraq, mənfi əks əlaqə sxemi çıxışdakı gərginliyin azalmasında da işləyir [5, 6].

Nəticə. Gəmi elektron avadanlıq və qurğularında tətbiq edilən kompensasiya tipli gərginlik stabilizator, çıxış kəmiyyətinin avtomatik tənzimlənməsini həyata keçirən qurğudur, yəni o giriş gərginliyi və çıxış cərəyanının dəyişməsində çıxış gərginliyinin qiymətinin stabilliyini təmin edir. Parametrik stabilizatorlardan fərqli olaraq kompensasiya tipli stabilizatorlar böyük çıxış cərəyanları, kiçik çıxış müqavimətləri, böyük stabilləşdirmə əmsalları ilə fərqlənirlər. Kompensasiya tipli stabilizatorların müasir gəmilərin daxilindəki vericilərdə, qəbuledicilərdə və ölçmə qurğularında, yüksək keyfiyyətli nəticələrin əldə edilməsi məqsədi ilə tətbiq edilməsi təklif olunur.

Ədəbiyyat

1. E.F. Sultanov. Elektron güc çeviricilərinin gəmilərdə tətbiqi, Bakı, ADDA, 2015, 100 səh.
2. E.F. Sultanov, F.V. Məmmədova. Gəmi elektronikası və güc çeviriciləri. Bakı, ADDA, 2020,180 səh.
3. Ефимов И.П. Источники питания РЭА: Учебное пособие. 2–е изд., испр. Ульяновск: Ул-ГТУ, 2012, 136 с.
4. Кондаков Е.В. Импульсные преобразователи и стабилизаторы напряжения, учебно-методическое пособие, Ростов-на-Дону, 2014, 41 с.
5. Биполярные транзисторы. -https://geektimes.com/post/253730. 2018-48 с.
6. Сажнёв А.М., Рогулина Л.Г., Абрамов С.С. “Электропитание устройств и систем связи”: Учебное пособие/ ГОУ ВПО СибГУТИ. Новосибирск, 2008, 112 с.

Məqalə qəbul olunub: 20.10.23
Tövsiyə edib: prof. Qafarov A.M.

UOT 629.12.066

GÜNƏŞ PANELLƏRİ VƏ ONLARIN GƏMİLƏRDƏ TƏTBİQİNİN ARAŞDIRILMASI

Sultanov E.F., İsmayılov S.S., Əlicanov R.R.

"Azərbaycan Dövlət Dəniz Akademiyası"PHŞ
AZ1000, Bakı şəh., Z.Əliyeva küç.,18
E-mail: elshen_sultanov@mail.ru, sahib-ismayil@bk.ru, ralicanov@mail.ru

Xülasə. *Məqalədə günəş panellərinin hazırki vəziyyəti, günəş energetikasının əsas müsbət və mənfi cəhətləri, həmçinin günəş panellərinin gələcək modelləri haqqında məlumatlar verilməklə yanaşı onların gəmilərdə tətbiqindən bəhs olunur. Həmçinin məqalədə yüksək qiymətli neft məhsullarından istifadənin azaldılması və qaz emissiyalarının minimuma endirilməsi məqsədi ilə günəşdən alınan enerjinin istifadəsi məsələləri də araşdırılmışdır.*

Аннотация. *В статье рассматривается современное состояние солнечных панелей, основные плюсы и минусы солнечной энергетики, а также информация о будущих моделях солнечных панелей, а также их применение на кораблях. Также в статье рассматривается использование солнечной энергии с целью сокращения использования высокоценных нефтепродуктов и минимизации газовых выбросов.*

Abstract. *The current state of solar panels, the main pros and cons of solar energy, as well as information about future models of solar panels, as well as their application on ships are discussed in the article. The use of solar energy in order to reduce the use of high-value oil products and minimize gas emissions is investigated in the article.*

Açar sözlər: *gəmi, günəş paneli, bərpa olunan enerji, elektrik enerjisi, günəş enerjisi*

Ключевые слова: *судно, солнечная панель, возобновляемая энергия, электрическая энергия, солнечная энергия*


Key words: *ship, solar panel, renewable energy, electric energy, solar energy*

Giriş. Yer kürəsinin Günəşdən aldığı enerjinin miqdarı dünyadakı bütün neft, qaz, kömür ehtiyatları və digər enerji resurslarının ümumi miqdarından artıqdır. Bu enerjinin cəmi 0.0125 %-i dünya energetikasının bugünkü ehtiyaclarını, 0.5 %-i isə, ümumiyyətlə, gələcəkdə enerjiyə olan tələbatı tamamilə ödəyərdi. Günəş enerjisindən istifadə edilən texnologiyaların əsas üstünlükləri ondan ibarətdir ki, Günəş qurğuları işləyərkən Yer atmosferinin aşağı qatlarının qızmasma səbəb olan istilik praktiki olaraq ayrılmır, istixana effektləri yaranmır və hava çirklənmir. Lakin atmosfer şəraitindən, günün vaxtlarından və fəsillərdən asılı olaraq Günəş energetikasının da çatışmazlıqları vardır [1].

Son 160 ildə gəmi və dəniz texnologiyasının inkişafına baxdıqda, gəmi güc sistemlərində böyük dəyişikliklərin yaşandığı müşahidə edilir. Statistika məlumatlarına baxıldığında, gəmilərin neft qaynaqlı yanacaqların istifadəsinə görə, gəmilərin qlobal Karbon Dioksid (CO2) emissiyasının 3% -nə, Azot Oksid (NOx) emissiyasının 15% -nə və Kükürd Dioksid (SO2) emissiyasının 6% -nə səbəb olduğu aşkar edilmişdir [2]. Buna görə, Beynəlxalq Dəniz Təşkilatı (IMO) gəmilərin ətraf mühitə təsirlərini minimuma endirən bir sıra tədbirlər görmüşdür [3]. Enerji Səmərəliliyi Dizayn İndeksi (EEDI) ilə yeni gəmilərdə CO2 emissiyalarının nəzarət altına alınması hədəflənmişdir. Gəmi Enerji Səmərəliliyi İdarəetmə Planı (SEEMP), bütün gəmilərdə əməliyyat səmərəliliyini təmin etmək məqsədi daşıyır. Dənizlərin gəmilərdən çirklənməsinin qarşısını alma Beynəlxalq Konvensiyanın (MARPOL) Ek-VI Maddəsin 13 və 14-cü qaydaları ilə gəmilərdən buraxılan NOx, SOx və PM emissiyalarının məhdudlaşdırılması planlaşdırılmışdır [4]. MARPOL Ek-VI ya görə gəmi dizel mühərrikinin tutumuna və inşa ilinə bağlı olaraq NOx emissiya yayma meyarları müəyyənləşmişdir.

Bundan əlavə, gəmi yanacaqlarında icazə verilən maksimum kükürd tərkibi 2020 -ci ilinə qədər 3,5% -dən 0,5% -ə endirmək qərarı verilmişdir [5]. Həmçinin, MARPOL Ek-VI çərçivəsində, Baltik dənizi, Şimal Dənizi, Birləşmiş Dövlətlər Karib Dənizi və Şimali Amerikanı əhatə edən bölgələrin bəzi hissələri Emissiya (tullantıya) Nəzarət Sahəsi (ECA) olaraq müəyyən edilmişdir. Bu ərazilərdə fəaliyyət göstərən gəmilərin 2015-ci il etibarı ilə kükürd dərəcəsi 0,1%-dən çox olmayan dəniz yanacağından istifadə etməli olduqları müəyyənləşdirilmisdir [6].

Əsas hissə. İlk istehsalından bəri günəş panelləri çox dəyişmişdir. Bu gün onları daha səmərəli edən çox inkişaf etmiş materiallar ilə istehsal olunmasıdır. Şəkil 1–də günəş panelinin əsas elementləri göstərilmişdir.



Şəkil 1. *Günəş panelinin elementləri*

Silikon əsaslı panelləri müqayisə etməyin müxtəlif yolları var və bunlar əsasən bir neçə kateqoriyaya bölünür: amorf; polikristal; monokristal.

Günəş panellərinin hər birinin xüsusiyyətlərinin təhlili aşağıda verilmişdir [7]:

- **Amorf panellər**: müəyyən bir quruluşa sahib olmadıqları və işin ilk aylarında çox səmərəliliyi itirdikləri üçün daha az istifadə olunur.
- **Polikristal panellər:** Fərqli yönlü kristallardan ibarətdir və mavi bir rəngə sahib olması ilə seçilirlər. İstehsal prosesi daha ucuzdur, lakin səmərəliliyi daha aşağıdır.
- **Monokristal Panellər:** ən yüksək keyfiyyətli məhsul hesab olunurlar. Burada hüceyrələr paneli əmələ gətirir və homojen bir temperaturda möhkəmlənmiş yüksək saflıqlı bir silikon kristalından ibarətdir. İstehsal prosesi daha bahalı olsa da, modullara daha böyük səmərəlilik verir.

Bu gün istifadə etdiyimiz əsas ənənəvi enerji resurslarının hamisinin - istər elektrik enerjisi olsun, istər yanacaq enerjisi, istərsə də atom enerjisi - geoloji, ekoloji və bioloji sistemlərə, həmçinin Yer atmosferinə ciddi zərəli təsirləri vardır ki, bu da bəzən qarşısıalınmaz fəsadların yaranmasına səbəb olur. Ancaq həm Günəş enerjisi çeviricilərinin, həm də Günəş enerjisi ilə işləyən qurğuların ətraf mühitə zərərli təsirləri praktiki olaraq yoxdur və ya cüzi dərəcədədir. Lakin bütün üstünlükləri ilə bərabər Günəş enerjisindən istifadə etməyin də müəyyən müsbət və mənfi cəhətləri vardır. Bu cəhətləri qısa da olsa şərh etməyə çalışacağıq [8].

Günəş enerjisindən istifadə etməyin əsas üstünlükləri aşağıdakılardır:

1. **Yenilənməsi və bərpa olunması.** Günəş enerjisindən bəhs edərkən birinci növbədə qeyd etmək lazımdır ki, neftin, qazın və kömürün enerjisindən fərqli olaraq Günəş enerjisi yenilənən və bərpa olunandır. Günəş bir ulduz kimi bundan sonra da çox uzun müddət ərzində ətrafa enerji şualandırmaqda və Yer kürəsini də enerji ilə təmin etməkdə davam edəcəkdir. Günəşin şüalanma parametrlərini bilməklə asanlıqla hesablamaq olar ki, bu müddət təqribən 5-6 milyard ilə bərabərdir.

2. **Ehtiyatının çox olması.** Yer kürəsinin vahid zamanda Günəşdən aldığı enerjinin miqdarı yuxanda qeyd edildiyi kimi 19.2-10^{16} Vt-dır. Əgər bu enerjinin bütün dünyada sərf olunan enerjidən 20 min dəfə çox olduğunu nəzərə alsaq, onda Günəş enerjisi ehtiyatının miqyasının nə qədər böyük olduğunu təsəvvür edə bilərik.
3. **Yer kürəsinin hər yerində əldə edilə bilən olması.** Yerin Günəş ətrafında dolanma dinamikası elədir ki, Günəş şüaları Yer kürəsinin hər yerinə düşür. Sadəcə olaraq ilin fəsillərindən asılı olaraq hər hansı bir regionda il boyu Günəş şüalarının intensivliyi dəyişir.
4. **Ekoloji təmizliyi.** Yer kürəsində ekoloji təhlükəsizliyin qorunması uğrunda görülən genişmiqyaslı tədbirlər fonunda Günəş eneıj isinin tədricən digər enerji mənbələrini əvəz etməsi prinsipial bir məsələdir. Ona görə ki, Günəş enerjisi çeviricilərinin istismarında, daşınmasında, qurulmasında və digər proseslərdə praktiki olaraq ekoloji sistemlərə və atmosferə heç bir ziyan dəymir və ya ətraf mühit nəzərə alınmayacaq dərəcədə az ziyan görür.
5. **Səssizlik.** Digər enerji mənbələrindən fərqli olaraq Günəş mənşəli enerji sistemlərində istər akustik, istərsə də elektromaqnit xarakterli dalğalar əmələ gəlmir ki, bu da onların ətraf mühitə, xüsusən biosistemlərə təsirini sıfıra endirmiş olur.
6. **İqtisadi səmərəliliyi və istismar xərclərinin az olması.** İlkin qurulma xərclərini nəzərə almasaq Günəş enerjisindən sərbəst enerji mənbəyi kimi istifadə olunması (məsələn, şəxsi evlərdə) nəzərə çarpacaq dərəcədə maddi vəsaitlərə qənaət olunmasına səbəb olur. Uzun bir müddət ərzində Günəş stansiyaları demək olar ki, texniki qulluq tələb eləmir. Bir qayda olaraq Günəş çeviricilərinin işləməsi üçün 20-25 il təminat verilir. Sadəcə olaraq ildə bir neçə dəfə çeviricilərin işlək səthləri silinib təmizlənməlidir.
7. **Tətbiq sahələrinin genişliyi.** Günəş enerjisi Yer kürısinin hər yerində və kosmosda istifadə oluna bilən yeganə alternativsiz enerji mənbəyidir. Enerji təminatı mərkəzlərinə qoşulmaq mümkün olmayan hər yerdə Günəş enerjisindən ən müxtəlif məqsədlər üçün istifadə olunur.
8. **Yeni innovasiya texnologiyalarının sürətlə tətbiq edilməsi.** Nanotexnologiyaların və kvant fizikasının sürətlə inkişafı daha mükəmməl və səmərəli Günəş çeviricilərinin istehsalı üçün yeni innovasiya texnologiyalarının istifadəsinə möhkəm zəmin yaratmışdır. Bu sahədə yaponiya şirkəti "Sharp" liderlik edir. Şirkət artıq pəncərə şüşələrini əvəz edə biləcək şəffaf Günəş panelləri yaratmağa müvəffəq olmuşdur.

Bu üstünlükləri ilə bərabər, Günəş enerjisindən istifadənin bəzi mənfi cəhətləri də vardır ki, bunların da əksəriyyətini tədricən tamamilə aradan qaldırmaq mümkündür. Günəş enerjisindən istifadə etməyin çatışmayan cəhətləri əsasən aşağıdakılardır.


1. **Maya dəyərinin yüksək olması.** Günəş enerjisini digər enerji növlərinə çevirən qurğuların baha başa gəlməsi və faydalı iş əmsalının aşağı olması (12-18%) ilkin mərhələdə Günəş çevirici stansiyaların qurulmasına xeyli vəsaitin xərclənməsinə səbəb olur ki, bu da alınan enerjinin maya dəyərini yüksəldir. Ancaq daha ucuz və effektli çevirici elementlərin tapılması və yeni innovasiya texnologiyalarının tətbiqi ilə Günəş mənbəli enerjinin maya dəyərini kəskin surətdə aşağı salmaq mümkündür. Bu sahədə görülən işlərin səviyyəsi deməyə imkan verir ki, bu problem yaxın 10-15 il ərzində öz həllini tapacaqdır.
2. **Kəsilən olması.** Günəş radiasiyasının gecə vaxtı olmaması, havanın tutqun və yağışlı vaxtlarında isə intensivliyinin kəskin surətdə azalması digər enerji mənbələrinə ehtiyacı zərurətə çevirir. Günəş enerjisinin, necə deyərlər, ən böyük "islaholunmaz" cəhəti onun kəsilən olmasıdır. Hələlik bu nöqsanı aradan qaldırmağın yeganə üsulu günün işıqlı vaxtlarında əldə olunan enerjinin akkumliyasiya edilməsidir. Bu üsul çox baha başa gəldiyindən həmişə ondan istifadə etmək əlverişli olmur.
3. **Cüzi də olsa ətraf mühiti çirkləndirməsi.** Digər enerji mənbələrinə nisbətən Günəş energetikasının ekoloji sistemlərə vurduğu ziyan müqayisə olunmayacaq dərəcədə azdır. Buna baxmayaraq Günəş panellərinin hazırlanmasının bəzi texnoloji prosesləri atmosferdə "istixana" effekti yaradan az miqdarda azot və kükürd mənşəli qazların ayrılması ilə müşayiət olunur.

Texnoloji sistemlərin təkmilləşdirilməsi ilə bu çatışmazlığı asanlıqla aradan qaldırmaq olar.

4. **Güc sıxlığının az olması.** Elektrik enerjisi mənbələrini xarakterizə edən əsas parametrlərdən biri orta güc sıxlığıdır. Bu parametr Vt/m^2 -lə ölçülür və enerji daşıyıcılarının vahid səthindən alına biləcək enerjinin maksimum miqdarını təyin edir. Bu parametr Günəş şüalanması üçün 170 Vt/m^2 -a bərabərdir. Bu göstərici bəzi bərpaolunan enerji mənbələrinə (məsələn, külək enerjisi) nisbətən yüksək olsa da, neft, qaz, kömür və atom energetikası sistemlərinin göstəricilərindən çox aşağıdır. Bu səbəbdən də hələlik Günəş fotoçeviricilərinin 1 m^2 -dən ən çoxu 0.5 kVt enerji əldə etmək mümkündür.

Bu gün biz Günəş enerjisindən lazım olan səviyyədə istifadə edə bilmirik. Bunun əsas səbəbi ondan ibarətdir ki, Günəş enerjisinini digər enerji növlərinə çevirən qurğuların istehsalı baha başa gəlir. Ancaq yeni ucuz çevirici materialların əldə edilməsi və texnoloji proseslərin təkmilləşdirilməsi bu problemi tədricən aradan qaldırır ki, bunun da nəticəsində Günəş enerjisindən istifadə ildən-ilə sürətlə artır.

2008-2018-ci illərdə dünya üzrə quraşdırılmış günəş enerjisinin inkişaf dinamikasını şəkil 2-də verilmişdir.



Şəkil 2. *2008-2018-ci illərdə dünya üzrə quraşdırılmış günəş enerjisinin inkişaf dinamikası*

Qrafikdən göründüyü kimi, Günəş enerjisi üzrə qoyuluş gücü 2017-ci ilə nisbətən 25% artaraq 505 QVt-a çatıb. 2018-ci il ərzində 100 QVt yeni güc quraşdırılıb. Günəş enerjisi hesabına elektrik enerjisi istehsalı texnologiyaları içində iş prinsipi fotoeffkt hadisəsinə əsaslanan fotovoltaik (PV) texnologiyası ən sürətli inkişaf edən texnologiyadır. Bu texnologiya üzrə 2018-ci ildə 10 ölkədə 1 QVt-dan artıq güc istifadəyə verilib [9].

Öz növbəsində dənizçilik sektoru nümayəndələri və tədqiqatçılar, beynəlxalq konvensiyalardan irəli gələn öhdəlikləri yerinə yetirmək, artan ətraf mühit həssaslığına qarşı daha təmiz enerji mənbələrinə yönəlmək və yüksələn enerji xərcləri səbəbindən daha ucuz enerji mənbələrindən istifadə etmək üçün gəmilərdə alternativ enerji sistemlərinin istifadəsi məqsədi ilə çalışmalara başlamışdılar. Tədqiqatçılar, elektrik enerjisi istifadəsində səmərəliliyi artırmaq üçün günəş enerjisi, külək enerjisi və qurudan enerji təchizatı kimi alternativ enerji sistemlərinin gəmilərdə istifadəsinə diqqət yetirirlər. Ədəbiyyatdakı bəzi çalısmalara nəzər yetirdiktə, gəmilərdə alternatif enerji sistemlərinin tətbiqinə dair çalışmaların texnik, ətraf mühit və iqtisadi tərəfdən baxıldığı görülməktədir. Xüsusilə ticarət fəaliyyətlərini həyata keçirən və alternativ enerji sistemlərinə sahib gəmilərlə əlaqəli nümunə tətbiqetmələr təqdim olunur. Bundan əlavə, yeni nəsil gəmi dizaynlarına dair layihələr haqqında məlumat verərək dənizçilik sahəsindəki inkişaflara diqqət çəkilmişdir [10].

Gəmilərdə günəş enerjisinin icrası. Yenilənə bilən enerji sistemlərinin icrası, günəş enerjisindən elektrik istehsalı PV panelləri ilə həyata keçirilir. Günümüzdə, enerji ehtiyacı az olan

gəmilərdə yenilənə bilən enerji resurslarının istifadəsinə rast gəlinməklə yanaşı, artıq ticari fəaliyyət göstərən gəmilərdə də yenilənə bilən enerji mənbələrindən istifadə edildiyi görülməktədir.

2008 -ci ildə neft qiymətlərindəki artım səbəbiylə yenilənə bilən enerji sistemlərinə sahib gəmi anlayışlarına maraq daha da artmışdır. Bunun nəticəsində, Hong Kong Jokey Klubu kommersiya fəaliyyətlərində istifadə etmək məqsədi ilə OCIUS firmasına günəş enerji sisteminə malik 4 ədəd bərə sifariş etmişdir.

Hong Kong Jokey Klubu üçün inşa edilmiş Solar Golf, Solar Birdie, Solar Eagle və Solar Albatross adlı gəmilərin mövcud bərə ilə müqayisədə yanacaq istehlakında 50% -ə qədər qənaət edəcəyi və illik əməliyyat xərclərini təxminən 2,5 milyon Hong Kong dolları azaltacağı ifadə edildilmişdir [11, 12]



Şəkil 3. *"Solar Albatross" gəmisinin günəş enerjisi icrası*


"M/V Auriga Leader" adlı yük gəmisi isə günəş enerjisi tətbiqi ilə diqqəti özunə cəlb etməyə müvəffəq olmuşdur. 2008-ci ildə inşa edilən, təxminən 200m uzunluğa, 32m genişliyə və 60213 groston həcimə malik gəmi qismən günəş enerjisi ilə işləyən ilk yük gəmisi ünvanını almışdır. Gəmiyə quraşdırılmış 328 ədəd FV panel vasitəsi ilə təxminən 40 kW güc əldə edilmişdir. FV sisteminin ümumi dəyəri 1,68 milyon dollar olmuşdur. Günəş enerjisi sistemi ilə, gəmidəki enerji ehtiyyacının təxminən 10% -i ödənilə bilmişdir.



Şəkil 4. *"M / V Auriga Leader" gəmisinin günəş enerjisi icrası*

Həmçinin, FV panel tətbiqi ilə generatorlara sərf olunan yanacağa 0,5 ilə 2% arasında qənaət edildiyi təxmin edilmişdir. Yanacaq istehlakından illik 13 ton və CO2 emissiyasından 40 ton azalma əldə olunduğu bildirilmişdir. Hazırda 6400 avtomobil tutumu olan gəmi öz ticarət fəaliyyətini davam etdirir (Businessgreen, 2018; GloMEEP, 2018). "M/V Auriga Leader" gəmisi, yük daşıyan dəniz nəqliyyat vasitələrinin də ənənəvi gəmi güc təchizatı sistemlərinə əlavə olaraq alternativ enerji mənbələrindən istifadə edə biləcəyini və kommersiya fəaliyyətinə davam edə biləcəyini göstərməsi baxımından vacib bir nümunədir.

"M/S Turanor PlanetSolar" adlı bərə isə yalnız FV panelinin tətbiqi ilə işləyən və dünyanı gəzən ilk dəniz gəmisi olaraq qeydə alınmışdır. Uzunluğu 30m və eni 16m olan qayığın 512 m^2 -lik bölümü 809 ədəd FV paneli ilə örtülmüşdür. FV panelləri ümumilikdə 93kVt gücə malikdir. İstehsal edilmiş artıq enerji bərə korpusuna yerləşdirilmiş litium-ion batareyalarında saxlanılır. Bu layihə, gəmilərdə bərpa olunan enerji mənbələrindən istifadə istiqamətində bu sahəni canlandıran mühüm addımlardan biri olmuşdur.



Şəkil 5. *"M/S Turanor PlanetSolar" gəmisində günəş enerjisinin tətbiqi*

2010-cu ildə Almaniyadakı Knierim tersanəsində tikintisi başa çatdırılmış gəminin dəyəri təxminən 12,5 Milyon Avrodur. Qayığın maksimum sürəti 14 knot çatır və 50 sərnişin daşıya bilir [13]. Bu konsepsiya (anlayış), dəniz nəqliyyatının gələcəkdə sıfır yanacaq və sıfır emissiya (tullantı) ilə idarə oluna biləcəyini göstərən vacib bir araşdırmadır. Gəminin ilkin investisiya xərclərinin azaldılması, onun istifadə sahəsinin genişləndirilməsi və daşıma qabiliyyətinin artırılması üzrə aparılacaq akademik və sahə çalışmaları sayəsində gəmi və dəniz texnologiyasında əhəmiyyətli nailiyyətlər əldə ediləcəkdir.

Bu cür təcrübələr diqqətə alındığında, dənizçilik sektorunun gəmilərdə alternativ enerji mənbələrinin istifadəsinə dair istəyin olduğu görülməktədir. Xüsusilə, ticarət fəaliyyətlərini davam etdirən gəmilərin alternatif enerji mənbələrindən istifadə etməsi, gəmilərdən qaynaqlanan ətraf mühitə mənfi təsirləri azaldacaq və dəniz sektorunun dayanıqlılığına əhəmiyyətli dərəcədə töhfə verəcəkdir.

Qeyd edilən məlumatlardan görünür ki, bu sahədə çalışan alimlər xüsusilə günəş külək və digər təbii enerji mənbələrindən istifadə etməklə təbiət qarşısında insanlıq borcunu yerinə yetirərək, ekoloji baxımdan ən səmərəli, alternativ yolu tətbiq edərək dənizçilik sistemini bu sahədə inkişaf etdirməyə çalışırlar. Alternativ enerji sisteminin gəmilərdə tətbiqi zamanı müşahidə edilmişdir ki, əldə edilmiş enerjinin saxlanması üçün öncədən gəmiyə yerləşdirilmiş batareyalar şəbəkədən doldurulur və istehsal edilən enerji, istifadə edilməsi nəzərdə tutulan avadanlıqlar kifayət edəcək qədər potensiala

malik deyildir. Odur ki, hazırda bu sistemin gəmilərdə tətbiqinin dizel yanacağı ilə birgə istifadə edilməsi məqsədəuyğun hesab edilmişdir.

Alimlər tədqiqatlarını və sınaqları ilk olaraq qısa səfərlər edən kiçik təchizat gəmilərində aparmışlar. Tədqiqatlar zamanı məlum oda olmuşdur ki, sistem gəmilərə tətbiq edildikdən sonra sistemin gəmidə daimi olmasını təmin etmək üçün şirkətlər öz gəmilərində texniki və logistik tələblərida tam şəkildə təmin etməyi bacarmalı və bu sahədə əvvəlki sistemə nəzərən köklü surətdə dəyişikliklər etməlidirlər.

Nəzərdə tutulan nəticənin əldə edilməsini müşahidə etmək məqsədi ilə 2018-ci il tarixində müxtəlif təyinatlı 4 gəmidə (təlim, təchizat, dalğıc, hidroqrafiq tədqiqat) tədqiqat işləri aparılmağa başlanıldı. 1-ci cədvələ nəzər yetirdikdə görmək olar ki, tədqiqat işi aparılan gəmidə və gəmi tipində əldə edilməsi planlaşdırılmış nəticə hansı il üçün nəzərdə tutulmuşdur. Eyni zamanda 2-ci cədvəldə günəş enerjisi, dizel-batareya hibrid sisteminin tətbiq edilmiş hidroqrafik tədqiqat gəmisinin əsas parametrləri qeyd edilmişdir [14].

Cədvəl 1

2018-ci il tarixində günəş enerjisi, dizel-batareya hibrid sistemi tətbiq edilmiş müxtəlif təyinatlı 4 gəmi və atmosferə buraxılan CO_2, azot və digər mühərrik emissiyaların azalmasında müsbət nəticə verməsi nəzərdə tutulan tarixlər


Gəminin tipi	***Gəminin adı***	***Planlaşdırılmış tarix***
Təlim gəmisi	M/V Kinsbergen	2025
Dalğıc gəmisi	M/V Mercuur	2026
Təchizat gəmisi	M/V Pelikaan	2030
Hidroqrafiq tədqiqat gəmisi	M/V Luymes and Snellius	2033

Cədvəl 2

Günəş enerjisi, dizel-batareya hibrid sistemi tətbiq edilmiş hidroqrafik tədqiqat gəmisinin əsas parametrləri

Parametr	***Miqdarı (ölçüsü)***	***Azaldılmış diapazon üçün miqdar***
Tranzit sürət	12 uz	
Maksimum sürət	13 uz	
Tranzit diapazonunun sürəti	12000 nm	5000nm
Saxlanılan enerji	3750 MVt	1500 MVt
Əsas və köməkçi sistemlər	350kVt	

Beləliklə, adları qeyd edilən gəmilərə tətbiq edilmiş günəş enerjisi, dizel-batareya hibrid sistemində istifadə edilmiş elektrik stansiyasının sxematik quruluşu ilə tanış olaq. Hidroqrafik tədqiqat gəmilərinin elektrik stansiyası F-76 dəniz dizel yağı (MDO) ilə işləyən dizel generatorlarından və yanma enerjisi tədarükü olan elektrik mühərrikindən ibarətdir. 1-ci sxematik şəkildən göründüyü kimi əsas mühərrikə paralel olaraq alternativ enerji mənbələrindən qidalanan, yanacağa qənaət edən və eyni zamanda atmosfer çirklənməsinin qarşısını alan hibrid təkan verici sistemə inteqrasiya edilmiş güc mənbəyi (batareya) vardır. Sistemin üstün cəhəti alternativ enerjidən istifadə edən mühərrikə genən enerji mənbəyinin istənilən vaxt dəyişdirilə bilməsidir. Beləki, mühərrik lazım gəldikdə dizel yanacağından əldə edilən enerjidən, lazım gəldikdə isə digər alternativ enerji mənbələrindən qidalanmaq funqsiyasına malikdir. Göründüyü kimi, alimlər mürəkkəb dinamik effektləri özündə birləşdirən yeni model günəş enerjisi, dizel-batareya hibrid sistemində işləyən mühərrikin effektivlik dərəcəsini yoxlayaraq nəticə almağa çalışırlar [11].



Şəkil 6. *Günəş və ənənəvi (hibrit) enerjiyə malik BPŞ –nin birxətli sxemi*
Q_1-generatorun seksiya avtomat açarı, Q_2- günəş enerjisinin seksiya avtomat açarı,
Q_3 – BPŞ-də şin ayırıcı avtomat açar

Şəkil 6–da Günəş və ənənəvi (hibrit) enerjiyə malik baş paylayıcı şitin (BPŞ –nin) birxətli sxemi qurulmuşdur. Burada Q_1 avtomat açarı vasitəsi ilə dizel generatorun elektrik enerjisi BPŞ–nin sağ seksiyalarında mövcut olan işlədicilərə, Q_2 avtomat açarı vasitəsi ilə isə günəş panellərindən alınan elektrik enerjisini BPŞ –nin sol seksiyalarında mövcut olan işlədicilərə elektrik enerjisi vermək üçün istifadə edilir. Normal vəziyyətdə BPŞ –də, Q_3 şin ayırıcı avtomat açarı açıq olur. Dizel generatorda yaxud günəş enerjisində hər hansı qəza halları baş verərsə Q_3 - şin ayırıcı avtomat açarını qapamaqla mövcut enerjini BPŞ nin bütün işlədicilərinə ötürmək mümkün olur.

Nəticə. Beləliklə, alternativ enerji sistemlərinin ticarət gəmiçiliklərində də tətbiq potensialının olması müəyyən misallarla araşdırılmışdır. Atmosfer çirklənməsinin qarşısının alınması məqsədi ilə dövlətlər tərəfindən bağlanmış beynəlxalq müqavilələr nəticəsində gəmiləçilik təşkilatlarına tətbiq edilən məhdudiyyətlərdən də göründüyü kimi, bu tip layihə və konsepsiyalar artaraq gələcək illərdə daha da qabarıq formada özünü biruzə verəcəkdir. Gəmilərin hərəkətvericilərində istifadə edilən güc mənbələrinin bir hissəsini qarşılaya biləcək günəş enerjisi, dizel-batareya hibrid sistemi ilə bağlı görülmüş işlərdən, həyata keçirilmiş layihələrdən və həyata keçirilməsi planlaşdırılan layihələrdən aydın görünürki, sıfır emissiyalı təmamilə bərpa olunan enerji mənbələri ilə işləyən nəqliyyat gəmiləri konsepsiyası gələcəkdə tam şəkildə reallığa çevriləcəkdir və öz yerini tutacaqdır. Gəmiçilik siferasında texnologiyanın sürətli inkişafını nəzərə alsaq respublikamızda bu sahədə araşdırmalar və tədqiqat işləri dahada dərinləşsə, əldə edilən nəticələrə görə inkişafın növbəti mərhələlərində bu sahədə tədqiqat aparan ölkələrlə qarşılıqlı əməkdaşlıq şəraitində qarşıya qoyulan məqsədlərə nail olmaq mümkündür.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin kiçik həcmli mövcud gəmilərində kiçik konstruksiya dəyişikliyi etməklə, təklif edilən hibrid enerji təchizatlı BPŞ-dən ibarət stansiyaları qurmaq olar ki, bununla da sınaq məqsədi ilə ekoloji təmiz günəş enerjisindən qismən istifadəni təmin etmiş olarıq.

Ədəbiyyat

1. https://az.wikipedia.org/wiki/G%C3%BCn%C9%99%C5%9F_enerjisi
2. Samosir, D.H., Markert, M. and Busse, W. (2017). The technical and business analysis of using shore power connection in the port of Hamburg. Jurnal Teknik ITS, 5 (2).
3. IMO MEPC 72, 2018. Initial strategy on greenhouse gas emissions reduction for ships. Tech. rep., International Maritime Organisation (IMO), April.

4. MARPOL 73/78 Санкт–Петербург, ЗАО «ЦНИИМФ» - 2008
5. Yiğit, K., Acarkan, B. (2018). "The Importance of Ships in the Next-Generation Electric Power Systems" Book Chapter in Exergetic, Energetic and Environmental Dimensions, 167-178. London: Academic Press.
6. Chen, L., Yip, T.L. and Mou, J., (2018). Provision of emission control area and the ımpact on shipping route choice and ship emissions. Transportation Research Part D: Transport and Environment, 58, 280- 291.
7. https://www.renovablesverdes.com/az/g%C3%BCn%C9%99%C5%9F-panell%C9%99rinec%C9%99-i%C5%9Fl%C9%99yir%3F/
8. http://plusiminusi.ru/plyusy-i-minusy-solnechnoj-energetiki/
9. https://minenergy.gov.az/uploads/energetika/alternativ/BOEM.pdf
10. Sultanov E.F., İsmayılov S.S. "Gəmilərdə alternativ enerji mənbələrindən istifadə imkanlarının araşdırılması"/ ADDA Elmi əsərlər №2, Bak; 2021, səh. 151-157.
11. RINA, Technical Meeting, https://www.rina.org.uk/res/Tech%20Meeting%201%20August%202018.pdf [Online]
12. HKJC, Solar Ferry and Solar Golf Carts Go into Operation at Kau Sai Chau Public Golf Course Demonstration Components of HKJC's Environment Project, http://www.hkjc.com/english/corporate/racing_news_item.asp?in_file=/english/news/news_20100 62525631.htm [Online] [Giriş 13.03.2021]
13. Dailymail, The World's Largest SOLAR Boat. http://www.dailymail.co.uk/sciencetech/article-2405853/The-worlds-largest-SOLAR-boat-powered-809-panels-Eco-friendly-vessel-breaks-world-record-crossing-Atlantic-just-22-days--completely-silent.html [Online] [Giriş02.02.2021]
14. Geertsma, R. D., Negenborn, R. R., Visser, K., Hopman, J. J., 2017b. Pitch control for ships with mechanical and hybrid propulsion: Modelling, validation and performance quantification. In: Applied Energy. Vol. 206. pp. 1609–1631.

Məqalə qəbul olunub: 20.10.23
Tövsiyə edib: prof. Qafarov A.M.

GƏMİÇİLİKDƏ TƏBİƏT ELMLƏRİNİN PROBLEMLƏRİ

UOT 001:006.91:621.317

KÜTLƏNİN ÖLÇÜLMƏSİ VƏ FUNDAMENTAL FİZİKİ SABİTLƏR

Həsənov Y.N.

"Azərbaycan Dövlət Dəniz Akademiyası"PHŞ
AZ1000, Bakı şəh., Z.Əliyev küç., 18
E-mail:yusif_nadiroglu@mail.ru

***Xülasə**. Fundamental qarşılıqlı təsirlər və instrumental ölçmələr nəzəriyyələrinin əhatə dairəsi çox böyük zaman və məkan miqyasındadır. Etalonların yeni tərifl ərinin tətbiqi dövründə (onun praktik reallaşdırılması ilə bağlı əlavə izahatlarla) fundamental fiziki nəzəriyyələr, onların sabitləri və ümumilikdə metrologiya arasındakı əlaqəyə, eləcə də vahidlər sisteminin qurulmasına maraq, xüsusilə xeyli artmışdır. Hazırda bütün ölkələrdə bu istiqamətdə işlər çox intensiv aparılır. Bu işlərdə metrologiya ilə fundamental fiziki sabitlər arasında əlaqənin müxtəlif aspektləri araşdırılır:FFS (fundamental fiziki sabitlər) istifadə edərək əsas SI vahidlərinin müəyyən edilməsinin mümkünlüyü, tələb olunan FFS dəstinin seçimi, FFS-nin mümkün fəza dəyişiklikləri (variyasiyaları) zamanla onların mümkün qeyri-sabitliyi və FFS-nin mümkün variyasiyalarının vahidlər sisteminə təsiri və s. Buna görə də təbiətin əsas qanunlarına və fundamental fiziki sabitlərə əsaslanan bütün fiziki kəmiyyətlərin etalonlarını hazırlamaq və istifadə etmək lazımdır.*

***Аннотация.** В период применения новых определений эталонов (с дополнительными пояснениями, касающимися его практической реализации) интерес к связи между фундаментальными физическими теориями, их константами и метрологией в целом, а также к установлению системы единиц, в частности, значительно увеличилось. В настоящее время работа в этом направлении ведется очень интенсивно во всех странах. В этих работах исследуются различные аспекты взаимосвязи между метрологией и фундаментальными физическими константами: возможность определения основных единиц СИ с помощью ФФС (фундаментальные физические константы), выбор необходимого набора ФФС, возможные пространственные изменения (вариации) FFS, их возможная нестабильность во времени и влияние возможных вариаций FFS на систему единиц и др.*

***Abstract.** During the period of application of new definitions of standards (with additional explanations regarding its practical implementation), the interest in the relationship between fundamental physical theories, their constants and metrology in general, as well as the establishment of the system of units, in particular, has increased significantly. At present, work in this direction is being carried out very intensively in all countries. In these works, various aspects of the relationship between metrology and fundamental physical constants are investigated: the possibility of determining the basic SI units using FFS (fundamental physical constants), the choice of the required set of FFS, possible spatial changes (variations) of FFS, their possible instability over time and the effect of possible variations of FFS on the system of units, etc.*

***Açar sözlər**: metrologiya, etalon, fundamental fiziki sabitlər, nisbilik nəzəriyyəsi*

***Ключевые слова:** метрология, эталон, фундаментальные физические константы, теория относительности*

***Key words:** metrology, standart, fundamental physical constants, theory of relativity*

Giriş. 1889-cu ildə Çəkilər və Ölçülər üzrə I Baş Konfransda platin-iridium ərintisindən (90% Pt, 10% Ir) hazırlanmış bir kiloqram silindr formalı prototip kütlə vahidi kimi təsdiq edildi. Həmin

kiloqramdan 43 nüsxə hazırlanmış və püşkatma yolu ilə paylanmışdı. Beynəlxalq Vahidlər Sisteminin (SI) qəbul edildiyi 1960-cı ildə XI CGPM-də kütlə vahidi kimi kiloqram əsas SI vahidlərindən birinə çevrildi.

Məlumdur ki, cismin kütləsi fiziki kəmiyyət kimi Nyuton tərəfindən təqdim edilmişdir və bir tərəfdən cismin xarici qüvvələrin təsirinə reaksiyasını (ətalət kütləsi), digər tərəfdən isə cismin digər cisimlərlə qravitasiya qarşılıqlı təsirinin (qravitasiya kütləsi) kəmiyyətini xarakterizə edir. Yüksək dəqiqliklə (10^{13} qədər dəqiqliklə) eksperimental olaraq təsdiqlənmiş ekvivalentlik prinsipinə əsasən ətalət kütləsi və qravitasiya kütləsi bir-birinə mütənasibdir. Kütlənin ən mürəkkəb fiziki kəmiyyət olduğu ortaya çıxdı, çünki hər hansı bir cismin kütləsinin meydana gəlməsi mexanizmi, həmçinin kütlənin təbiəti, hətta fundamental qarşılıqlı təsirlərin müasir nəzəriyyələri çərçivəsində də sona qədər qeyri-müəyyən olaraq qalır. Məsələn, hiqqs bozonu hələ kəşf edilməmişdir, onunla qarşılıqlı əlaqədə, Standart Modeldə proqnozlaşdırıldığı kimi, əsas hissəciklərin kütlələri yaranır. Hazırda mövcud kütlə etalonu vahidi, bir sıra çatışmazlıqlara malikdir. Kiloqramın platin-iridium (Pt-Ir) prototipi zədələnə və ya hətta məhv edilə bilər, həmçinin çirklənməyə və aşınmaya məruz qalır. Orijinal yalnız bir yerdə mövcuddur, bu da onun ölçüsünü işçi ölçmə vasitələrinə dəqiq ötürməyi çətinləşdirir. Pt-Ir prototipinin hazırlandığı ərintinin yüksək sıxlığı, praktikada kiloqram ölçüsünün havada müqayisəli ötürülməsi üçün sonrakı prosedurlarda istifadə olunan ikinci polad kiloqram etalonları ilə və ya bəzi hallarda ölçmələrin aparılması dəqiqliyinin azalmasına səbəb olur.

Bununla birlikdə, ən əhəmiyyətli çatışmazlıqlar kiloqramın ölçüsünü törəmə vahidlərə, xüsusən də elektrik vahidlərinə ötürmənin aşağı dəqiqliyi, həm də hər bir etalonun və bütün platin-iridium etalonları sisteminin nəzarətsiz zaman sürüşməsidir. Həqiqətən də, bu etalonların bir-biri ilə tutuşdurmaları nəticəsində yaranan qeyri-müəyyənliklər bu etalonların stabilliyinə sübut ola bilməz. Bütün platin-iridium etalonlarının kütlələri təxminən eyni sürətlə dəyişə bilər. Bütün bu etalonlar eyni vaxtda eyni ərintidən hazırlandığından, onların eyni vaxt sürüşməsi olduqca mümkündür. Müxtəlif müəlliflər tərəfindən müxtəlif metodikalardan istifadə etməklə hazırlanmış fundamental fiziki sabitlərin etalonlarının müxtəlif nüsxələrinə nisbətən kiloqram ölçüsünün dəyişməsinin təxminləri 100 ildə kiloqramın $5x10^{-8}$ kq, 50 il ərzində 1 mq-a qədər dəyişməsinin qiymətini verir. Qeyri-bircins qravitasiya sahəsində mövcud kiloqram etalonunun ölçüsünün ötürülməsi bir sıra prinsipial və metodik çətinliklərlə müşayiət olunur. Beləliklə, Pt-Ir istifadə edərək kütlə vahidinin etalonunun təyin edilməsi - kiloqramın prototipi bunu edir, fundamental metrologiyanın müasir səviyyəsinə uyğun gəlmir, buna görə də hazırda onun inkişafının prioritet istiqaməti müəyyən fiziki sabitlərin qiymətlərinə əsaslanmalı olan kütlə vahidinin əsaslı şəkildə, müxtəlif dəyişikliklərə münasibətdə yüksək dəqiqliklə uyğunlaşan yeni etalonuna keçiddir.Kütlə vahidinin - kiloqramın yeni tərifinin, yəni: Plank sabitinin h və ya Avogadro N_A sabitlərinin qiymətlərindən istifadə etməklə 2007-ci ilin noyabrında Çəkilər və Ölçülər üzrə XXIII Baş Konfransında baxılan iki əsas variantı var.

Əsas hissə. "Atom kiloqramı" adlanan birinci variant aşağıdakı kimi tərtib edilmişdir: kiloqram kütlə vahidi, $5{,}01845166x10^{25}$ sərbəst karbon 12 atomunun sükunət və əsas (kvant) vəziyyətində dəqiq kütləsidir. Bununla, karbon atomunun kütləsi, həmçinin molun cari tərifi saxlanılarsa, Avogadro sabiti, NA təyin edilir. Bu tərif bu gün Avoqadro sabitinin qiymətini ölçmək üçün istifadə edilə bilən hər hansı bir təcrübə ilə həyata keçiriləcəkdir, məsələn, h və N_A arasındakı əlaqəni nəzərə alaraq kristal silisium kürəsi təcrübəsi və ya vatt tərəzisi təcrübəsindən istifadə edərək.

"Elektrik kiloqramı" adlanan ikinci variant aşağıdakı kimi tərtib edilmişdir. Kiloqram elə kütlə vahididir ki, Plank sabitinin qiyməti dəqiq $6{,}6260693x10^{-34}$ kqm^2s^{-1}-ə bərabər olsun. Bu düstur Plank sabitinin h qiymətini təyin edir. Metr və saniyə artıq müəyyən edildiyi üçün h-nin ədədi qiymətinin təyin edilməsi kiloqramı müəyyən edir. Bu təyinat h-nin qiymətini müəyyən etmək üçün hazırda istifadə edilən hər hansı bir təcrübə ilə əldə edilə bilər, məsələn, vatt tərəzisi və ya h və N_A arasındakı əlaqəni nəzərə alaraq N_A-nı ölçmək üçün silikon kristalının sıxlığı üzrə ekspermentlə. Plank və Avoqadro sabitləri, təəssüf ki, bu məqsədlə indiyə qədər kifayət qədər dəqiqliklə müəyyən edilməmişdir. N_A üçün qiymətin nisbi standart qeyri-müəyyənliyi $5•10^{-8}$-dir, eyni qeyri-müəyyənlik

h-ın təyinində də mövcuddur, məqsəd isə Plank sabitinin və ya Avoqadro sabitinin təyinində $2•10^{-8}$ nisbi standart qeyri-müəyyənliyə nail olmaqdır. Qeyd edək ki, kiloqramın ölçüsünün ötürülməsinin əldə edilmiş maksimum dəqiqliyi daxilində kiloqramla üst-üstə düşmə şərtindən imtina etmək və elektrik vahidlərini, məsələn, volt və kulon kimi əsas götürərək yeni kiloqramı törəmə vahid kimi təqdim etmək təklifləri var. Bununla belə, bu imkan nəzərə alınmayacaq, çünki bu, fiziki kəmiyyətlərin ölçülməsi üçün mövcud sistemin, xüsusən də yüksək dəqiqlikli kütlə ölçmələri sahəsində əsassız olaraq köklü şəkildə yenidən qurulmasına səbəb olacaqdır. Burada kiloqramın tərifinin versiyasını - atom kütləsi və Avogadro ədədi ("atom kiloqramı") vasitəsilə ətraflı təhlil edəcəyik. Avogadro ədədindən və atom kütlə vahidindən istifadə kiloqramın prototipini əvəz etməyin ən təbii yollarından biridir. Həqiqətən, istənilən Y maddəsi üçün mol tərifindən molyar kütlə tapılır:

$$M(Y)=N_A m(Y), \quad (1)$$

burada

$$m(Y) = A_r(Y) m_u , \quad (1.1)$$

Y maddəsinin atomunun kiloqramla çəkisi, Ar (Y)- Y maddəsinin nisbi atom kütləsi, m_u - k.a.v. (kütlənin atom vahidi) (k.a.v. - ^{12}C karbon izotopunun kütləsinin 1/12 hissəsi). (1) və (1.1) istifadə edərək bunu yaza bilərik:

$$N_A m_u = M_u , \quad (1.2)$$

burada $M_u = 10^{-3}$ kq mol - molyar kütlə sabiti, həmçinin

$$1 \text{ kq} = 10^3 \{N_A\} m_u , \quad (1.3)$$

$\{N_A\}$ Avoqadro sabitinin N_A (Avoqadro ədədi) ədədi qiymətidir. Yuxarıda qeyd edildiyi kimi, kiloqram etalonunun yenidən müəyyən edilməsi prosedurunu həyata keçirmək üçün N_A-nı ən azı $u_r = 2•10^{-8}$ nisbi standart qeyri-müəyyənliyi ilə müəyyən etmək lazımdır. Avoqadro ədədini təyin etmək üçün əsas müasir üsullardan biri XRCD üsuludur (kristalların sıxlığını təyin etmək üçün rentgenoqrafik metod), rentgen şüalarından istifadə edərək kristal qəfəsin parametrlərinin interferometrik tədqiqi nəticələrinin toplusundan istifadə edir. Hazırda XRCD metodu ilə bir neçə səbəbə görə tələb olunan nisbi qeyri-müəyyənliklə nümunədəki hissəciklərin sayını müəyyən etmək mümkün deyil. Birincisi, baxılan metodla kremni (silisium) atomlarının hesablanması kremnidəki qarışıqların sayı və növləri, həmçinin qarışıqların kütlə və həcmə təsiri haqqında məlumatın mövcudluğunu nəzərdə tutur. Bu halda, kristal qəfəsdə müxtəlif növ qüsurların mümkün mövcudluğunu nəzərə almaq lazımdır. İkincisi, silisiumun molyar kütləsini ölçmək üçün nümunənin izotopik tərkibini dəqiq ölçmək lazımdır. M(Si) silisium nümunəsinin molyar kütləsi onun izotoplarından birinin molyar kütləsi ilə ifadə edilə bilər: $M(Si)=(^{28}Si)(1+£)$, burada £-in qiyməti digər izotopların tərkibindən asılıdır. £-in qiymətini ölçmək üçün nümunəni SiF_4 ionlarının qazşəkilli qarışığına çevirmək lazımdır, izotop tərkibi qaz kütləsi spektrometrindən istifadə etməklə müəyyən edilir. Silikon nümunəsi yetişdirərkən görülən ehtiyat tədbirlərinə baxmayaraq, onun tərkibində nazik amorf silikon, silikon dioksid və qarışıqlar ola bilər. Sadalanan nümunə qüsurlarının hamısı onun makroskopik sıxlığının təyin edilməsinin dəqiqliyinə təsir edir və ona gətirib çıxarır ki, hazırda 10^{-8} nisbi qeyri-müəyyənliklə nümunədəki hissəciklərin sayını müəyyən etmək mümkün deyil. Buna baxmayaraq, yuxarıda qeyd olunan çətinliklər yaxın gələcəkdə aradan qaldırıla bilər və yeni kütlə etalonunun tətbiqi üçün ən az sayda qüsuru olan ("silikon yolu") ifratyüksək təmizlikli silikon kristallarından istifadə etmək təklif olunur. Avropa İttifaqında SİMUS (Silicon for Mass Unit and Standard) layihəsi həyata keçirilir ki, bu layihə çərçivəsində, xüsusən də silisium kristalları müxtəlif

şəraitdə yetişdirilir. Ən qabaqcıl nümunələrin yaradılmasında əldə edilən nəticələrdən bəziləri dəqiq elektromaqnit ölçmələri üzrə konfranslarda təqdim edilmişdir: CPEM 2002 və CPEM 2004 (Conference for Precise Electromagnetic Measurements-Dəqiq Elektromaqnit Ölçmələr Konfransı). Çəkilər və Ölçülər üzrə XXII Baş Konfransda (Paris, 2003) Avogadro sabiti N_A üzrə İşçi Qrupunun verdiyi məlumata görə, N_A–nın nisbi standart qeyri-müəyyənliyi 10^{-7} səviyyəsində idi. Bununla belə, 99,99% zənginləşdirilmiş Si izotopunun tətbiqi nisbi standart qeyri-müəyyənliyi $5x10^{-8}$-ə qədər azaltmağa imkan verdi. 2011-ci ildə Avogadro ədədi tələb olunan ümumi nisbi standart qeyri-müəyyənliklə $2x10^{-8}$ ilə müəyyən edilmişdir. Hazırda N_A və h qiymətləri təqribən $5x10^{-8}$ qeyri-müəyyənliklə götürülür.

1. L. von Ahn, M. Blum, N. Hopper, and J. Langford. *EUROCRYPT, volume 2656 of Lecture Notes in Computer Science, page 294--311. Springer-Verlag,* (*2003*)
2. https://static.hlt.bme.hu/semantics/external/pages/%C3%A1ltal%C3%A1nos_mesters%C3%A9ges_intelligencia/en.wikipedia.org/wiki/CAPTCHA.html
3. Bursztein, Elie; Aigrain, Johnathan; Mosciki, Angelika; Michell, John C. (August 2014). The End is Nigh: Generic Solving of Text-based CAPTCHAs. WoOT 2014: Usenix Workshop on Offensive Security.
4. https://www.2captcha.com.

Məqalə qəbul olunub: 20.10.23
Tövsiyə edib: prof. Həsənov V.H.

UOT 007.5

BEŞ SƏRBƏSTLİK DƏRƏCƏSİNƏ MALİK ROBOT QOLUNUN MODELLƏŞDİRİLMƏSİ VƏ MATLAB MÜHİTİNDƏ İDARƏ EDİLMƏSİ

Məmmədova K.A., Nəsibzadə Z., Əliyeva A.A.

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
AZ1010, Bakı şəh., Azadlıq pr. 20

Xülasə. *Bu məqalədə insan qolu anatomiyasına əsaslanan insanabənzər robot qolunun modelləşdirilməsi və simulyasiyası təqdim edilir. Bu işdə beş sərbəstlik dərəcəsi olan insanabənzər robot qolu kinematik və dinamik baxımından araşdırılmışdı. Robot qolunun dinamik tənliklərini yazmaq və hər bir oynağın dinamik davranışını müşahidə etmək üçün Matlab/Simulink proqramından istifadə edilmişdir. Robot idarəetmə qolunun modelləşdirilməsində məqsəd robotun son nöqtəsinin verilmiş trayektoriyanı ən uyğun şəkildə izləməsini təmin etməkdir. Bunun üçün sistemin riyazi modeli qurulmuş və sistemin uyğun idarəedici modeli layihələndirilmişdir. Müasir robot qolunun idarəetmə sistemlərində tətbiq edilən əsas yanaşma hər bir qolun müstəqil servo mexanizmlər kimi nəzərdən keçirməkdir. Robot qollarını idarə etmək üçün sürətə və fırlanma momentinə nəzarət kimi müxtəlif yanaşmalar üzərində araşdırmalar aparılmışdır. PID tənzimləyici ən çox istifadə edilən əks-əlaqəli idarəetmə problemlərinin öhdəsindən çox yaxşı gəldiyi üçün robot qolunu və hər bir birləşmə*

nöqtəsini idarə etmək üçün PID idarəetmə sistemindən istifadə edilmişdir. Alınmış riyazi tənliklər və PİD idarəetmələri MatlabSimulink mühitinə köçürülmüş və sınaqdan keçirilmişdir.

***Abstract**. This paper presents the modeling and simulation of a humanoid robotic arm based on human arm anatomy. In this study, a humanoid robot arm with five degrees of freedom was investigated in terms of kinematics and dynamics. Matlab/Simulink software was used to write the dynamic equations of the robot arm and observe the dynamic behavior of each joint. The goal of modeling a robot control arm is to ensure that the end point of the robot follows a given trajectory in the most appropriate way. For this, a mathematical model of the system was built and a suitable control model of the system was designed. The main approach used in modern robotic arm control systems is to consider each arm as an independent servo mechanism. Various approaches, such as velocity and torque control, have been investigated to control robotic arms. A PID control system was used to control the robot arm and each joint point, as the PID controller copes very well with the most commonly used feedback control problems. Obtained mathematical equations and PID controls were transferred to MatlabSimulink environment and tested.*

***Аннотация.** В этой статье представлено моделирование гуманоидной роботизированной руки на основе анатомии человеческой руки. В этом исследовании рука гуманоидного робота с пятью степенями свободы была исследована с точки зрения кинематики и динамики. Программное обеспечение Matlab/Simulink использовалось для написания динамических уравнений руки робота и наблюдения за динамическим поведением каждого сустава. Целью моделирования рычага управления роботом является обеспечение того, чтобы конечная точка робота следовала заданной траектории наиболее подходящим образом. Для этого была построена математическая модель системы и спроектирована подходящая модель управления системой. Основной подход, используемый в современных системах управления роботизированной рукой, заключается в рассмотрении каждой руки как независимого сервомеханизма. Для управления роботизированными руками были исследованы различные подходы, такие как управление скоростью и крутящим моментом. Для управления манипулятором робота и каждой точкой соединения использовалась система ПИД-управления, поскольку ПИД-регулятор очень хорошо справляется с наиболее часто используемыми задачами управления с обратной связью. Полученные математические уравнения и ПИД-управления были перенесены в среду MatlabSimulink и протестированы.*

***Açar sözlər:** insanabənzər robot qolu, PID tənzimləyici, PID idarəetmə sistemi, robot qolunun dinamik və kinematik modeli, Robot qolunun Matlab/Simulink blok diaqramı*

***Key words**: humanoid robot arm, PID controller, PID control system, dynamic and kinematic model of robot arm, Matlab/Simulink block diagram of robot arm*

***Ключевые слова**: рука гуманоидного робота, ПИД-регулятор, система ПИД-управления, динамическая и кинематическая модель руки робота, блок-схема руки робота Matlab/Simulink*

Giriş. İnsanabənzər robotlar və onların üzvlərinin dizaynı, istehsalı və idarə edilməsi son illərdə mühüm tədqiqat mövzuları olmuşdur. İnsanlar üçün təhlükə yaradan yerlərdə, çətin şəraitdə və ağır işlərdə ,buna nail olmaq üçün insan qolları və ayaqları ilə oxşar quruluşa malik olan insanabənzər qol və ayaqlar üzərində araşdırmalar sürətlənmişdir. Əvvəllər sənayedə sabit aşağı platformalı manipulyatorlar istifadə olunurdu. Halbuki insanlar ayaqları sayəsində hərəkət edə bilən və oynaq quruluşu sayəsində bir çox hərəkəti asanlıqla yerinə yetirə bilən canlılardır. Sabit platforma manipulyatorlarında bu məhdudiyyətləri aradan qaldırmaq üçün insanabənzər robot dizaynlarına ehtiyac var idi. Bu işdə alt platforması sürünən və yuxarı hissəsi insanın üst bədəninə bənzəyən bir robot platformasına aid qolun dinamikası üzərində dayanılmış və idarəetmə alqoritmi hazırlanmışdır. Ədəbiyyata baxdığımızda çoxlu uğurlu insanabənzər robot dizaynları var. Xüsusilə, insan qolunun hərəkətliliyinə yaxın olduğu üçün 5 və 7 sərbəstlik dərəcəsi ilə insanabənzər robot qolunun dizaynına

xüsusi diqqət yetirilib. Vaseda Universiteti (Yaponiya) tərəfindən Wabian insanabənzər robot və Wendy mobil robotu dizayn işləri aparılmışdır.

Arnold adlı tək qollu mobil insanabənzər robot 1997-ci ildə Ruhr Universiteti tərəfindən hazırlanmışdır. Hermes 1999-cu ildə mobil robot platforması hazırlanmışdır. "DAV" adlı mobil insanabənzər robot 2002-ci ildə Miçiqan Universiteti (ABŞ) tərəfindən hazırlanmışdır. Bu robot dizayn və dəyəri nəzərə alınmaqla hazırlanmışdır [1]. Bu istehsal edilmiş robotun əsas ölçüləri 750(l) x 750 (w) x 1700(h) (mm) təşkil edir. Robot ümumilikdə 43 sərbəstlik dərəcəsinə malikdir. Bunlardan 4-ü bədənin hərəkətini təmin edən təkərlərə, 2-si bədənə, 7-si qollara, 8-i əllərə, 8-i isə başa aiddir. Bundan əlavə, robot bir-birindən müstəqil işləyən iki kameraya malikdir [1]. "Robovie" adlı mobil insanabənzər robot 2002-ci ildə Vakayama Universiteti (Yaponiya) tərəfindən hazırlanmışdır. Üst bədəni insana bənzəyən bu robot insanlarla ünsiyyət qurmaq üçün nəzərdə tutulub. O, eşitmə, görmə və toxunma kimi insan hisslərinin funksiyalarını yerinə yetirmək üçün müxtəlif sensorlara malikdir [2].“YİREN” adlı mobil insanabənzər robot 2005-ci ildə Şenyan Universiteti (Çin) tərəfindən hazırlanmışdır [3]. Mobil humanoid robotun təkərləri qarışıq məkanda hərtərəfli hərəkəti təmin etmək üçün nəzərdə tutulub. Robot ümumilikdə 23 sərbəstlik dərəcəsinə malikdir. Bunlardan 3-ü bədənin hərəkətini təmin edən təkərlərə malikdir (onlardan 2-si sürücü təkər, 1 səyahət təkər), 7 qollara, 1 əl, 2 bel və 2 boyun nahiyəsinə aiddir [3].

Bu məqalədə robot manipulyatorlarının mexanikasını modelləşdirmək üçün metod təqdim edilmişdir. İki keçidli planar robot qolunun modelləşdirilməsi və idarə edilməsi prosedurunun tam təsviri SimMechanics Toolbox-da mexaniki modelin yaradılmasından Matlab/Simulink istifadə edərək simulyasiya edilmişdir. Robot manipulyatorları üçün ən sadə mövqe idarəediçilərindən biri istənilən çəkisi kompensasiyasına malik PID idarəetmədir. Bu metodun tətbiqi bu modeldə yoxlanıldı. Simulyasiyanın nəticələri göstərir ki, SimMechanics robotun mexanikasını modelləşdirmək üçün istifadə edilə bilər və sabit cazibə kompensasiyası üsulu ilə müqayisədə onlayn cazibə kompensasiyası üsulu ilə daha yaxşı performans əldə edilə bilər.

2. Robot qolunun kinematikası. Robot manipulyatorlarının mövqeyinə nəzarət robot idarəetməsində ən sadə məqsəd olmaqla eyni zamanda praktik manipulyatorlarda ən aktual məsələlərdən biridir. Bu nəzarət problemini müalicə etmək üçün bir çox yanaşma tətbiq edilmişdir. Məlumdur ki, sərt robot qolu, cazibə qüvvəsinin əks əlaqə ilə ləğv edilməsi şərti ilə, birgə xətalar üzrə PD nəzarətçi vasitəsilə verilmiş birgə konfiqurasiya ətrafında qlobal miqyasda asimptotik şəkildə sabitləşdirilə bilər. Mütənasib qazanc üzrə mülayim şəraitdə bu sxemi istədiyiniz konfiqurasiyada yalnız sabit çəkisi kompensasiyasını yerinə yetirməklə sadələşdirmək olar [1]. Bu yazı Sciavicco və Siciliano [2] tərəfindən hazırlanmış bir nümunə araşdırmasını təqdim edir, burada qeyri-xətti cazibə kompensasiyası termini mövcud konfiqurasiyada onlayn olaraq qiymətləndirilir. Amma burada biz SimMechanics Toolbox istifadə edərək robot manipulyatorunun mexanikasını modelləşdiririk. SimMechanics-dən robotun mexanikasını modelləşdirmək üçün bir vasitə kimi istifadə modelə əsaslanan idarəetmə alqoritmini yoxlamaq imkanı verir.

Bu işdə beş sərbəstlik dərəcəsi olan insanabənzər robot qolu kinematik və dinamika baxımından araşdırıldı. Beş sərbəstlik dərəcəsi olan insanabənzər robot qolunun bir çox fərqli dizaynı var. Bunlardan ən çox istifadə olunanlar şəkil 1-də verilmişdir [7].


Bu işdə şəkil 1b-dəki qol quruluşu seçilmişdir. Seçilmiş qol quruluşuna uyğun olaraq hər bir üzvün istinad koordinat sistemi və istinad sistemi şəkil 2-də göstərilmişdir.

Şəkil 2-də göstərilən mexanizmdə *θ-lar* (teta) hər birləşmənin bucaq yerdəyişməsini göstərir. İnsanabənzər robot qolumuz beş sərbəstlik dərəcəsinə malik olduğundan, beş fərqli θ bucağı var. *C_m*-lər də əzələlərın ağırlıq mərkəzini göstərir. Hər bir üzv kvadrat kəsikli düzbucaqlı prizma kimi seçilmişdir.


Robot qolunun istinad koordinat sisteminə uyğun olaraq *i* və *i-1* birləşmələri arasında koordinat çevrilməsi homojen transformasiya matrisləri ilə təmsil olunur. Homojen çevrilmə matrisi;

$$ {}^{i-1}_{i}\tau = \begin{bmatrix} c\theta_i & -c\alpha_i s\theta_i & s\alpha_i s\theta_i & \alpha_i c\theta_i \\ s\theta_i & c\alpha_i c\theta_i & -s\alpha_i c\theta_i & \alpha_i s\theta_i \\ 0 & s\alpha_i & c\alpha_i & d_i \\ 0 & 0 & 0 & 1 \end{bmatrix} \qquad (1) $$

şəklində verilmişdir.



Şəkil 1. *Beş sərbəstlik dərəcəsinə malik qolun müxtəlif dizaynları*



Şəkil 2. *Seçilmiş qol strukturu və istinad oxu dəsti*

3. Robot qolunun dinamikası

Robot qolun dinamik modeli robot qolunun dinamik davranışını təyin edən hərəkət tənliklərindən ibarətdir. Bu tənliklərin kompüterlərin köməyi ilə robot idarəetmə dizaynı baxımından böyük rahatlıq təmin edir. Robot qolunun dinamik analizi , sürücü elementləri tərəfindən birləşmələrə tətbiq olunan moment və ya güc böyüklükləri ilə robot qolunun zamana nisbətdə mövqeyi, sürəti və sürətlənməsi arasındakı əlaqəni araşdırmaq deməkdir. Belə bir analiz üçün robot qolunun dinamik davranışını təsvir edən qeyri-xətti diferensial tənliklər toplusu alınmalı və həll edilməlidir.

Robot qolunun dinamik tənliklərini əldə etmək üçün bir çox məlum üsullar mövcuddur. Bunlar Laqranj-Eyler (LE), Rekursiv Laqranj (R-L), Nyuton-Euler (N-E), Ümumiləşdirilmiş D'Alambert (G-D) prinsipi və s. yanaşmalardır. Bu üsullardan ən çox istifadə edilən LE və N-E yanaşmalarıdır [8]. Bu işdə yaxşı planlaşdırılmış struktura malik olan və N-E yanaşmasından daha sadə və sistematik olan L-E yanaşması ilə robot qolun dinamik modeli əldə edilmişdir və aşağıdakı tənliklərdən istifadə edilmişdir [9].

$$ K_i = \frac{1}{2}(m_i v_{c_i}^T + \omega_i^T {}^{c_i}I^i \omega \qquad (2) $$

$$ K = \sum_i^n K_i \qquad (3) $$

$$ U_i = -m_i^0 g^T P_{Ci} + U_{ref} \qquad (4) $$

$$ U = \sum_i^n U_i \qquad (5) $$

$$ L = K - P \qquad (6) $$

Burada, U=Robot qolunun ümumi potensial enerjisi K= Robot qolunun ümumi kinetik enerjisi L= Langrange funksiyasını təyin edir. Eyler-Laqranj tənlikləri ilə əldə edilən dinamik tənlikləri yoxlamaq üçün hər bir üzvə sərbəst düşmə hərəkəti verilir.


Modelləşdirilmiş robot qolunun texniki xüsusiyyətləri aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl

Ağırlıq (kq)	1.9625	6.86875	6.86875
Uzunluq (m)	0.1	0.35	0.35
Eni (m)	0.05	0.05	0.05
Hündürlük (m)	0.05	0.05	0.05


4. MATLAB-dan istifadə etməklə robot qolunun modelləşdirilməsi

Bu bölmədə məqsəd, MATLAB-ın qabaqcıl mühitinin əlavə modulları: SimMechanics və Qrafik İstifadəçi İnterfeysi (GUI) MATLAB-dan istifadə etməklə robot qolunun modelləşdirilməsinin və onun dinamik simulyasiyasının effektiv üsulunun tətbiqini təqdim etməkdir. Robot qolunun dinamik tənliklərini yazmaq və hər bir oynağın dinamik davranışını müşahidə etmək üçün Matlab/Simulink proqramından istifadə edilmişdir. Robot qolunun Matlab/Simulink blok diaqramı şəkil 3-də göstərilmişdir.




Şəkil 3. *Matlab/Simulink blok diaqramı*


Hər bir oynağın sərbəst düşmə hərəkəti nəticəsində əldə edilən birgə mövqe qrafikləri şəkil 4-də verilmişdir.




a) θ_1 qrafiki



b) θ_2 qrafiki



c) θ_3 qrafiki




d) θ_4 qrafiki

Şəkil 4. *Trayektoriyanın planlaşdırılması blok diaqramı*

4. Robot qolunun idarə edilməsi

Robot idarəetmə probleminin məqsədi robotun son nöqtəsinin verilmiş trayektoriyanı ən uyğun şəkildə izləməsini təmin etməkdir. Bunun üçün sistemin riyazi ifadəsi alınmalı və sistem üçün uyğun idarəedici layihələndirilməlidir. Müasir robot qolunun idarəetmə sistemlərində ümumi yanaşma hər bir qolu müstəqil servo mexanizmlər kimi nəzərdən keçirməkdir [10]. Robot qollarını idarə etmək üçün sürətə və fırlanma momentinə nəzarət kimi müxtəlif yanaşmalar üzərində araşdırmalar aparılır. Sənaye mühitlərində PID tənzimləyicisi hələ də ən çox istifadə edilən əks-əlaqə tənzimləyicisidir (şəkil 5).



Şəkil 5. *PID tənzimləyicili idarəetmə sistemi*

Praktiki təcrübə göstərir ki, bu tənzimləyici bir çox prosesə idarəetmə problemlərinin öhdəsindən çox yaxşı gəlir. PID metodunun digər üstünlükləri onun az sayda dizayn parametrlərinə malik olması və performans ölçüləri ilə asanlıqla əlaqələndirilə bilməsidir. Robot qolunu və hər bir birləşmə nöqtəsini idarə etmək üçün PID idarəetmə sistemindən istifadə edilmişdir. Alınmış riyazi tənliklər və PİD idarəetmələri MatlabSimulink mühitinə köçürülmüşdür [6-8].

Burada sistemin çıxışları hər bir birləşmənin θ_1 ,θ_2 , θ_3, θ_4 , θ_5 bucaq yerdəyişməsidir və sistemin girişi bu birləşmələrə tətbiq edilməli olan moment dəyəridir. Robot qolunun hər birləşməsinin mövqeli yerdəyişməsi üçün üçüncü dərəcəli polinomlardan istifadə edilmişdir və hər birləşmənin trayektoriyası aşağıda verilmişdir.

$$\theta(t) = a + b\,t + c\,t^2 + d\,t^3$$

$$\theta_1 \quad 0\text{--}\frac{\pi}{2};$$


$$\theta_2 \quad 0\text{--}\frac{\pi}{4};$$

$$\theta_3 \quad 0\text{--}\frac{\pi}{3};$$

$$\theta_4 \quad 0\text{--}\frac{\pi}{2};$$


$$\theta_5 \quad 0\text{--}\frac{\pi}{6}$$

İstifadə olunan hər birləşmənin orbital əmsalları aşağıdakı başlanğıc və bitmə şərtlərindən istifadə etməklə hesablanmışdır [5,9].




Şəkil 6. *PID idarəetmə blok diaqramı [10]*


Hər birləşmənin PID idarəetmə sistemləri nəticəsində əldə edilən birgə orbit arayışı və reallaşdırılmış dəyər qrafikləri (şəkil 7) verilmişdir.




$a)$ θ_1 qrafiki




$b)$ θ_2 qrafiki



$c)$ θ_3 qrafiki



d) θ_4 qrafiki



e) θ_5 qrafiki

Şəkil 7. *PID idarəetmə sistemlərinin reallaşdırılmış qiymət qrafikləri*

Nəticə. Simmechanics istifadə edərək, insanabənzər robot əlinin modeli uğurla işlənib hazırlanmışdır. PID tənzimləyicinin tətbiqi ilə robot qolu modelləşdirilmiş və Matlab mühitində simulyasiya edilmişdir. Həyata keçirilən sınaqlar analiz edilmişdir. PID tənzimləyici insan qavrayışından 5%-dən az xəta ilə hərəkəti dəqiq yerinə yetirmiş, robot qolunun irəli kinematikasını təmin etmişdir.

Ədəbiyyat

1. Han J.D., Zeng S.Q., Tham K.Y., Badgero M., Weng J.Y., Dav: A Humanoid Robot Platform for Autonomous Mental Development, ICDL, 2012.
2. Kanda T., Ishiguro H., Ono T., Imai M., Nakatsu R., Development and Evaluation of an Interactive Humanoid Robot "Robovie", IEEE International Conference on Robotics Automation, 2002.
3. Tiejun Z., Dalong T., Mingyang Z., The Development of a Mobile Humanoid Robot with Varying Joint Stiffness Waist, IEEE International Conference on Robotics Automation, 2015.
4. Asfour T., Berns K., Dillmann R., The Humanoid Robot ARMAR Design and Control, IEEE, 2000. Ly D.N., Regenstein K., Asfour T., Dillmann R., A Modular and Distributed Embedded Control Architecture for Humanoid Robots, IEEE International Conference on Robotics Automation, 2014.
5. Albers A., Brudniok S., Ottnad J., Sauter C., Sedchaicharn K., Armar III – Design of the uper body.
6. Zhao T., Yuan J., Zhao M., Tan D., Research on the Kinematics and Dynamics of a 7-DOF Arm of Humanoid Robot, International Conference on Robotics and Biomimetics, 2016.
7. Eğrisöğüt A., Kozan R., Scara Robot Dinamiğinin Yapay Sinir Ağları Kullanılarak Modellenmesi, Mühendis ve Makina Dergisi, cilt 46, Sayı 550.
8. John J. Craig, Introduction to Robotics Mechanics and Control, 2014
9. Choi, C., Shin, M., Kwon, S., Park, W., & Kim, J. (2008, December). Understanding of hands and task characteristics for development of biomimetic robot hands. In Humanoid Robots, 2018. Humanoids 2018. 8th IEEE-RAS International Conference on (pp. 413-417). IEEE. Cutkosky,
10. M. R., & Wright, P. K. Modeling manufacturing grips and correlations with the design of robotic hands. In Robotics and Automation. Proceedings. IEEE International Conference on (Vol. 3, pp. 1533-1539). IEEE.

Məqalə qəbul olunub: 24.10.23
Tövsiyə edib: prof. Həsənov V.H.

UOT 556.727

SƏNAYE EKOLOGİYASI – AZƏRBAYCANDA SU OBYEKTLƏRİNİN MÜHAFİZƏSİ PROBLEMİ

Zərbəliyeva S.M.

Fövqəladə Hallar Nazirliyinin Akademiyası
AZ1089, Suraxanı, Elman Qasımov küç.
E-mail: sadagat.zarbaliyeva@fhn.gov.az

Xülasə. *Müasir cəmiyyətdə sənaye ekologiyasının rolu kəskin şəkildə artır. Bu səbəbdən də sənayeləşmənin təbiətə vurduğu zərərin dərəcəsinin qiymətləndirilməsi əsasında təbiəti qorumaq üçün mühəndis-texniki vasitələrin işlənib hazırlanmasına və təkmilləşdirilməsinə ehtiyac duyulur.Məqalədə ətraf mühitin qorunması, az tullantılı, tullantısız və qapalı texnoloji dövrlərin və istehsalın yaradılmasının əsaslarını hər cür inkişaf etdirmək haqqında fikirlər irəli sürülür.*

Аннотация. *В современном обществе резко возрастает роль промышленной экологии, в свою очередь призванной на основе оценки степени вреда, приносимого природе индустриализацией, разрабатывать и совершенствовать инженерно-технические средства защиты окружающей среды, всемерно развивать основы создания малоотходных, безотходных и замкнутых технологических циклов и производств.*

Abstract. *in modern society, the role of industrial ecology is sharply increasing, which, in turn, is called upon, on the basis of an assessment of the degree of harm brought to nature by industrialization, to develop and improve engineering and technical means of protecting the environment, to develop in every possible way the foundations for creating low-waste, waste-free and closed technological cycles and production.*

Açar sözlər: *sənaye ekologiyası, sənaye müəssisələri, çirklənmə, tullantı suları, su obyektləri, davamlı inkişaf*

Ключевые слова: *промышленная экология, промышленные предприятия, загрязнение, водоемы, сточные воды, устойчивое развитие*

Key words: *industrial ecology, industrial enterprises, pollution, wastewater, water bodies, sustainable development*

Giriş. Təbii mühitə ən böyük ziyan şəhərləşmiş və texnogen yüklü ərazilərin tərkib hissəsi olan sənaye müəssisələri, enerji və avtomobil nəqliyyatı tərəfindən vurulur. Bu, sənaye istehsalının və bütövlükdə iqtisadi sistemin təşkilinə və fəaliyyətinə yeni yanaşma tələb edir.

"Sənaye ekologiyası" anlayışı ilk dəfə 1989-da Frosch və Gallopulosun əsərləri ilə təqdim edilmişdir. Sənaye ekologiyası - ekologiyanın ayrı-ayrı müəssisələrdən texnosferə qədər sənayenin bütün sahələrinin ətraf mühitə təsirini öyrənən böyük bir bölməsidir.

Insan – təbiət münasibətləri geniş miqyaslı texnogen fəaliyyət nəinki biosferdə gedən proseslərin inkişafını pozur, həm də insanlığı təbiətdən uzaqlaşdırır. O, artıq biosenozlarla və ümumilikdə biogeosenozlarla üzvi vəhdətdə deyil. Bir qayda olaraq, insan təbiəti öz maraqlarına tabe etməyə çalışır. Onun fəaliyyətinin əksəriyyəti ekosistem qanunlarından kənara çıxır və hətta onlara baxmayaraq inkişaf edir. Nəticədə insan təbiətlə ziddiyyət təşkil edərək, onun yaşayış mühiti, həyat fəaliyyəti üçün xüsusi mühit - texnosfer yaratmışdır.

Bəşəriyyətin sosial-iqtisadi ehtiyaclarını ödəmək üçün insan tərəfindən texniki vasitələrin, eləcə də texniki və texnogen obyektlərin (binaların, yolların, mexanizmlərin) dolayı təsiri ilə boisfer köklü şəkildə dəyişdirilir. Beləliklə bu tip dəyişikliklər biosferdə yeni bir sferanı – texnosferanı yaradır. Demək texnosfera biosferin bir hissəsi olub, müasir insanın yaşayış yeridir.

N.F.Reymersə (1990) görə Texnosfer - biosferin bəşəriyyətin sosial-iqtisadi ehtiyaclarını ən yaxşı şəkildə ödəmək üçün texniki vasitələrin birbaşa və dolayı təsiri ilə insanlar tərəfindən dəyişdirilmiş hissəsidir [3]. Texnosfer – insanın məqsədyönlü fəaliyyəti nəticəsində yaradılmış süni obyektlərin və bu fəaliyyət nəticəsində dəyişdirilən təbii obyektlərin məcmusudur.

Yer qabığında, hidrosferdə, atmosferdə və kosmosa yaxında aparılan mühəndis-texniki proseslərin məcmusu, insana təbii ehtiyatlardan istifadə etməyə və yaşayış mühitinin vəziyyətini dəyişməyə imkan verən elmi-texniki nailiyyətlər, həmçinin biosferin yenidən qurulması və bəşəriyyətin geoloji qüvvə kimi üstünlük təşkil etdiyi yeni planetar qabığın (texnosferin) yaradılması, yəni insanın istehsal fəaliyyəti ilə bağlı olan hər şeyə texnogenez deyilir.

Texnogenez prosesində yaranan və ya onun əlavə nəticəsi kimi yaranan süni (texnogen) maddələr, o cümlədən orqanizmlərin yaşayış mühitinə müəyyən təsir göstərən istismardan kənar avadanlıqlar texnogen məhsullar adlanır.

V.A.Zaytsevin (1999) fikrincə, sənaye ekologiyası maddi, ilk növbədə sənaye istehsalının, insanların və digər canlı orqanizmlərin ətraf mühitlə əlaqəsini və qarşılıqlı asılılığını öyrənir, yəni onun tədqiqat predmeti ekoloji və iqtisadi sistemlərdir [2].

Sənaye ekologiyası təbiətdə həyata keçirilən material axınlarının tsiklik xarakterini təmin edən "tullantısız texnologiya" konsepsiyasına əsaslanır. Beynəlxalq Cəmiyyət olan Roma Klubunun hesabatları dünya şüurunun ekolojiləşdirilməsində, artımın ləngiməsinin və planet əhalisinin sabitləşdirilməsinin zəruriliyi ilə bağlı mövqeyin inkişafında mühüm rol oynadı.

Son illərdə alternativ ekoloji - iqtisadi anlayışlar da meydana çıxdı. İqtisadiyyat və ətraf mühit arasındakı əlaqədə köklü dəyişikliyin baş verməməsi ekotopiya anlayışına gətirib çıxardı. Bu konsepsiyanın əsas istiqamətləri bunlardır: mümkün qədər tez təbiətə qayıdış, bioloji və mədəni müxtəliflik, sadə texnologiyalar, yalnız ətraf mühiti məhv edən elmi-texniki tərəqqinin rədd edilməsi və s. Eyni zamanda, əxlaqi kamilliyə, insan kamilliyinin ictimai, dini və mənəvi cəhətlərinə çox diqqət yetirilməlidir.

Beləliklə, sənaye ekologiyasının əsas vəzifəsi təbii sərvətlərdən rasional istifadənin yollarını tapmaq, onların tükənməsinin, tənəzzülünün və ətraf mühitin çirklənməsinin qarşısını almaqdan və son nəticədə maddələrin texnogen və biogeokimyəvi dövrələrini birləşdirməkdən ibarətdir.

Əsas hissə. Sənaye müəssisələri tərəfindən su obyektlərinin çirklənmə dərəcəsini azaltmaq üçün sonuncunun layihələndirilməsi mərhələsində çirklənmiş tullantı sularının su obyektlərinə axıdılmasının həcmini kəskin şəkildə azaltmaq və ya qarşısını almaq üçün tədbirlər görmək lazımdır.

Yer kürəsinin 4 milyard illik inkişafı tarixində həyatın yaranması və biosferin formalaşması proseslərində su həlledici rol oynamış və oynamaqdadır. Hələ qədim zamanlardan bəri dünyanın elm adamları içməli suya daim diqqət yetirmiş, insan həyatında onun misilsiz rol oynadığını qeyd etmişlər. Şirin su problemi bu gün dünyada aktual sosial iqtisadi problemə çevrilmişdir və təəssüflə qeyd edilməlidir ki, onun həlli yolları istənilən səviyyədə deyil. Bunun üçün dünya birliyi müəyyən tədbirlər görür və suyun mühafizə olunması və qənaətlə işlədilməsi üçün optimal yollar axtarır. Bu məqsədlə 2005-ci il martın 22-də dünya birliyi ümumdünya içməli su gününü qeyd etdi və 2005-2015-ci illər BMT tərəfindən "İçməli su həyat üçün" devizi altında onillik elan olundu. Bu bir həqiqətdir ki, içməli su problemi bəşəriyyəti bir dünyəvi problem kimi narahat edib və etməkdədir. Şirin suyun bir litrinin qiyməti bu gün bəzi ölkələrdə neftlə bərabər səviyyəyə gəlib çatmışsa, gələcəkdə yaranacaq gərgin mənzərəni təsəvvür etmək heç də çətin deyildir. Hazırda bir çox ölkələrdə içməli su ticarət obyektinə çevrilib. Belə ki, Avropanın Almaniya, Niderland, Danimarka kimi inkişaf etmiş ölkələri İsveçdən içməli suyu satın alırlar, Yaponiyada mağazalarda şüşə qablarda Norveçdən gətirilmiş su satılır, 4 milyon nəfər əhalisi olan Honkonq kəmər vasitəsi ilə Çin Xalq Respublikasının kontinental ərazisindən su ilə təchiz olunur. Səudiyyə Ərəbistanı Filippindən, Sinqapur isə Malayziyadan tankerlərlə içməli su alır.

İnsan həyatında suyun misilsiz rol oynadığını nəzərə alan Azərbaycan respublikasında da içməli suya olan tələbatın ödənilməsi və su mənbələrinin axtarılması işinə daim diqqət yetirmiş və bu

problem bu gün də ölkə rəhbərliyinin nəzarətindədir. Bu sahədə görülən işlər Azərbaycanın Dövlət müstəqilliyinə qoşvuşduğu illərdən sonra daha da intensiv xarakter almışdır. Bu isə öz təsdiqini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yanında 23 iyul 2020-ci il tarixində Respublikada su təsərrüfatının vəziyyətinə həsr olunmuş müşavirədə tapmışdir [5].

Ümumilikdə bu layihələrin icrası nəticəsində ölkəmiz sürətlə inkişaf etmişdir. 2004-cü ildə Azərbaycanda içməli su ilə təminat 40 faiz səviyyəsində idisə, bu gün bu rəqəm 70 faizə çatıbdır. Bakı şəhərində içməli suyu davamlı şəkildə alan əhalinin sayı 29 faiz olduğu halda, bu gün bu rəqəm təxminən 82 faizə çatmışdır. Son illərdə Azərbaycanda həyata keçirilən nəhəng su layihələri vəziyyəti tamamilə müsbət tərəfə dəyişmişdir. Onların arasında Oğuz-Qəbələ-Bakı su kəmərinin, 270 milyon kubmetr su tutan, təqribən 30 min hektar suvarılmayan torpaqların suvarılmasına imkan verən Taxtakörpü su anbarının tikintisi, Ceyranbatan su anbarının yenidən qurulması, Şəmkirçay, Göytəpə və Tovuzçay su anbarlarının da inşası xüsusilə qeyd edilməlidir.

Dövlət səviyyəsində əhalinin su ilə təchiz olunmasına və suların çirklənməsinin qarşısının alınmasına xüsusi diqqət yetirilmişdir [4]. Bütün görülən tədbirlərə baxmayaraq çaylarımızın və sularımızın əvvəlki illərdə olduğu kimi indi də çirkləndirilməsi prosesi davam etməkdədir. Əslində isə su həyat deməkdir. İlk növbədə, insanların sağlamlığı böyük dərəcədə təmiz içməli sudan asılıdır. Gözləntinin belə çox olduğu bir vaxtda su itkilərinə yol verilməməli və suyun mənbəyi düzgün təhlil edilməlidir. Belə olduqda su çatışmazlığı olmazsa, iqtisadiyyatımıza, kənd təsərrüfatının inkişafına, fermerlərin gəlirlərinə ziyan vurulmaz, taxılçılıqda və pambıqçılıqda məhsuldarlıq daha yüksək olardı.

Belə ki, bəşəriyyətin "həyat mənbəyi" hesab olunan suların çirklənməsi ətraf mühitə edilən ən ciddi təsirlərdən hesab edilir. Suların çirklənməsi və yaranan ekoloji problemlər cəmiyyətdə təhlükəli proseslər kimi qiymətləndirilir. Su mühitinə düşən zərərli qarışıqların əksər hissəsi axınlar vasitəsilə çirklənmə mənbələrindən çox uzaq məsafələrə aparılaraq geniş sahələrdə ekoloji problemlərin yaranmasına səbəb olur. Su mühitinin mühafizəsi, sudakı flora və faunanın qorunub saxlanılması, suların öz-özünü təmizləməsi xüsusiyyətini saxlaması, sudakı çirkləndirici maddələrin xüsusiyyətlərinin öyrənilməsi müasir dövrün ən aktual problemlərindən biridir. Digər tərəfdən içməli suyun çatışmamazlığı problemi, ehtiyat şirin su mənbələri, onlardan istifadə olunması üçün tətbiq olunan texnologiyalar, belə suların istifadəçiyə çatdırılması şərtləri bu günümüzün ən aktual məsələlərindəndir. Görülən geniş miqyaslı tədbirlərə baxmayaraq xüsusilə mərkəzi şəhərlərdə su çatışmamazlığı hələ də qalmaqdadır. Bu problem özünü xüsusilə, yay aylarında daha qabarıq göstərir. Bəzən təmiz su həftələrlə kanalzasiyalara axır, və yaxud bəlkə də sahibinin işlətmədiyi iri həcmli su çənlərinə və hovuzlara doldurulur. Əhalinin bir hissəsi isə içmək üçün suya həsrət qalır. Böyük bağ sahibləri həftələrlə içməli su turbası ilə ağac sulayırlar. Belə hallar görülən fasiləsiz işlərə kölgə salır. Bu problemi aradan qaldırmaq üçün bir sıra adekvat tədbirlərin görülmısi daha məqsədə müvafiq olardı.

Bakıda su mövsümlər üzrə, qeyri-bərabər və əlverişsiz paylandığından, su anbarlarının tikintisi həmişə vacib məsələ olmuşdur. Tikilən su Anbarlarından isə bir çox məqsədlər üşün istifadə edilməsi daha məqsədə uyğun olardı. Bu anbarlardan yalnız suvarma və ya hidroelektrik enerji hasilatı məqsədilə ilə yox , bütün sahələrdə suya olan tələbatların ödənilməsi üçün istifadə edilməsi vəziyyəti yaxşılaşdıra bilər. Digər bir tərəfdən ağac əkmək bağ salmaq və becərmək hər tərəfli əhəmiyyətli bir işdir. Amma yaxşı olardı ki, bağlara verilən su ilə içməli su fərqlənəydi. Hətta içməli suya qoyulan qiymət fərqi də bizcə edilən israfçılığın qarşısını ala bilər. Belə olduqda su qıtlığının qarşısı alınar və suya olan tələbat vaxtında ödənilərdi.

Azərbaycanda içməli su kimi istifadə edilən Kür, Araz və digər çay sularının keyfiyyəti əsasən qonşu ölkələr tərəfindən pisləşdirilir. Kür çayı hövzəsinə axıdılan tullantı sularının böyük bir hissəsi Gürcüstanın və Azərbaycanın payına düşür. Kür çayına axıdılan tullantı sularının həcmi, 2000-ci illə müqayisədə 1992-ci ildə orta hesabla 55 faiz çox idi. Ona görəki, zəhərli zavodların fəaliyyəti dayandığına görə, axıdılan tullantıların miqdarı da azalmışdır [6].

Cənubi Qafqazdakı səth sularının bir hissəsi Türkiyə və İranın ərazilərində formalaşır. Kür və onun əsas qolu olan Araz çayları Cənubi Qafqazın əsas su arteriyalarıdır. Bu çayların hövzəsində regionun əsas şirin su ehtiyatı cəmləşmişdir.

Kür çayı Türkiyənin Ərdahan vilayətindən, 2470 metr hündürlükdən başlayır. Uzunluğu 1515 kilometr olan Kür çayının böyük qolu Araz çayıdır. Bu çay da Türkiyədən, hündürlüyü 2990 metrə çatan Bingöl silsiləsindən başlayır. Onun uzunluğu 1072 kilometrdir. Qeyd etmək lazımdır ki, Azərbaycanın su resurslarının 80%-i Kür çayı və onun qollarının payına düşür. Azərbaycan, Gürcüstan və Ermənistanın su mühafizə təşkilatlarının məlumatlarına görə 1992-ci ildə Kürün hövzəsinə 575 milyon kvadratkilometr tullantı suları axıdılmışdır. Onlardan ümumi həcmin 52 faizi Ermənistanın, 43 faizi Gürcüstanın 5 faizi isə Azərbaycanın payına düşür. Sonrakı illərdə həmin respublikalardakı iqtisadi çətinliklərlə əlaqədar bir çox zavod və fabriklərin dayanması səbəbindən bu rəqəmlər bir qədər azalmış, 1998-ci ildə ümumi həcmin 3,7 faizinə düşmüşdür. Bakı və digər böyük şəhərlərdə su paylama şəbəkələrinin köhnəlməsi səbəbindən böyük həcmdə su itkisi yaranır və nəticə etibarilə qrunt suları çirkab suları ilə çirklənir.

Nəticə. Bu çətinliklər göstərir ki, Azərbaycan əhalisi və iqtisadiyyatının şirin su ilə təmin edilməsi bu gün ən vacib problemlərdəndir. Bu problemin aradan qaldırılmasına kömək və dəstək göstərmək hər bir Azərbaycan vətəndaşının borcu olmalıdır.

Su hövzəsinin mühafizəsində aşağıdakı tədbirlər eyni dərəcədə mühüm rol oynayır:

1. Sənaye müəssisələrinin iri şəhərlərdən çıxarılması və əhalinin az məskunlaşdığı ərazilərdə kənd təsərrüfatına yararlı olmayan və yararsız torpaqlarla yenilərinin tikilməsi.
2. Ərazinin relyefi nəzərə alınmaqla sənaye müəssisələrinin optimal yerləşdirilməsi.
3. Sənaye müəssisələrinin ətrafında sanitar zonaların yaradılması.
4. Optimal ekoloji şəraiti təmin edən təmizləyici qurğuların tikintisinin rasional planlaşdırılması.
5. Tullantı sularının təmizlənməsinə əsaslanan drenajsız texnoloji sistemlərin və su dövriyyəsi dövrlərinin işlənib hazırlanması.
6. Texnologiyanın təkmilləşdirilməsi və daha az su sərfiyyatı olan avadanlıqların inkişafı.
7. Şərti təmiz və standart təmizlənmiş suların keyfiyyət tərkibini və növlərini göstərməklə su sərfiyyatının və tullantı sularının bilavasitə anbara axıdılmasının həcminin müəyyən edilməsi üçün hesablamaların aparılması;.

Beləliklə, sadalanan bu tədbirlər, ilk növbədə, müəssisələrdə su ehtiyatlarından istehsal ehtiyacları üçün daha səmərəli istifadəyə, təmizlənməmiş tullantı sularının axıdılmasını kəskin şəkildə azaltmağa, su obyektlərinin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına yönəldilməlidir.

Ədəbiyyat

1.“Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanunu. http:// www.eco. gov.az/qanunlar/q24.doc
2. Амиров Я.С., Сайфуллин Н.Р., Гимаев Р.Н. Технико-экономические аспекты промышленной экологии: Учебное пособие. Уфа: Изд-во УГНТУ, 1919. 262 с.
3. Промышленная экология. Под ред. Денисова В. В: Учеб. курс. Ростов-на-Дону, 2020. 720с.
4.“İstehsalat və məişət tullantıları haqqında” AR Qanunu, 1998 www.eco.gov.az/qanunlar/-istehsalat_və_məishət_tullantıları_haqqında_qanun
5. https://president.az/az/articles/view/39990
6. https://demokrat.az/az/news/130297/azerbaycanda-en-cox-cirklenmis-su-hovzeleri-hansilardir

Məqalə qəbul olunub: 24.10.23
Tövsiyə edib: prof. Həsənov V.H.

MƏQALƏLƏRİN TƏRTİBİ QAYDALARI

1. Əlyazma A4(210x297mm) formatlı, yuxarı və aşağıdan 25 mm, soldan və sağdan 20 mm boş yer saxlamaqla çap olunur. Əlyazmanın həcmi **8-10 səhifədən** çox olmamalıdır.
2. Hər bir məqalədə **UOT indekslər** və ya PACS tipli kodlar göstərilməlidir.
3. **Məqalə üç dildə - azərbaycan, rus və ingilis** dillərində çap oluna bilər. **Məqalədə xülasə 3 dildə və 100-150 söz aralığında verilməlidir**. Müxtəlif dillərdə olan xülasələrin mətnləri eyni və məqalənin məzmununa uyğun olmalıdır. Açar sözlər üç dildə - azərbaycan, rus və ingilis dillərində verilməlidir (5 sözdən az olmamaqla).
4. Məqalənin mətni azərbaycan dilində - latın, rus dilində - kiril, ingilis dilində - ingilis əlifbası ilə Times New Roman versiyasında 12 şrift ilə, bir intervalla yığılmalıdır.
5. Tənliklər və düsturlar mətndən bir boş sətirlə ayrılmalıdır.
6. Düsturları, ardıcıl olaraq, sətrin sağ tərəfində dairəvi mötərizələrdə yerləşdirilmiş ərəb rəqəmləri ilə nömrələmək lazımdır.
7. Simvolların və ədədi əmsalların izahı bilavasitə düsturun altında, onların düsturda rast gəlindiyi ardıcıllıqla verilməlidir.
8. Məqalənin nəticələrində, elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və alınan əsas nəticələr aydın şəkildə verilməlidir.
9. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla verilməlidir. Onlara istinad [1] və ya [1, s.119] kimi işarə olunmalıdır. Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.
10. Məqalədə müəllif(lər)in işlədiyi müəssisə və onun ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.
11. Məqalənin sonunda məqaləni çapa tövsiyə edən müəssisənin elmi şurasının müvafiq iclas protokolunun nömrəsi və tarixi qeyd olunmalıdır.
12. Müəllif(lər) məqalənin çap olunması üçün yazılı surətdə razılıq verməlidir(lər).
13. Səhifələr vərəqin sağ tərəfdəki aşağı küncündə karandaşla nömrələnməlidir.
14. Əlyazmada aşağıdakı ardıcıllıq gözlənməlidir:
    - UOT indeks (qalın, 12 ölçü, böyük hərflərlə, məqalənin yuxarısında, sol hissədə abzasdan yazılmalı);
    - məqalənin adı (qalın, 12 olçü, böyük hərflərlə yazılmalı, UOT indeksilə məqalənin adı arasında iki interval buraxılmalıdır);
    - müəllif(lər)in soyadı, adı, atasının adı (qalın, 12 olçü, kiçik hərflərlə yazılmalı, məqalənin adı ilə müəllif(lər)in soyadı arasında bir interval buraxmalıdır);
    - təşkilatın adı, ünvanı, e-mail (12 olçü, kursiv, kiçik hərflərlə yazılmalı, müəllif(lər)in soyadı ilə təşkilatın adı, ünvanı, e-mail arasında bir interval buraxılmalıdır);
    - **Xülasə**
    - **Abstract**
    - **Аннотация**
    - **Açar sözlər**
    - **Key words**
    - **Ключевые слова**
    - **Giriş**
    - **Məsələnin qoyuluşu**
    - **Alınmış nəticələrin analizi**
    - **Nəticə**
    - **İstifadə olunmuş ədəbiyyat**
15. Əlyazmalar çap və elektron variantda təqdim olunur.

PREPARATION RULES ARTICLES

1. Handwriting is published leaving 20 mms space from right and left, 25 mms from top and bottom in A4 (210 x 297 mm) form. The volume of handwriting must not exceed **8 – 10 pages.**
2. In each article indexes of **UOT** and/or PACS types codes must be shown
3. **The article can be published in three languages: Azerbaijani, Russian and English.** The texts of abstracts in different languages must be the same and must conform to the content of the article. Key words must be given in three languages: Azerbaijani, Russian and English.
4. The texts of the article in Azerbaijani must be typed in Azerbaijani language in Latin, in Russian language in Cyrillic and in the English language in Latin alphabets with one interval, with the size of 12 in Times New Roman version.
5. Equations and formulae must be separated from the text by one empty line.
6. Formulae must be systematically numbered in Arabic figures given in round brackets on the right side of the page.
7. Explanation of symbols and literary coefficient must directly be given under the formulae with the succession they are met in the equations.
8. Scientific innovation and importance of the application, economic benefit of the work must be given in accordance with the character of the article and field of science in the summary of the article.
9. The list of literature given at the end of article must be given by succession as they are referred to in the article. The reference to them must be noted like [1] or (1, p.119). Advantage must be given to the references to the scientific articles, monographs of the last 5- 10 years in the literature list.
10. The place of work of the author(s), their addresses, and e – mail address must be shown in the article.
11. At the end of the article the number of the protocol of the appropriate meeting and date of scientific council of the institution advising the article for printing must be noted.
12. The author(s) must give written consent for the printing of the article.
13. The pages must be numbered by pencil in the right corner of the bottom of the paper.
14. The following succession must be observed.
    - UOT index (bold, size 12, big letters, on the top of the article, on the left side from the new line);
    - Title of the article (bold, size 12, big letters, Two-unit space must be between the title of the article and UOT index);
    - Surname and initials of the author(s), e-mail, name of the organization, its addresses must be in bold, size of 12, with the small letters. Two-unit space must be between the name of the article and the author(s)
    - Name of the organization and its address and e-mail must be in italics of 12 size in small letters. One-unit interval must be between the name of the article.
    - **Abstract**
    - **Key words**
    - **Introduction**
    - **Formulation of the issue**
    - **Analysis of the results achieved**
    - **Result**
    - **The literature used**
15. Handwritings must be presented and electronic version

ПРАВИЛА ОФОРМЛЕНИЯ СТАТЕЙ

1. Рукопись печатается в формате А4 (210х297 мм), отступ сверху и снизу – 25 мм, слева и справа – 20 мм. Объём рукописи не должен превышать **8-10 страниц.**
2. В каждой статье должны быть указаны индексы **УДК или коды типа PACS**.
3. Статья может быть написана на одном из трёх языков: азербайджанском, русском или английском. Аннотация представляется на 3 языках. Тексты аннотации на этих языках должны быть идентичными и соответствовать содержанию статьи. Ключевые слова должны быть идентичными и соответствовать содержанию статьи. Ключевые слова должны быть на трёх языках: азербайджанском, русском и английском (не менее 5 слов).
4. Текст статьи должен быть набран с интервалом 1, шрифтом 12 версии Times New Roman: на азербайджанском языке - латиницей, на русском - кириллицей, на английском - английским алфавитом.
5. Уравнения и формулы должны быть отделены от текста одной пустой строкой.
6. Уравнения необходимо последовательно нумеровать с правой стороны строки в круглых скобках.
7. Пояснения и числовые коэффициенты даются непосредственно под уравнением в той же последовательности, что и в уравнении.
8. В выводах статьи должны в ясной форме указаны соответствующие характеру статьи научная новизна работы, прикладное значение, экономическое значение.
9. В конце статьи необходимо указывать использованную литературу в той последовательности, в которой она встречается в статье. Ссылки на источники должны обозначаться как [1] или [1, с. 119]. В качестве использованной литературы нужно отдавать предпочтение источникам, опубликованным за последние 5-10 лет.
10. В статье необходимо указывать место работы автора (авторов), его адрес и адрес электронной почты.
11. В конце статьи необходимо указывать номер и дату заседания учёного совета предприятия, рекомендующего статью к печати.
12. Автор (авторы) должны в письменной форме дать согласие на публикацию.
13. Страницы должны быть пронумерованы карандашом с правой стороны внизу страницы.
14. В статье должна быть информация в следующем порядке:
    - Индекс УДК (жирно, размер 12, прописными буквами и набраны в левой части с абзаца).
    - Название статьи (жирно, размер 12, прописными буквами, между индексом УДК и названием статьи должно быть два интервала).
    - Фамилия и инициалы строчными буквами, жирно, размер 12. Между названием статьи и информацией об авторах должен быть пробел в один интервал.
    - Название организации, адрес, e-mail авторов строчными буквами, курсив, размер 12. Между фамилиями авторов и информацией о них должен быть пробел в один интервал. Статья должна иметь следующую структуру:
    - **Аннотация**
    - **Ключевые слова**
    - **Введение**
    - **Постановка задачи**
    - **Анализ полученных результатов**
    - **Выводы**
    - **Литература**
15. Статьи необходимо представлять в печатюм и в электронной версии.

Yığılmağa verilib: 15.09.23. Çapa imzalanıb 30.11.23.
Format 60x84 $^{1}/_{8}$. F.ç.v.19. Sifarış №19
Kağız əla növ. Tiraj 60 nüsxə. Qiyməti müqavilə ilə.

"Azərbaycan Dövlət Dəniz Akademiyası" PHŞ-nin mətbəəsi